**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ERKƏN ORTA ƏSRLƏRDƏ ALBANİYANIN UTİ VİLAYƏTİNİN YAŞAYIŞ MƏSKƏNLƏRİ

İxtisas: 5505.02 – Arxeologiya

Elm sahəsi: Tarix

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**

İddiaçı: ___________ **Zümrüd Nağı qızı Qəhrəmanova**

Elmi rəhbər: ___________ Tarix üzrə elmlər doktoru, professor
**Arif Məhəmməd oğlu Məmmədov**

**BAKI – 2021**

## MÜNDƏRİCAT

**GİRİŞ** ... 3

**I FƏSİL. UTİ VİLAYƏTİNİN TARİXİ COĞRAFİYASI VƏ SİYASİ TARİXİ** ... 10

1.1. Uti vilayətinin tarixi coğrafiyası ... 10

1.2. Uti vilayətinin siyasi tarixi ... 15

**II FƏSİL. YAŞAYIŞ YERLƏRİ VƏ İSTEHKAMLAR** ... 19

2.1.Şəhər tipli yaşayış yerləri ... 19

2.2.Kənd tipli yaşayış yerləri ... 59

2.3.Qalalar və müdafiə istehkamları ... 62

2.4.Qəbir abidələri və memorial tikililər ... 69

2.5. Arxeoloji materialların təsnifatı ... 83

**III FƏSİL. UTİ VİLAYƏTİNİN İLK ORTA ƏSR TƏSƏRRÜFAT HƏYATI** ... 102

3.1.Əkinçilik ... 102

3.2.Bağçılıq və bostançılıq ... 107

3.3.Maldarlıq ... 111

3.4.Sənətkarlıq ... 116

3.4.1.Dulusçuluq ... 116

3.4.2.Metalişləmə ... 120

3.4.3.Şüşə məmulatı istehsalı ... 123

**NƏTİCƏ** ... 126

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ... 132

**İLLÜSTRASIYALAR** ... 144

**QƏBUL OLUNMUŞ İXTİSARLAR** ... 192

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünyanın insanlar tərəfindən məskunlaşmış ən qədim mədəniyyətlərin ilkin ocaqları sırasında Xəzər-Aralıq dənizi, İran körfəzi əraziləri durur. Ulu babalarımızın ən qədim nəsillərinin yaşadığı tarixi Azərbaycan torpaqları bu regionun mərkəzində yerləşir. Bu baxımdan Azərbaycan tarixinin və arxeologiyasının erkən orta əsrlər mərhələsi Azərbaycan (Qafqaz) Albaniyasının mühüm bir dövrünü əhatə edir.

Uti vilayətinin ilk orta əsr abidələrinin arxeoloji tədqiqi də bu baxımdan əhəmiyyətlidir. Tədqiq olunan ərazi mərkəzi Bərdə olmaqla Kür çayının sağ sahilində yerləşən alban torpaqlarını təşkil edirdi. Bu bölgə şimal və şimal-şərqdən Kür çayı (Qarqar düzü də daxil olmaqla), cənub-şərqdən Araz çayı, o cümlədən Paytakaran (Kaspiana) əyaləti ilə, qərbdən Arsax əyaləti ilə sərhədlənirdi. Əyalətin şimal-qərb torpaqları Sakasena və Girdiman vilayətlərini əhatə edirdi. İstər Sovetlər dönəmində, istərsə də müstəqillik illərində bölgənin ilk orta əsr yaşayış yerlərində aparılan arxeoloji tədqiqatların nəticələri hesabatlarda, məruzə və tezislərdə, məqalələrdə əksini tapsa da kompleks şəkildə tədqiqata cəlb edilməmişdir. Aparılan arxeolji və yazılı qaynaqlara əsasən erkən orta əsrlərdə Qafqaz Albaniyası əyalətlərə və vilayətlərə bölünürdü. Albaniya ərazisində 12 əyalət mövcud olmuşdur. Bu əyalətlərə Kabalaka, Şəki, Kambisena, Əcəri, Çola, Lipina, Kaspiana, Uti, Sakasena, Girdman, Arsax və Sünik daxil idi. Albaniyanın Kürün sağ sahilindəki əraziləri 4 böyük nahanqa (əyalətə), 6 vilayətə bölünmüşdü. Nahanqlar Arsax, Uti, Paytakaran və Sünikdən ibarət idi. Uti əyaləti (nahanqı) xırda ərazilərə havarlara bölünmüşdü. Onların içərsində əsas yeri Sakaşena və Girdiman tuturdu. Sakaşena vilayətinin ərazisi Arsax əyaləti ilə Kür çayı arası torpaqları əhatə edirdi. Girdiman vilayətidə Albaniyanın şimal şərq torpaqlarını əhatə edirdi. Aparılan arxeoloji və yazılı mənbələrə əsasən deyə bilərik ki, Qafqaz Albaniyasının Uti əyalətinin müasir tarixi coğrafi ərazisi Tərtər rayonlarının ərazisi, Ağdərə, Goranboy, Ağdam, Ağcabədi, Füzuli, rayonlarının ərazisinin bir

hissəsi və müasir Yevlax rayonunun Kür çayının sağ sahilində yerləşən və Bərdə rayonuna yaxın əraziləri əhatə etmişdir.

Azərbaycan Qafqaz Albaniyasının tarixi ərazilərindən biri olan Uti vilayətinin ilk orta əsr yaşayış yerlərində aparılmış arxeoloji tədqiqatların nəticələrinin kompleks şəkildə tədqiq olunması zərurəti də mövzunun aktuallığını şərtləndirən əlamətlərdəndir. 30 ilə yaxın bir müddətdə, Uti vilayətinin bir hissəsinin işğal altında olduğunu və ermənilərin əsassız ərazi iddialarını, maddi mədəniyyət abidələri üzərində apardıqları saxtakarlıqları və beynəlxalq ictimaiyyəti çaşdırmağa yönələn cəhdləri də bu bölgənin ilk orta əsr yaşayış yerlərinin daha dərindən tədqiqini aktuallaşdırır. Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də Uti vilayətinin ərazisində yerləşən və mənbələrdə adı çəkilən ilk orta əsr yaşayış yerlərinin bu vaxta qədər lokallaşdırılmamasıdır.

Təqdim olunacaq dissertasiya işində ən aktual məsələlərdən biri ilk orta əsr yaşayış yerlərinin adlarının dəqiqləşdirilməsi, şəhər və kənd tipli yaşayış yerlərinin ilk dəfə olaraq sistemli şəkildə arxeoloji tədqiqata cəlb edilərək öyrənilməsi, onların Qafqaz Albaniyasının ilk orta əsrlərdəki siyasi, iqtisadi və mədəni həyatındakı yerinin müəyyənləşdirilməsidir. Uti əyalətinin ilk orta əsr yaşayış yerləri tədqiq olunarkən bölgənin təbii-coğrafi mühitinin və yaşayış məskənlərinin xarakterik xüsusiyyətlərinin nəzərə alınması diqqətdə saxlanılmışdır. Yaşayış yerlərinin yaranması və onların tənəzzülündə ticarət karvan yollarının, bölgədən axan çayların və onlardan çəkilən arxların, ərazidə baş vermiş siyasi proseslərin, yadelli hücumlarının və daxili çəkişmələrinin təsiri də mövzunun araşdırılmasında əsas şərtlərdəndir.

Təqdim olunan mövzunun ayrıca dissertasiya mövzusu kimi işlənilməsi Uti əyalətinin Qafqaz Albaniyasının erkən orta əsrlər dövrü tarixinin, arxeologiyasının öyrənilməsindəki yerinin dəqiqləşdirilməsi baxımından da diqqəti cəlb edir. Həmçinin, tədqiqat işinin erkən orta əsrləri (III-IX əsrlər) əhatə etməsi Qafqaz Albaniyasının Uti əyalətinin əhatə etdiyi ərazidə aparılan arxeoloji qazıntılar zamanı əldə edilən maddi mədəniyyət qalıqlarının dövrü ilə əlaqəlidir.

Qafqaz Albaniyasının Uti əyalətinin arxeoloji abidələri ayrı-ayrılıqda arxeoloqlar, etnoqraflar, tarixçilər və s. tərəfindən pərakəndə şəkildə qismən tədqiq olunmuşdur. Ərəb müəlliflərindən Əl-İstəxri [114], Əl-Məsudi [129], İbn Hövqəl [116] və digərlərinin əsərlərində Uti vilayətinə dair məlumatlar yer alıb [37; 105]. Azərbaycanın Uti vilayətinin erkən orta əsr yaşayış yerlərində XX əsrin əvvəllərindən başlanan arxeoloji tədqiqatlar, həmin əsrin ikinci yarısından daha da gücləndirilmiş, XXI əsrin əvəllərində isə işğala məruz qalmamış ərazilərdə davam etdirilmişdir. Azərbaycan arxeoloqlarından Qüdrət İsmayılzadənin Füzuli rayonundakı Qaraköpəktəpədə, Rəhim Vahidovun Ağdam rayonu ərazisindəki Govurqalada, Rəşid Göyüşovun Qarabağın xristian məbədlərinin yerləşdiyi ilk orta əsr yaşayış yerlərində, Aləm Nuriyevin, Arif Məmmədovun Bərdə şəhəri ərazisində (Şətəl şəhər yerində),Hidayət Cəfərovun Tərtər rayonu ərazisindəki Toxmaxtəpənin ilk orta əsr təbəqəsində, Təvəkkül Əliyevin Beyləqandakı tədqiqatlarından Uti vilayətinin ərazisi, yaşayış yerləri, müdafiə tikillilərindən və s. bəhs edilir.

R.B.Göyüşovun "Qarabağın keçmişinə səyahət" [41], əsərində Qarabağ bölgəsində, həmçinin Uti vilayətində daş bütlər, məbədlər və digər maddi mədəniyyət abidələri haqqında dəyərli məlumatlar vardır. Müstəqillik dövründə erkən orta əsr abidələrində, o cümlədən Nağaratəpədə, Şortəpədə, Balatəpədə A.M.Məmmədov tərəfindən aparılan arxeoloji kəşfiyyat işləri bu dövrü öyrənmək baxımından dəyərlidir [79].

Q.S.İsmayılzadənin "Arxeoloqun çöl gündəliyindən" [54], adlı əsərləri bölgənin tədqiqi baxımından qiymətlidir. Tədqiqatçının Qaraköpəktəpə yaşayış yeri, Əhmədalılar türbəsi və s. tarixi maddi-mədəniyyət abidələri və yaşayış yerləri haqqında verdiyi məlumatlar diqqətə layiqdir.

Qarabağın, bütövlükdə Azərbaycanın VII-IX əsr tarixini öyrənmək baxımından akademik Z.M.Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" kitabı əhəmiyyətlidir [22]. Kitabda Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Qarabağ bölgəsinin ərəb istilası ərəfəsindəki sosial-iqtisadi və siyasi vəziyyəti, əhalinin ərəblərə qarşı mübarizəsi, istiladan sonrakı dövrdə inzibati ərazi bölgüsü,

vergi sistemi, kənd təsərrüfatı, sənətkarlq, ticarət və s. haqqında dəyərli məlumatlar verilib.

Q.M. Əhmədovun "Orta əsr Beyləqan şəhəri" [30], "Örənqala", T.R.Əliyevin "Qarabağın tarix və mədəniyyət abidələrinə qarşı terror" [34], T.M.Məmmədovun "Qafqaz Albaniyası ilk orta əsrlərdə" [83], A.B.Nuriyevin "Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi" [89], A.Ş.Orucovun "İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq" [92] və R.M.Vahidovun "Mingəçevir III-VIII əsrlərdə [102], A.M.Məmmədovun Gəncəbasar IV-XIII əsrlərdə [72], Q.Ə.Cəbiyevin "Girdiman tarixi və tarixi-coğrafiyası" [25], T.M.Dostiyevin "Şimal-Şərqi Azərbaycan IX-XIV əsrlərdə [28], X.A. Qasımovun "Orta əsrlərdə Azərbaycan mədəniyyəti" [62] və s. monoqrafiyalarından, elmi məqalələrindən və əsərlərindən istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyektini Qafqaz Albaniyasının Uti əyalətinin ilk orta əsr yaşayış yerləri, qəbir abidələri, müdafiə tikililəri, istehkamları, eləcə də onlarda aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqları və s. təşkil edir.

Dissertasiya işinin predmetini isə erkən orta əsrlərdə Qafqaz Albaniyasının Uti vilayətinin arxeoloji abidələrinin xəritəsinin tərtib edilməsi, arxeoloji materialların təhlil olunması, maddi mədəniyyəti haqda ümumi təsəvvür yaradılması, təsərüffat həyatının (əkinçiliyin, maldarlığın, sənətkarlığın, ticarətin) inkişafını öyrənmək təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədini ilk orta əsrlərdə Qafqaz Albaniyasının Uti vilyətində şəhər və kənd tipli yaşayış məskənlərinin yaranması, inkişafı və tənəzzül səbəbləri, əhalinin təsərrüfat həyatı, dini görüşləri, sənətkarlığı, tikinti memarlıq abidələri, iqtisadi-ticarət əlaqələrinin tədqiqi təşkil edir.

Yazılı mənbə məlumatları ilə arxeoloji qazıntıların nəticələrinin uzlaşdırılması, maddi mədəniyyəti haqda ümümi təsəvvürün yaradılması, onların müqayisəli təhlili və yekun nəticəyə gəlinməsi də tədqiqat işinin mühüm vəzifələrindəndir. .

**Tədqiqat metodları.** Dissertasiya işi yazılarkən tarixi Uti vilayətinin erkən

orta əsr abidələrində aparılmış arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqlarının öyrənilməsində müasir arxeologiya elmində qəbul edilmiş tipoloji təhlil metodu əsas götürülmüşdür.

Eyni dövrə aid müxtəlif tipli yaşayış yerlərinin öyrənilməsində, eləcə də aşkar edilən arxeoloji dəlillərin mənbə məlumatları ilə uzlaşdırılmasında müqayisəli təhlil metodundan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

-Qafqaz Albaniyasının Uti vilayətinin ilk orta əsrlər dövrü tarixi-coğrafiyasını dəqiqləşdirmək;

-Uti vilayətinin erkən orta əsrlər dövründə Albaniyanın siyasi, iqtisadi və mədəni həyatında yerini və rolunu müəyyənləşdirmək;

-Uti vilayətinin ilk orta əsr Şəhər tipli, kənd tipli yaşayış yerlərinin tarixi-arxeoloji baxımından tədqiqini həyata keçirtmək;

-Uti vilayətinin erkən orta əsr qəbir abidələrini, müdafiə tiklilərini, istehkamlarını araşdırmaq və orada aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət nümunələrinin tədqiqini həyata keçirmək;

-Qafqaz Albaniyasının Uti vilayətinin ilk orta əsrlər dövründə ölkənin digər bölgələri ilə iqtisadi və mədəni əlaqələrini arxeoloji materiallar əsasında araşdırmaq;

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işi Qafqaz Albaniyasının Uti vilayətinin erkən orta əsr maddi mədəniyyətinin öyrənilməsinə həsr olunmuş ilk ümumiləşdirici elmi tədqiqat işidir. İlk dəfə olaraq Uti vilayətinin erkən orta əsr yaşayış yerləri abidələri qruplaşdırılaraq kompleks şəkildə müqayisəli təhlil edilmiş, sənətkarlığı, təsərrüfat həyatı, ticarət əlaqələri, dini abidələri və s. öyrənilmişdir. Ayrı-ayrı arxeoloqlar tərəfindən aparılmış arxeoloji qazıntıların nəticələrinin ümumiləşdirərək elmi süzgəcdən keçirilməsi tədqiqatın mühüm yeniliklərindəndir. Mövzu işlənərkən bölgədə aparılan arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq, III-IX əsrlərdə mövcud olmuş maddi mədəniyyətin özündən əvvəlki ənənələr əsasında inkişaf nəticəsində yaranmasına, varislilik prinsipinin izlənilməsinə və mövcud maddi mədəniyyətin yerli zəminlə bağlı

xüsusiyyətlərinin yeni elmi dəlillərlə möhkəmləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Dissertasiya işlənərkən Azərbaycanın və qonşu ölkələrin həmdövr abidələrinin materialları ilə müqayisələr aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat işinin nəticələrinin

- Uti vilayətinin ilk orta əsr yaşayış yerlərinin tədqiq olunmasının bölgənin Azərbaycanın siyasi, iqtisadi və mədəni tarixində tutduğu yerin müəyyənləşdirilməsində ;

- Azərbaycanın arxeologiyasına dair ümumiləşdirici əsərlərin yazılmasında;

-Azərbaycanın maddi mədəniyyətdəki ənənəviliyin və irsiliyin izlənilməsində;

- Ali tədris müəssisələrində mühazirələrin tərtibində;

- Dərs vəsaitlərinin hazırlanmasında;

- Azərbaycan arxeologiyasının, Azərbaycan tarixinin, memarlıq və incəsənət tarixinin mühüm problem məsələlərinin yeni elmi aspektdə tədqiqində;

- Tarix-diyarşünaslıq muzeylərinin yaradılmasında;

- Qarabağ üzrə elmi-kütləvi filmlərin hazırlanmasında;

- Orta məktəb şagirdlərində vətənpərvərlik hissinin təbliğində və möhkəmləndirilməsində;

- Tarix və memarlıq abidələrinin mühafizəsində;

- Turizmin inkişafında mühüm əhəmiyyəti ola bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiya giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı, ixtisar olunmuş sözlər, işə əlavə edilmiş tablo və şəkillərdən ibarətdir. Dissertasiyada araşdırılan problemlər üzrə iddiaçının "Qafqaz Albaniyasının Uti vilayətnin ilk orta əsr yaşayış məskənləri" adlı elmi tədqiqat işinin əsas nəticələri AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində müzakirə edilərək nəşr olunmuş məqalələrində elmi ictimaiyyətə çatdırılmışdır. Tədqiqat işinin əsas yekunları ilə əlaqədar respublika və beynəlxalq əhəmiyyətli konfranslarda elmi məqalələrlə çıxışlar edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmiş, İnistitutun digər şöbələrindən dəvət edilmiş əməkdaşların iştirakı

ilə müzakirə edilmiş və AMEA –nın Naxçıvan bölməsinin Arxeologiya və Etnoqrafiya İnistitutuna müdafiəyə təqdim olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi**: Dissertasiya giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı və illüstrasiyalardan ibarətdir. Dissertasiya işinin I fəsli "Uti vilayətinin tarixi coğrafiyası və siyasi tarixi" adlanır və 18 min, 857 işarədən ibarətdir. "Uti vilayətinin tarixi coğrafiyası" adlanan ilk paraqrafı 11 min, 319 işarədən, "Uti vilayətinin siyasi tarixi" adlanan ikinci paraqrafı 7477 işarədən ibarətdir.

"Yaşayış yerləri və istehkamlar" adlanan ikinci fəsil 143 min, 585 işarədən ibarətdir. Fəslin "Şəhər tipli yaşayış yerləri" adlanan birinci paraqraf 89 min , 538 işarədən ibarətdir. "Kənd tipli yaşayış yerləri" ikinci paraqrafı 9 min, 9 işarədən ibarətdir. "Qalalar və istehkamlar" adlı paraqraf isə 13 min, 588 işarədən ibarətdir. "Qəbir abidələri və Memorial tikililər" adlı paraqraf 31 min, 435 işarədən "Arxeoloji materialların təhlili" adlanan beşinci paraqrafı 39 min, 693 işarədən, ibarətdir iabrətdir.

Dissertasiya işinin III fəsli "Uti vilayətinin ilk orta əsr təsərrüfatı" adlanır və 52 min, 017 işarədən ibarətdir. Bu fəslin "Əkinçilik" adlanan paraqrafı 11 min, 897 işarədən ibarətdir. "Bağçılıq və bostançılıq" adlanan ikinci paraqraf 8 min, 184 işarədən ibarətdir. "Maldarlıq" adlanan üçüncü paraqraf 12 min, 740 işarədən ibarətdir. "Sənətkarlıq" adlanan dördüncü paraqrafı 354 işarədən ibarətdir. Dördüncü paraqrafın "Dulusçuluq" adlanan birinci bəndi 8 min, 236 işarədən, "Metalişləmə" adlanan ikinci bəndi 5411 işarədən, "Şüşə məmulatı istehsalı" adlanan üçüncü bəndi isə 5 min, 133 işarədən ibarətdir. Dissertasiya işinin mətni (ədəbiyyatsız və illustrativ materiallarsız) ümumilikdə, 281 min, 665 işarədən ibarətdir.

# I FƏSİL. UTİ VİLAYƏTİNİN TARİXİ COĞRAFİYASI VƏ SİYASİ TARİXİ

## 1.1. Uti vilayətinin tarixi coğrafiyası

Erkən orta əsr yazılı qaynaqlarna əsasən aydın olur ki III-VII əsrlərdə Qafqaz Albaniyası dövlətinin ərazisi çox geniş olmuş, şimaldan Böyük Qafqaz sıra dağlarından başlayaraq, cənubda Araz çayına indiki Mil-Muğan düzləri daxil olmaqla, Paytakaran, Uti, Arsax nahiyyələri Girdiman, Sakaşena, Kambisena, Çola, Lipina v.s. vilayətləri daxil olmaqla qərbdə İberyayadək, şərqdə Xəzər dənizinə qədər geniş bir ərazini əhatə edirdi (Şəkil 1.1). Eyni zamanda M.Kalankatlı da bu məlumatları təsdiq edir [56, s. 92]. Erkən orta əsrlərdə Qafqaz Albaniyasının ərazisi inzibati baxımından əyalətlərə (nahanqalara) və vilayətlərə (havarlara) bölünmüşdü. Əyalətlər vilayətlərə ayrılırdı. Albaniya ərazisində 12 əyalət mövcud olmuşdur. Bu əyalətlərə daxil idi (Kabalaka, Şəki, Kambisena, Əcəri, Çola, Lipina, Kaspiana, Uti, Sakaşena, Girdman, Arsax və Sünik.). Həmin əyalətlər də şərti olaraq iki hissəyə bölünürdü. Onlardan ilk 6 əyalət Kürün sol sahili, digər 6 əyalət isə Kürün sağ sahil torpaqlarını əhatə edirdi [94, s. 17]. Albaniyanın Kürün sağ sahilindəki əraziləri 4 böyük nahanqa (əyalətə), 6 vilayətə bölünmüşdü. Nahanqa Arsax, Uti, Paytakaran və Sünik nahanqları idi. Uti əyaləti (nahanqı) xırda ərazilərə havarlara bölünmüşdü. Onların içərsində əsas yeri Sakaşena və Girdiman tuturdu [104, s. 50 ].

Utiyə tabe olan Sakasena ilə bağlı Strabonun məlumatı diqqətəlayiqdir. Müəllif məlumat verir ki, saklar Baktriya (Bəlx) və s. əraziləri tutduqdan sonra Qafqazda ən məhsuldar torpaqlara sahib olub burada məskunlaşmışlar. Onların daşıdığı ada uyğun olaraq Sakasena toponimi meydana gəlmişdi ki, mənası Sak düzü kimi izah edilir [94, s. 20]. R.Göyüşovun arxeoloji tədqiqatlarına əsasən,belə qənaətə gəlmək olar ki, Qarabağda yerləşən "Xüsusi Uti"nin ərazisi Sakasena vilayətinin ərazisi ilə eynilik təşkil etmişdir. Uti əyalətinin Sakasena vilayətinin "Mərkəzi Uti" və ya "Xüsusi Uti" adlandırılmasının səbəbi Albaniyanın siyasi, dini mərkəzinin Utinin bu hissəsində, başqa sözlə Sakasenada yerləşməsi olmuşdur. Beləliklə, paytaxt Bərdə şəhəri daxil olmaqla Aran Qarabağın əsas hissəsi, Kür çayı

ilə Dağlıq Qarabağ arasındakı ərazi Mərkəzi Utini – Sakasenanı əhatə edirdi. Yəni Sakaşena Arsax vilayəti ilə Kür çayı arasında yerləşirdi [41, s. 5].

Utinin tərkibinə daxil olan Girdiman əyalətinin lokallaşdırılmasna aid tarixçilər üç ayrı-ayrı nəzəriyyə irəli sürmüşdülər. Bu barədə albanşünas F.C.Məmmədovanın öz mövqeyi vardır. Onun fikrincə, Uti vilayəti Albaniyanın şimali-qərbində yerləşmişdi [124, s. 186]. F.C.Məmmədova göstərir ki, bədnam qonşumuz olan ermənilərin saxta mülahizələrinə görə 387-ci ilə qədər Albaniyanın cənub sərhəddi Kür çayı boyunca keçirmişdir. Guya Arsak, Uti, Paytakaran və digər Alban vilayətləri onlara aid olmuş və 387-ci ildə Erməni çarlığı dağılandan sonra Albaniyayanın tərkibinə keçib. Bu fikir M. Çamçyana məxsusdur. Ermənilər bu yalanlarını doğru çıxartmaq üçün cəhdlər etmişdilər [84, s. 106]. Belə cəhdlərdən birini də 1963-cü ildə S.T.Yeremyan irəli sürmüşdü. Albaniyanın Arsak və Uti vilayətlərinin Ermənistanın vilayətləri olması və ya onun hakimiyyəti altında olması kimi mühakimə və fərziyyələr S.T.Yeremyan, K.B.Trever, A.Ş.Mnatsakanyan və B.Ulubabyana məxsusdur [85, s 106-107]. Albaniyanın Kür-Araz ovalığının, o cümlədən də Qarabağ ərazisinin e.ə. II əsrdən miladi 387-ci ilə kimi, bəzən də 428-ci və ya 450-451-ci illərə kimi tarixdə mövcud olmayan, uydurma "Böyük Ermənistan"ın tərkibində olması cəfəngiyyatı əksər erməni tarixçilərinin tədqiqatlarının ana xəttini təşkil etməkdədir.

F.C.Məmmədova yazılı mənbələri nəzərdən keçirərək bütün bunların tarixi həqiqətlər olmadığını faktlarla sübuta yetirmişdir [84, s. 133]. Antik dörün mənbələrini araşdırarkən aydın olur ki, erməni hökmdarı II Tiqran Alban torpaqlarını işğal etməmişdir [84, s. 108]. Tədqiqatlar sübut etmişdir ki, ümumiyyətlə, tarixdə 387-ci il müqaviləsi olmamışdır və belə bir müqavilənin olması haqqında mənbələrdə heç bir məlumat yoxdur. Bu yalnız erməni tarixçilərinin əsərlərində yer almışdır və onların uydurmasıdır [84, s. 116; 124, s. 145]. Bütün bu faktlar, Albaniyanın Uti, Arsax və Paytakaran vilayətlərinin heç vaxt Ermənistanın tərkibində olmamasını sübüt edir. Mənbələrdən aydın olur ki, Albaniyanın I-IV əsrlərdə cənub sərhədi Araz çayı boyunca olnıuşdur [12, s. 283]. Qafqaz Albaniyasının qərb sərhədləri ilə bağlı gürcü alimləri müxtəlif fikirlər

irəli sürmüşlər. Gürcü alimlərindən Q.N.Çubinaşvili, N.A.Berdzenaşvili, T.S.Papuaşvilinin tədqiqatlarında bu məsələ ilə bağlı fikirlər öz əksini tapıb. D.L.Musxelişvilinin "Şərqi Gürcüstanın tarixi coğrafiyası (Şəki və Qoqarena)" adlı kitabında əsası olmayan fikirlər irəli sürülərək guya Albaniyanın Girdiman və Sakaşena vilayətləri Şərqi Gürcüstanın ərazisi olmuşdu. Tarixi faktlar sübut edir ki, Qafqaz Albaniyasının sərhədlərində e.ə. III əsrdən eramızın VIII əsrinə qədər heç bir dəyişiklik olmamışdır [13, s. 14]. Müasir Qarabağ ərazisi, Albaniyanın tarixi Uti və Arsak vilayətləri bütün tarixi dövründə Albaniyanın hüdudları daxilində olmuşdur. Bu torpaqlar Azərbaycan türklərinin tarixi-etnik torpaqları olmuş, Azərbaycan xalqının əcdadları burada minilliklər boyu maddi mədəniyyət yaratmış və onun daşıyıcıları olmuşlar. Sonraki tarixi dövrdə isə Mehranilər öz torpaqlarının hüdudlarını genişləndirmiş, Kürün sol sahilinə doğru (müasir İsmayıllı rayonu ərazisinə tərəf) irəliləmiş və Göyçay çayı — Girdiman çayı hövzəsini əhatə etmişlər.

Bu sülalə hakimiyyət altına aldıqları ərazilərdə Mehranilər sülaləsinə aid dini məbəd, tarixi Girdiman qalasını inşa etmiş və Mehranilər sülalələsinin əsasını qoymuşdular. Həmin vaxt Albaniyanın paytaxtı olan Bərdə şəhəri bu vilayətdə yerləşirdi. Bərdənin erkən orta əsr dövrü siyasi tarixi haqqında məlumatlarla zəngindir. Belə ki, Sasanilər dövrü (224-642) Bərdə şəhəri haqqında mənbələrdə xeyli məlumatlara rast gəlirik. Sasanilər dövründə Bərdə canişinliyin mərkəzi idi. Məhz ona görə şəhərin hərbi-siyasi əhəmiyyəti daha da artmışdır. I Qubadın dövründə bəzi tarixçilərin qeyd etiyi kimi Bərdə şəhəri salınmamış, əksinə onun ətrafına divar çəkilmişdir ki, bu da hərbi siyasi məslələrlə bağlı idi. V əsrin sonu-VI əsrin əvvəllərində Albaniya ərazisinin hərbi-siyasi mübarizə meydanına çevrildiyi bir vaxtda burada İran hərbi qarnizonu üçün qala tikilmişdir. Bu isə Bərdənin Sasanilər üçün əhəmiyyətini artırırdı. Bərdə 551-ci ildən Albaniya katolikosluğunun mərkəzi olur. Daha sonra 630-cu ildən Girdiman dövlətinin hökmdarı Varaz Qriqorun iqamətgahına çevrilir. Orta əsr müəllifləri coğrafi

ərazilərdən danışarkən qeyd edirlər ki, Bərdə Arran ölkəsinin paytaxtıdır [104, 150].

Müəyyən müddətdən sonra Qafqaz Albaniyası 3 vilayətə ayrıldı. Bu zaman Girdiman Uti vilayətinin başqa əraziləri ilə birlikdə Arran vilayətinin tərkibinə qatıldı. Uti əyaləti coğrafi yerləşmədə Kür çayının sağ sahilinə aid edilir. Uti torpağı ermənicə Utik, yunanca Otena kimi ifadə olunur. Hətta antik müəlliflərdən Herodot da ən iri alban tayfalarından biri Utilər haqqında məlumat verərək, Utiya (Otena) vilayətnin Kür çayının sağ sahilində yerləşdiyini deyirdi [12, s. 283]. Erkən orta əsr yazılı qaynaqlarından bəzilərində Uti haqqında danışılarkən onun inzibati cəhətdən vilayət olduğu qeyd edilir. Bu fikri eyni zamanda M.Kalankatlı da öz növbəsində təsdiq edərək Utini Albaniyanın vilayəti adlandırır. [125, s 76]. Bəzi mənbələrdə isə Utinin vilayət deyil, əyalət olduğu göstərilir [83, s 49].

Uti vilayəti şərqdə Paytakaranla, qərbdə İberiya, cənubda Arsax, şimalda Kür çayı ilə həmsərhəd idi. Əyalətin tərkibinə antik Ayniana, Xani, Anarika, eləcə də Xalxal, Soqari, həmçinin qədim Bərdə kimi şəhərlər daxil idi. Bərdə şəhəri tarixdə oynadığı müstəsna rolu ilə bütün tarixi dövrlərdə diqqət mərkəzində olmuşdur. Girdiman vilayətinin əhalisinin əsas hissəsini Musa Kalankatlının «Alban tarixi»ndəki əsərində haqlarında bəhs etdiyi əfsanəvi Aran nəslindən olan xalqlar təşkil edirdi. İrandilli qəbilələrin bu bölgəyə gəlişi isə V əsrdən başlamışdır. Albanların ən qədim əcdadlarının sonuncu nəsillərindən hesab olunan utilər, qarqarlar, savdeylər Uti vilayətində yaşayırdılar. Sonrakı vaxtlarda isə burada saklar, daha sonralar hunlar, kəngərlər, xəzərlər gələrək məskunlaşmışdılar. Bu barədə arxeoloq R.Göyüşovun tədqiqatları olduqca əhəmiyyətlidir.“Qarabağın keçmişinə səyahət kitabın” da Qarabağın dağlıq hissəsinin Arsax, düzən hissəsinin Uti əyalətlərindən ibarət olduğunu, Utilərin qədim alban tayfalarından biri olmasını, qarqarlara nisbətən daha geniş bir ərazini əhatə etməsini, elə buna görədə Utinin Qarabağdakı hissəsinin «Xüsusi Uti» və ya «Mərkəzi Uti» adlanması qənaətinə gəlmişdir. Yazılı mənbələrdə Uti, Utik, Otena və s. adlanan bu tayfa əfsanəyə görə albanların mifik əcdadı olan hökmdar Arranın nəslindən əmələ gəlmişdir. İnzibati cəhətdən 7 əyalətə bölünmüş Utinin ən iri əyaləti «Xüsusi Uti»

məhz Qarabağda olmuşdur. Uti əyaləti Qafqaz Albaniyasında istər iqtisadi, istərsə də siyasi cəhətdən əsas yerlərdən birini tutmuşdur. Mənbələr Bərdənin də Uti vilayətinin şəhəri olduğunu qeyd edirlər [41, s. 5]. Hal-hazırda utilərin qalıqlarına Qarabağda, Qəbələ və Oğuz ərazilərində rast gəlinir. Akademik N.Y.Marr vaxtilə Uti sözü üzərində dayanmış və bu sözün «Qara adamlar» mə'nasını kəsb etməsi ehtimalını irəli sürmüşdur. Utilər son zamanlaradək mənşəcə alban olduqlarını xatırlayırdılar. Nəhayət, udilər özlərini həmişə alban sayıblar. I Pyotra 1724-1725-ci illərdəki məktublarında özləri haqqında yazıblar ki, «Biz ağvanıq və milliyyətcə utilərik». IV yüzilliyin birinci rübündə Maarifçi Qriqorisin dövründə xaçpərəstliyi qəbul ediblər [13, s. 282]. Alban dövlətinin rəsmi dili qədim Uti dili olub, bu isə onu deməyə əsas verir ki, "geniş əraziyə malik udilər Qafqaz Albaniyasında mədəni-siyasi hegemonluğa malik idilər". Bunu təsdiq edən başqa bir fikir də var ki, Utili Moiseyin "Alban tarixi" əsəri onun öz ana dilində yazılıb, buna baxmayaraq əsər bizə qrabarda (qədim erməi dilində) gəlib çatıb. Ermənilər bu əsəri nə qədər də təhrif etsələr də qədim Udi dilində olan toponimləri öz dillərinə çevirə bilməyiblər. Kitabda Udi sözləri qalmışdır [65, s. 57]. V əsrin əvvəllərində isə qədim Uti dili əsasında 52 hərfdən ibarət alban əlifbası tərtib edilmişdi. Müqayisə üçün deyə bilər ki, müasir Udi dili əlifbasında isə 53 hərf vardır [24, s. 27]. Axır vaxtlarda Mingəçevirdən tapılmış yazıların uti dilində olduğu fikri elmdə üstünlük təşkil edir və Zaza Aleksidze tərəfindən onların bu dil vasitəsilə açılmasına cəhdlər göstərilir. Uti vilayəti 705-ci ildə ərəblər tərəfindən işğal olunmuş və Arran inzibati vahidinə qatılmışdır. Ərəblərin dövründə islam dii Azərbaycanın yerli əhalisinin əvvəlki dinlərini sıxışdırdı, lakin yerli əhalinin bir hissəsi o cümlədən Utilərin bir qismi (əsasən dağlıq bölgədə yaşayanlar) xristian olaraq qaldılar. Bütün bu faktlar deməyə əsas verir ki, VIII əsrə qədər Utilərin tarixi Albaniya dövlətinin tərkibində ölkənin tarixinin müəyyən dövrünü təşkil etmişdir. Tarixin sonrakı mərhələlərində bütün Azərbaycanın əhalisinin taleyi ilə qovuşmuşdur.

Beləliklə, aparılan arxeolji və yazılı qaynaqlara əsasən Qafqaz Albaniyasının Uti əyalətinin müasir tarixi coğrafi ərazisinin Tərtər, Goranboy, Ağdərə, Ağdam,

Ağcabədi, Füzuli, Yevlax rayonlarının ərazisinin bir hissəsini əhatə etdiyini söyləmək olar.

## 1.2.Uti vilayətinin siyasi tarixi

Tarix elmi qarşısında duran mühüm problemlərdən biri də Azərbaycanın siyasi tarixi coğrafiyasını öyrənməkdən ibarətdir. Hələ sovet dönəmində rus, gürcü, erməni tarixşünaslığında bir sıra tədqiqat əsərləri meydana gəldiyi halda Azərbaycanda bu sahəyə diqqət ayrılmamışdır. Bundan məharətlə istifadə edən erməni gürcü tədqiqatçıları Azərbaycanın ayrı-ayrı bölgələrini, tarixi həqiqəti saxtalaşdırmaqla, öz torpaqları kimi qələmə almağa çalışmışlar. Bədnam qonşumuz ermənilər xüsusilə böyük canfəşanlıq göstərərk "irəli"getmiş və Qafqaz bölgəsinin siyasi xəritəsini təhrif edərək tarixi həqiqətlərə uyğun olmayan bir sıra əsərlər yazaraq, uydurma xəritələr çəkərək, Azərbaycanın tarixi torpaqlarını işğal edərək, maddi mədəniyyətimiz üzərində saxtakarlıqlar edərək olmayan bir tarixlərini yazmışlar. Bu baxımından erkən orta əsr Qafqaz Albaniyasının Uti əyalətinin tarixi coğrafiyasının tədqiqi mühüm aktuallıq kəsb edən məslələrdən biridir.

Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası ilə bağlı məlumatları yunan, ərəb, bizans müəlliflərinin əsərlərində rast gəlirik. Erkən orta əsr Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyasını ilk yazılı mənbə kimi M.Kalankatlının "Alban tarixi"əsəri əsasında öyrənirik [14, s. 16].

Qafqaz Albaniyası ilk orta əsrlərdə geniş əraziyə malik idi. Qafqaz Albaniyasının tarixi coğrafiysına aid ilk mənbələr dövrlər üzrə fərqləndiyi kimi, yazıldığı dillərə görə də müxtəlifdir. Tədqiq olunan dövrə aid mənbələr əsasən alban, fars, ərəb və s. dillərdədir. Bu baxımdan Azərbaycanı da qonşu ölkələrin tarixi coğrafiyalarından təcrid etmək olmaz. Azərbaycan bir dövlət kimi qonşu ölkələrlə Qafqaz, Kiçik Asiya, Yaxın Şərq ölkələri ilə qarşılıqlı əlaqədə olmuş, buna görə də Azərbaycanın tarixi coğrafiyası ilə həmin ölkələrin tarixi cğrafiyası arasında bir sıra oxşarlıq mövcud olmuşdur.

Bir çox ilk mənbələr xüsusilə qədim və antik dövr mənbələri qonşu ölkələrin tarixi coğrafiyası ilə yanaşı Qafqazın, o cümlədən də Qafqaz Albaniyasının tarixi coğrafiyası barədə faktlara malikdir. Bu cəhətdən Heradotun "Tarix", Stabonun "Coğrafiya", Plutarxın "Parallel tərcümeyi-hallar", Klavdi Ptolomeyin "Coğrafiya"dərsliyində olduqca maraqlı məlumatlar vardır. Bu mənbələrdə Qafqaz Albaniyasının tarixi coğrafiyası barədə, Herodotun Dərbənd keçidi, Araz çayı, Xəzər dənizi, kaspilər, utilər haqında, Strabonun Albaniyanın ərazisi, Kür çayının mövqeyi, 26 dildə danışan alban tayfası haqqında, Klavdi Ptolomeyin Albaniyanın 29 şəhəri, kəndi, çayları, dağ aşırımları, Pomponi Melanın Qafqaz Albaniyasının çayları, dağları, bəzi tayfalarının adlarını, Böyük Plinin Albaniyanın baş şəhərləri, albanların mənşəyi haqqında qiymətli məlumatlar vermişlər [124, s. 86]. Qafqaz Albaniyasının yerli xalqı olan Uti etnonimini ilk dəfə eramızın birinci əsrində yaşamış Roma müəllifi Böyük Plinin "Təbiət tarixi" əsərində rast gəlinir. Qədim yunan yazıçısı Ptolomeyin (e.ə II əsr) "Coğrafiya"sında deyilir ki, "Kaspi dənizi sahilində udilər yaşayırlar" [24, s. 23].

Qafqaz Albaniyasının ilk orta əsrlər inzibati ərazi bölgüsü haqqında məlumatları erkən orta əsr yazılı qaynaqlarından Ananiya Şirakasi, M.Xorensi, Gevonddun əsərlərindən əldə edirik. Adı çəkilən müəlliflərin əsərləri tədqiqatçı alim T.M.Məmmədovun "Qafqaz Albaniyası ilk orta əsrlərdə" adlı əsərində təhlil edilmişdir. Müəllifin tədqiqatlarına əsasən söyləmək olar ki, Ananiya Şirakasi "Coğrafiya "əsərində Albaniyaya ayrıca fəsil ayıraraq 26 nömrə ilə işarələnmişdir. Bu əsərdə Albaniyanın sərhədləri, nahiyələri, vilayətlərinin adları sadalanır. Arazla Kürün qovuşduğu yerdən yuxarıda 20 Alban vilayətinin yerləşdiyi qeyd edilir [83, s. 32].

Gevondun yazdığı "Xəlifələrin tarixi" əsəri də Alban tarixinin VII-VIII əsrlərinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. O bu əsərində Xəzər xaqanlığının və Ərəb xilafətinin ordusunun Albaniyaya yürüşləri haqqında geniş məlumat verir. O eyni zamanda Qafqaz Albainyasının şəhərləri, sosial-siyasi tərkibi, tarixi coğrafiyası, inzibati ərazi bölgüsü, alban dili, ilk orta əsr Albaniyanın etnik tərkibi haqqında məlumat verir [83, s. 32].

Tədqiq etdiyimiz dövr üçün əhəmiyyətli yazılı qaynaqlardan biri ərəb çoğrafiyaçılarının yazılı qaynaqlarıdır. Ona görə ki, onlar Albaniyanın ilk orta əsr iqtisadi, siyasi tarixinə dair müxtəlif məlumatlar verərək digər yazılı qaynaqlardakı boşluğu doldurmuşlar. Onlardan Abdulla ibn Xordadbeh, Əl-İstəxri, İbn–Havqəl, Məsudi və s. əsərlərini göstərə bilərik. X əsr ərəb coğrafiyaşünası əl-İstəxri "Dövlətin yolları haqqında" kitabında Albaniyanın şəhərləri, əhalisi, təsərüffat həyatı, ticarəti və ticarət yolları haqqında məlumatlar vardır. Bütün yuxarıda göstərilənlər haqqında N.M. Vəlixanlının IX-XII əsr ərəb-coğrafiyaşünas səyyahları Azərbaycan haqqında əsərində də məlumat verilir [104, s. 64].

Tədqiqat əsərlərində ərəb coğrafiyaşünas-səyyahlarının məlumatlarına əsasən də Qafqaz Albaniyasının erkən orta əsrlər tarixi-coğrafiyası haqqında məlumat verilir və Albaniyanı təsvir edərkən şəhərlərin topoqrafiyası, salınma tarixi, əhalisi, dili, dini, mədəniyyəti, məişəti, adətləri, sənətkarlığı, ixracat və idxalat malları, suvarma, kənd təsərrüfatı bitkiləri, yerli çəki və ölçü vahidləri, vergilər və nəhayət yol marşrutları coğrafiyası sadalanır. Bu əsərlər erkən orta əsr Qafqaz Albaniyasının iqtisadi coğrafi tarixinə dair qiymətli mənbədir [22, s. 29].

Azərbaycanın X əsrə qədərki tarixi vəziyyəti haqqında mülahizə yürütməyə imkan verən yeganə yerli yazılı mənbə olan Moisey Kalankatuklunun "Albaniya tarixi" əsərində Qafqaz Albaniyasının Uti vilayətinin tarixi coğrafiyası ilə bağlı məlumatlar vardır. Bu əsərdə qeyd edilir ki, "Uti vilayətində yerləşən ana yurdum olan böyük Kalankatuk kəndi " Utili Moisey"- deyə adlandırlırdı [55, s. 11].

Alban tarixçisi öz əsərinin əvvəlində Albaniyanın yerləşdiyi coğrafi yeri və təbii-şəraiti haqqında məlumat verərək qeyd edir ki, bu ölkənin paytaxtı Bərdə şəhəridir. Əsərinin sonrakı fəsillərində bəzi tarixi hadisələrin şərhi zamanı Bərdə şəhərinin təbiəti haqqında geniş ətraflı məlumatlar verilir [56, s. 52]. Diqqətlə nəzər yetirdikdə müəllifin Uti vilayətinin təbiətinin təsviri haqqında işlətdiyi ifadələrdə vilayətin təbiəti haqqında ətraflı məlumat verdiyini aydın görürük. Eyni zamanda müəllif III Mömün Vaçaqanın dövründə Kürün sahilinin balıq vətəgələri üçün yararlığından, bölgənin təbii sərvətindən məlumat verilir. Bu cür məlumatlar Alban salnaməsi əsərində öz əksini tapmışdır [55, s. 12].

Erkən orta əsrlər dövrünə aid yazılmış monoqrafiyalarda Albaniyanın ərazisi, dövlətinin sərhədləri haqqında Favstos Buzandın, Yeqişenin, Xorenatsinin, ilk orta əsr müəllifi M.Kalankatuklunun verdiyi məlumatlara istinadən qeyd edilir ki, Qafqaz Albaniyasının ərazisi şimalda Böyük Qafqaz dağlarının ətəklərinə qədər uzanaraq Sarmatiya ilə birləşirdi [83, s. 44]. IV əsrdə alban şahı Urnayrın dövründə "Uti Sakasena, Girdiman, Arsax, Kaspiana vilayətləri, o cümlədən Paytakaran Alban dövlətinin tərkibinə daxil idi" [10, s. 135]. Erkən orta əsr alban tarixçisi M.Kalankatlının verdiyi məlumata görə də alban hökmdarı III Vaçaqanın hakimyyəti dövründə Kür çayının sağ və sol sahillərində olan ərazilər Albaniya dövlətinə məxsus idi və VII əsrdə Albaniya çarı Cavanşirin dövründə Albaniya dövlətinin ərazisi İberya hüdudlarınından Hun darvazalarına və Araz çayına qədər uzanırdı [125, s. 25].

A.Bakıxanovun Gülüstani-İrəm əsərəində də bölgədə baş vermiş tarixi proseslər haqqında məlumt verilir [109, s. 35].

# II FƏSİL. YAŞAYIŞ YERLƏRİ VƏ İSTEHKAMLAR

## 2.1 Şəhər tipli yaşayış yerləri

Azərbaycanın feodal cəmiyyətinin öyrənilməsində ilk orta əsr yaşayış yerlərinin arxeoloji tədqiqi böyük əhəmiyyətə malikdir. Hər bir yaşayış məskəni özündə bir sıra iqtisadi, sosial-mədəni və siyasi qanunauyğunluqları təcəssüm etdirir [6, s. 31]. Bu baxımdan yanaşdıqda Uti vilayətində mövcud olmuş şəhər və kənd tipli yaşayış yerlərinin tədqiq olunması həmin dövrü iqtisadi, sosial, mədəni, dini və digər aspektlərdən öyrənmək baxımından dəyərlidir.

Ənənəvi olaraq ilk orta əsrlərdə də Azərbaycanın ən qədim sivilizasiya ocaqlarından biri olan Uti vilayəti zəngin maddi-mədəniyyətə malik olmuşdur. III əsrdən başlayaraq feodal münasibətlərinin yaranmağa başlaması ilə Albaniyada istehsal və istehs.al vasitələri sürətlə inkişafa başladı. Bu isə öz növbəsində yaşayış yerlərinin istər iqtisadi, istərsə də mədəni cəhətdən inkişafında müstəsna rola malik olan daxili və xarici tranzit ticarətin inkişafına təkan verdi. Albaniyada feodal münasibətlərinin inkişafı öz tələblərini də irəli sürürdü.

Mərkəzi hakimiyyət yeni yaşayış məskənlərinin yaranmasına və möhkəmlənməsinə, böyük istehkam qalalarının tikilməsinə, inkişafına şərait yaradırdı. Digər tərəfdən də yenidən feodallaşan zadəganlarda da bağışlanma, torpağı mənimsəmək marağı yaranır, bu isə yaşayış yerlərinin canlanmasına, çiçəklənməsinə, köhnə məskənlərin dirçəlməsinə və yenilərinin meydana gəlməsinə səbəb olurdu [75, s. 56].

İlk orta əsrlərdə xüsusi əhəmiyyət daşıyan feodal şəhərləri birdən-birə meydana gəlməmişdir. Onlar erkən orta əsrlərdə ölkənin siyasi və iqtisadi inkişafında əvəzolunmaz dərəcədə mühüm rol oynayırdı. Yeni feodal şəhərləri əsasən qədim yaşayış yerlərinin bünövrəsi üzərində meydana gəlirdi. İlk orta əsrlərdə istehkam, müdafiə və sığınacaq tipli qalalar inşa edilirdi ki, bunlar da daha sonraki dövrlərdə ayrı-ayrı şəhərləri bir-biri ilə əlaqələndirmə vasitəsinə çevrilirdilər. Albaniya üçün isə əsasən ticarət yolları üstündə yaranmış şəhərlər xarakterik idi. (Şəkil 2.1.1) Onlar suvarma və təchizatı təmin etmək məqsədilə

əsasən iri çaylar və ya onlardan çəkilmiş arxların yaxınlığında salınırdı. Bu şəhərlər iri inzibati, mədəni və ticarət - sənətkarlıq mərkəzləri hesab olunurdular [83, s. 117]. Azərbaycan Albaniyasının ilk orta əsr yaşayış yerlərinin tədqiqinə XX əsrin ortalarından başlanılsa da ilk vaxtlar bu qazıntılar əsasən kəşfiyyat xarakteri daşıyırdı. Bu qazıntılar əsasən Azərbaycan arxeoloqlarının rəhbərliyi altında aparılmışdır. Azərbaycan Dövlət Müstəqilliyini qazandıqdan sonra isə tarixi Uti əraziləri hesab olunan indiki Aran Qarabağda arxeoloji tədqiqatlar daha da gücləndirilmişdir.

İlk orta əsr Uti vilayətində yerləşən şəhərlər səciyyəvi xüsusiyyətinə görə Şərqin digər ölkələrindəki şəhərlərə bənzəyirdi. İlk növbədə onlar böyük əraziyə malik olmaları ilə seçilirdi və üç hissəyə bölünürdü."Şəhristan", "Narınqala", "Rabad" [32, s. 32]. Şəhərin mərkəzində Narınqala yerləşirdi. Yuxarı–hakim təbəqənin yaşadığı ərazi "Şəhristan"adlanırdı., Şəhər ətrafı isə "rabad" adlandırılırdı. Qala boyu tikilən ərazilərdə isə aşağı təbəqəyə mənsub əhali yaşayırdı. Uti vilayətinin ilk orta əsr şəhərlərində müdafiə divarlarının olması arxeoloji qazıntıların nəticələrindən məlumdur. Uti vilayətində şəhərlər əsasən ticarət karvan yollarının üstündə, yaxud iri çayların sahilində müdafiəsi nəzərə alınmaqla, əhalinin daha sıx məskunlaşdığı ərazilərdə salınırdı [16, s. 84-85]. Şəhərlərin sanitar qovşağı sisteminin, hamamlarının, şəhər girişində karvansaralarının, müxtəlif növ ictimai binalarının, sənətkar emalatxanalarının olması da bölgədə aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmışdır.

Bütövlükdə Azərbaycanda olduğu kimi Uti vilayətində də ilk orta əsr şəhərləri sənətkarlıq və ticarət mərkəzləri kimi əsasən sasani işğalları dövrünə aid edilir. Lakin bu şəhərlərin bir qismi sasanilər dövründə salınsa da, əksəriyyəti özündən əvvəlki antik şəhərlərin davamı kimi inkişaf etmişdi. Sasanilər dağıdılmış şəhərləri yerli əhalinin gücü ilə yenidən bərpa etdirmişdilər. Bu şəhərlərdə əsasən işğalçı sasani qoşunları yerləşdirilsədə onlar yerli əhalinin qüvvəsi ilə inşa edilirdi. Şəhərlər əsasən çayların və ticarət yollarının qovşağında salınırdı.

Ayrı-ayrı müəlliflərin əsərlərində də tədqiq etdiyimiz dövrdə Albaniyada o cümlədən Uti vilayətində çoxlu şəhərlərin olduğunu göstərmişlər [124, s. 205].

Yazılı mənbələrə əsaslansaq deyə bilərik ki, erkən orta əsrlər dövründə Albaniyada çoxlu sayda şəhərlər mövcud olmuş və onların hər birini müstəqil “hakimlər” idarə etmişdir [118, s. 108].

Təəssüflər olsun ki, qədim alban müəlliflərinin əsərləri bəzi tədqiqatçıların əsərlərində “qədim erməni mənbələri” adı ilə təqdim olunmuş, hətta bu barədə çox da uzaq olmayan keçmişimizdə əsərlər nəşr olunmuşdur [127, s. 36].

Albaniyanın VII-IX əsrlərdəki vəziyyəti haqqında fikir yürütməyə imkan verən yeganə yerli mənbə Moisey Kalankatuklunun "Alban tarixi" əsəridir ki,bu əsərdə Albaniyada erkən orta əsrlər dövründə çoxlu sayda şəhərlərin, şəhər tipli yaşayış məntəqələrinin və şəhər-qalaların olduğu qeyd edilir [56, s. 90; 125, s. 25].

Qafqaz Albaniyasının tarixinin öyrənilməsində, F.Məmmədovanın [85, s. 126; 125], Z.Bünyadovun [110], K.Treverin [137], T.Məmmədovun [83] əsərlərini qeyd edə bilərik.

Erkən orta əsr şəhərlərinin, yaşayış məskənləri və qalaların tarixi-nöqteyi nəzərdən araşdırılması, onların yaranma prinspləri, sosial strukturlarının formalaşma qanunauyğunluqları kimi məslələr bu gündə öz aktuallığını qoruyub saxlayır.

Alban şəhərlərinin, qalalarının, məbədlərinin, yaşayış məntəqələrinin problemləri Q.Əhmədovun [30; s. 107], N.Alışovun [3], R.Göyüşovun [111; 112], A.Nuriyevin [89; 90; 91], R.Vahidovun [100; 101; 102], A.Məmmədovun [69-82], Q.Cəbiyevin [25], M.Xəlilovun [135], T.Əliyevin [33], və b. tarixçi arxeoloqların əsərlərində tədqiqata cəlb edilmişdir.

Ərəb coğrafiyaçıları – İbn Xordadbeh [115], Əl-İstəxri [114], İbn Həvqəl [116] və s. öz qeydlərində Azərbaycan haqqındakı məlumatlara geniş yer ayırırlar. Yuxarıda adlarını sadaladığımız ərəb müəllifləri Albaniyada (Arranda) çoxlu şəhərlərin olduğunu qeyd edirlər. İbn Hövqəl “Yollar və Məmləkətlər haqqında kitab” əsərində Albaniyada bütün şəhərlərin gözəl, coğrafi baxımından geniş ərazili, strateji baxımıdan əlverişli mövqeyə və zəngin münbit torpaqlara malik olduğunu qeyd edir [116, s. 88-89]. Albaniyada şəhərlərin müdafiə divarları ilə

qorunduğunun Uti vilayətinin şəhərlərinə də aid olduğunu arxeoloji tədqiqatların nəticələri sübut edir.

Alban tarixçisi M.Kalankaytuklunun məlumatlarından aydın olur ki, erkən orta əsr alban şəhərlərində nəinki müxtəlif növ məhsulları hazırlayan sənətkarlar, həmçinin dəmir, gümüş, mis, qızıl çıxarmaqda biliyi olan sənətkarlar vardı [56, s. 126]. Burdan aydın olur ki, ilk orta əsr Albaniyasının sənətkar təbəqəsi öz işləri ilə kor-koranə deyil, elmi əsaslarla şəxsi təfəkküründən istifadə etməklə məşğul olublar. Bu isə o dövr üçün göründüyü qədər sadə bir proses deyildi. Sənətkarlıq həm də yüksək zehni fəaliyyət tələb edirdi.

Tədqiqat əsərlərində qeyd edilir ki, ilk orta əsr Albaniyanın şəhərlərində albanlar və başqa yerli tayfalardan başqa, əcnəbilər (yunanlar, suriyalılar və s.) də yaşayırdılar ki, onlar da əsasən sənətkarlıq və ticarətlə məşğul olurdular. Məlumat təsdiq edir ki, ilk orta əsr alban şəhərləri inkişafın yüksək səviyyəsinə gəlib çatmışdılar ki, yaxın və uzaq (məs, Yunanıstan) bölgələrədən bu şəhərlərə immiqrantlar gəlirdi [128, s. 51]. Erkən orta əsr Alban şəhərləri öz dövrünün inkişafına görə fərqlənirdilər. M.Kalankaytuklunun Bərdə şəhəri haqqında verdiyi məlumat və arxeoloji tədqiqatların nəticələri deyilənləri təsdiq edir [56, s. 129]. Beləliklə, həm ilk orta əsr yazılı mənbələrinin məlumatları, həm də arxeoloji qazıntılarının nəticələri III-IX əsrlərdə Albaniyanın Uti vilayətində şəhərlərin çiçəklənməsi və yeni şəhərlərin yaranması prosesinin getdiyini göstərir.

Musa Kalankatlının "Alban tarixi" əsərində Qafqaz Albaniyasının şəhərlərinin, qalalarının siyasi sturkturu haqqında verdiyi məlumatlar Uti vilayətinə də aid edilirdi [125, s. 68]. Məlumatlara əsaslanan tədqiqatçı F.Məmmədova qeyd edir ki, şəhərlər, qalalar yerli hakimlər tərəfindən idarə edilirdi. Şəhəri idarə etmək üçün yığıncaqlar da keçirilirdi. Bütün şəhər əhalisinin iştirak etdiyi bu yığıncaqlarda ciddi siyasi və sosial məslələr həll edilirdi [124, s. 140].

Tarixi Uti vilayətinin yaylaq hissəsini düzəni ilə birləşdirən köç-karvan yolunun keçdiyi Tərətərçay dərəsi ilk orta əsr abidələrinin çoxluğu ilə diqqəti cəlb edir. Tərtər çay vadisinin əhatə etdiyi ərazi müasir Kəlbəcər-Ağdərə-Tərtər-Bərdə qismən Goranboy rayonlarının ərazisini əhatə edir. V əsrdən Qafqaz Albaniyasının

paytaxtının Bərdəyə köçməsi ilə Alban çarlarının və əyanlarının yay iqamətgahı Uti vilayətində yerləşmişdi. Tərtər-Ağdərə ərazisi XII əsrdən etibarən Uti (Xaçın) knyazlığının mərkəzi olmuşdu [16, s. 92].

Şəhərtipli yaşayış məskənləri öz dövrünün ictimai-siyasi həyatında mühüm əhəmiyyət daşıdığından daha çox məlumatı cəmləşdirirdi. Bu səbəbdən Uti vilayətinin feodal cəmiyyətinin öyrənilməsində ilk orta əsr yaşayış yerlərinin arxeoloji tədqiqinin əhəmiyyəti əvəzsizdir. Yaşayış məskənləri özündə bir sıra iqtisadi, sosial-mədəni və siyasi qanunauyğunluqları təcəssüm etdirir. Uti vilayətində bir çox iri inzibati və ticarət sənətkarlıq mərkəzləri olan şəhərlərin əsası antik dövrdə yaranmışdır. Onların bə'ziləri əvvəlcə hərbi məqsəd üçün tikilmiş, digərləri ticarət yolu üzərində məntəqə rolunu oynamış, bir neçəsi bu və ya digər hökmdarın iqamətgahı olmuş, bə'ziləri isə sənətkarlıq mərkəzləri kimi meydana gəlmişdir. Bir qrup şəhərlər isə yuxarıda göstərdiyimiz bütün əlamətləri özündə birləşdirməklə, yəni həm iqamətgah, həm hərbi qala, həm ticarət mərkəzi, həm də möhtəşəm sənətkarlıq mərkəzi olmuşdur. Belə şəhərlərdən biri İlk orta əsrlər dövründə Albaniya dövlətinin siyasi, iqtisadi və mədəni mərkəzi olan, Uti vilayətinin ən yaxşı inkişaf etmiş ərazisi Bərdə şəhəri idi. Bu ərazinin mülayim iqlimi, coğrafi şəraiti tarixən Azərbaycan ərazisində və onun hüdudlarından kənarda yaranmış dövlətlərin diqqətini cəlb etmiş nəticədə Bərdə gah bu və digər dövlətin baş şəhəri olmuş, gah da qanlı döyüş meydanına çevrilmiş, gah da hərbi qüvvələr üçün qışlaq kimi seçilmişdir [44, s. 103].

Bərdə şəhərinin mənbələrdə "Partav", "Firuzabad", "Bərdə", "Hərum" və. s adları ilə şöhrət tapdığı qeyd edilmişdir [43, s 27].

Bərdə şəhəri Kür və Tərtər çayları arasında Tərtər çayının sol sahilində salınmışdır. Bu şəhərin yerləşdiyi ərazinin coğrafi təsviri haqqında yazılı və arxeoloji məlumatlar vardır (Şəkil 2.1.2).

İlk dövrlərdə Bərdə şəhəri ərazisində aparılan arxeoloji qazıntılar əsasən kəşfiyyat xarakteri daşıyırdı. Bu qazıntılar Azərbaycan arxeoloqlarının (M.Hüseynov, F.Osmanov, A.Nuriyev, A.Məmmədov və başqaları) rəhbərliyi ilə aparılmışdır. Xüsusən A.Nuriyev və Arif Məmmədovun Bərdə şəhərində

“Balatəpə”və “Şortəpə”də apardığı arxeoloji qazıntılardan əldə olunmuş məlumatlar Uti vilayətinin ilk orta əsr şəhərlərinin tarixini öyrənmək baxımından cox dəyərlidir [144, s. 10; 12, s. 14, 145].

Bərdə şəhərinin salınması haqqında da müxtəlif fikirlər vardır. VII əsrdə alban tarixçisi Musa Kalankatlı Uti vilayətinin Bərdə şəhəri haqqında məlumat verir. Alban tarixi əsərinin əvvəlində Albaniyanın tarixi coğrafi əarzisindən, əlverişli mövqeyindən və təbiyətindən bəhs edərək göstərir ki, bu dövlətin paytaxtı Bərdə şəhəri olmuşdur. Musa Kalankatlının yazılarından aydın olur ki, Bərdəni Alban hökmdarı Vaçe (459-488) inşa etdirmişdir [125, s. 56]. Lakin bu məlumat yəqin ki, şəhərin bərpası ilə əlaqələndirilməlidir [148, s. 95].

XIV əsrin müəllifi Həmdulla Qəzvini də Bərdə şəhərinin salınmasını Makedoniyalı İskəndərin adı ilə bağlayır. Bərdənin ərazisinin Sasani hökmdarı Qubadın dövründə genişləndiyini bildirir [45, s. 54]. Bərdə şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi mədəniyyət abidələri sübut edir ki, Bərdə hələ antik dövrdən iri yaşayış məskəni olmuşdur. Bərdənin koordinatları Nəsirəddin Tusinin astronomik bölgülərə aid cədvəlində öz əksini tapmışdır [20, s. 11].

Bərdə haqqında məlumatlara Nizami Gəncəvinin “İsgəndərnamə” poemasında da rast gəlinir [88, s. 201]. Bu şəhər haqqında məlumatlar ərəb coğrafiyaşünaslarının məlumatlarında daha genişdir. Bu məlumatlara görə, hamı Bərdə sözündəki “dəl” və “ayn”hərflərini nöqtəsiz işlədir (yəni Bərdə kimi). Azərbaycanın ucqarlarında olan şəhərdir və Bərzəə, Bərdədar sözünün ərəbləşmiş formasıdır, mənası fars dilində “əsir saxlanılan yer” deməkdir. Bu isə ona görədir ki bəzi fars hökmdarları tutduqları əsirləri burada yerləşdirirdilər. Məlumatlarda bildirilir ki, Bərdə Azərbaycanın, Əl-İstəxri isə qeyd edib ki, Aranın paytaxtıdır [114, s. 36].

Bərdə şəhəri beynəlxalq ticarət yollarının kəsişdiyi bir ərazidə yerləşirdi. Bərdə-Tiflis ticarət yolu bölgənin mühüm strateji məntəqələrini biri-biri ilə əlaqələndirirdi [67, s. 43]. Bərdədən başlanan mühüm ticarət karvan yollarından biri də ilk orta əsrlərin məşhur Bərdə-Dəbil (Dvin) ticarət yolu idi [66, s. 31]. Müxtəlif mənbələrə istinad edən T.Məmmədov VI-VII əsrlərdə Bərdə şəhərindən

keçən ticarət karvan yollarını aşağıdakı kimi təsvir edir: "Dvindən Bertkunikə - 60, oradan da Partava (Bərdəyə) 160, oradan da Kaspi (Xəzər) dənizinə - 90, Naxçıvandan Ərdəbilə - 200, oradan da Bartanakertə - 70, oradan da Paytakarana (Beyləqana) 60, oradan da Kaspi dənizinə - 50, Divanidən Kura - 50, oradan da Kotakvehə - 120, oradan da Tblisiyə - 140, oradan da Hunarikertə - 70, oradan da Partava – 100 mil [83, s. 132]. Bu mühüm Bərdə-Dəbil ticarət yolu haqqında IX-X əsrlərdə yaşamış ərəb müəlliflərinin coğrafi əsərlərində məlumatlar vardir. Ərəb coğrafiyaşünasları öz əsərlərində Bərdə şəhərindən şimala doğru - Şamaxıya, Şirvan ərazisindən keçərək Dərbəndə, Cənub-Şərqə doğru - Beyləqandan və Ərdəbildən keçərək Cənubi Azərbaycana və İran şəhərlərinə gedən ticarət yollarını qeyd edirlər [114, s. 29]. Bu cür məlumatlar S.Aşurbəylinin tədqiqatlarında elmi baxımdan təhlil edilmişdir [108, s. 155].

IX əsrdə yaşamış ərəb coğrafiyaşünas səyyahı İbn Xordadbenin "Kitab əl-masalik və -əl-məmalik" (Yollar və məmləkətlr haqqlnda kitab) əsəri, Azərbaycanın, bütünlüklə Qafqazın tarixi və tarixi coğrafiyası üçün mühüm mənbədir. İbn Xordadbeh Bərdədən Dəbilə 7 sikkə (1 sikkə təx. 20 km) məsafə olduğunu yazmışdır[115, s. 17]. X əsrdə yaşamış ərəb coğrafiyaşünas-səyyahı əl-İstəxrinin "Məmləkətlərin yolları" əsərində Qafqaz Albaniyasının şəhərləri, coğrafiyası, ticarət yolları haqqında məlumatlar vardır. Əl-İstəxri də Bərdədən Dəbilə gedən yolun üstündə yerləşən yaşayış məntəqələrini sadalamış və onların arasındakı məsafələri göstərmişdir: Bərədədən Kalkatusa 9 fərsəx, Kalkatusdan Matrisə 13 fərsəx, Matrisdən Davmisə 12 fərsəx, Davmisdən Kil-Kuyə 16 fərsəx, Kil-Kuydan Sisacana 16 fərsəx [114, s. 35].

Bərdə-Dəbil beynəlxalq ticarət yolu haqqında ətraflı məlumat verən ərəb coğrafiyaşünası Əbu-əl –Qasim ibn Haqvəl ən-Nisbi olmuşdur. O, əl-İstəxrinin davamçısı idi. İbn Haqvəl Bərdə, Ərdəbil, Dərbənd, Dəbil, Tiflis, Marağa və başqa şəhərlər, yaşayış məntəqələri, ölkədəki əkinçilik, suvarma işlərindən, yol, karvansara, bazralardan, gəlir mənbələrindən vergidən və.s ətraflı bəhs etmişdir [116, s. 89]. Tədqiqatçı Nailə Vəlixanlı da İbn Həvqəlin verdiyi məlumatların həqiqətəuyğun və dəqiq olduğunu söyləmişdir [104, s. 96]. İbn Haqvəl X əsrdə

Bərdə şəhərinin təsvirini verir, onun mövqeyi, iqtisadi, siyasi əhəmiyyətindən, ticarət və sənətkarlıq mərkəzi kimi rolundan bəhs etmiş və Bərədni Rey və İsfahandan sonra, İraqla Təbəristan arasında ən böyük və məhsuldar, tutduğu mövqeyinə görə ən yaxşı yer adlandırmışdır. Bərdədən başlayaraq Dəbilə gedən beynəlxalq əhəmiyyətli ticarət-karvan yolu Tərtər çayı boyunca cənubi-qərbə doğru uzanmaqla Göyçə istiqamətində Zod aşırımından keçərək Sisəcana uzanmış, ordan da da Dəbilə gedib çatmışdır. Arif Məmmədov bu yolun Tərtər və Kəlbəcər ərazisindən keçib Zod aşırımı vasitəsi ilə Göyçə gölünün cənubundan Dəbilə getdiyi qənaətindədir [75, s. 30].

Bərdə -Dəbil ticarət yolu sonrakı dövrlərdə də daim işlək olmuşdur. XIX əsrdə bu yolu bölgənin əhalisi "el yolu", "elat yolu" adlandırmışdır.Ağdərə ərazisində bu yolun izləri XX əsrin 80 ci illərinə qədər dururdu [16, s 90]. Bu yolun bir hissəsi XX əsrdə də Göyçə mahalı ilə tarixi Uti ərazilərini əlaqələndirirdi.

Orta əsr ərəb müəllifləri və coğrafiyaşünasları (əl-İstəxri, ibn Həvqəl və s.) bildirirlər ki, Arran əhalisi öz dilində danışırdı [114, s. 45; 116, s. 85]. Aran dili VI əsrdə deyil, habelə IX-X əsrlərdə də Bərdə və onun ətrafında qalmışdı [22, s. 119]. M.Kalankatlı "Alban tarixi"əsərinin sonrakı bölmələrində Bərdənin coğrafi mövqeyindən, Kür sahili meşələrindən, balıq vətəgəlırindən, istirahət yerlərindən, təsərüffat həyatından bəhs edir [56, s. 136; 125, s. 159].

Orta əsr ərəb, fars və türk dilində olan mənbələrdə də xüssusən coğrafiyaşünasların və səyyahların əsərlərində Bərdə ərazisinin təbii xüsusiyyətləri haqqında məlumatlar vardır. Bərdə və bərdəlilər kitabında "Hüdud-əl-aləm"ə istinadən deyilir ki, "...Bərdə böyük və zəngin şəhərdir. O, Arranın paytaxtı və bu əyalətin şahının daimi iqamətgahıdır. Orada, onun ətrafında meyvə və taxılla zəngin olan geniş, çiçəklənən əkinlər var. Orada tut ağacları çoxdur" [20, s. 11].

1970-ci ildə Bərdə şəhərində arxeoloji qazıntılar aparılmışdır (Şəkil 2.1.3). Qazıntılar zamanı məbəd aşkar edilmişdir. Həmin məbəd həm tikinti üslubuna, həm də dövrünə görə xüssusi maraq doğurur. M.Xəlilovun fikrincə, həmin məbəd VIII əsrə qədər yaxşı vəziyyətdə olmuş, sonra içərsində yanğın baş verdiyindən qismən dağılmışdır [47, s. 123]. Həmin məbəd M.Kalankatlının «Albaniya tarixi»ndə»

qeyd etdiyi, Alban hökmdarı Cavanşirin Bərdədə iki il müddətinə tikdirdiyi məbəd ola bilərdi. Bu cəhətdən Bərdə şəhərinin ərazisində və «Şortəpə» abidəsində aparılan arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi mədəniyyət qalıqları böyük əhəmiyyətə kəsb edir [79, s. 68]. Qazıntılar zamanı xeyli kirkirə, su dəyirman daşları, daş əmək alətləri aşkar edilmişdr. Bu cür materialların bir çoxundan, məsələn kirkirələrdən XX əsrin ortalarına qədər istifadə edilmişdir [7, s. 26]. Bərdə ərazisində arxeoloji qazıntılar zamanı çoxlu miqdarda, müxtəlif formalı gil və metal çıraqlar üzəri naxışlı, üç ayaqlı gil şamdanlar, həmçinin müxtəlif ölçülü təndirlər, ocaqlar və digər məişət qurğuları aşkar edilmişdir [145, s. 12]. Bərdə şəhərində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş müxtəlif növlü və formalı əşyalar orta əsrlər dövrünün maddi mədəniyyətini bir daha səciyyələndirir [74, s. 172; 122, s. 76]. Bərdə şəhərində aparılmış arxeoloji qazıntılar zamanı bir və ikimərtəbəli binanın və çoxotaqlı bina komlekslərinin bünövrələri aşkar edilmişdir. Onların üzəri naxışlı kapitellər, daş sütun altlıqları , bişmiş kərpiclə döşənmiş küçə, tünglərlə çəkilmiş su təchizatı xətti və s. erkən orta əsr Bərdəsinin maddi mədəniyyət nümunələrinin qalıqlarıdır [42, s. 246; 91, s. 74].

Beləliklə, yazılı və arxeoloji qaynaqlara əsasən deyə bilərik ki, Bərdə ilk orta əsrlərdə nəinki Uti vilayətinin, Qafqaz Albaniyasının iqtisadi, siyasi, mədəni cəhətdən ən inkişaf etmiş şəhərlərindən biri olmuşdur. Təqribən hesablamalara görə IX əsrdə burada Yüz minədək əhali yaşamışdır [103, s. 85].

Uti vilayətinin inkişaf etmiş şəhər tipli yaşayış məskənlərindən biri Kaqankatdır. Azərbaycanın X əsrə qədərki vəziyyəti haqqında fikir söyləməyə imkan verən yeganə yerli mənbə Moisey Kalankatuklunun “Albaniya tarixi” əsəridir. Əsərin müəllifi qeyd edir ki, “Uti vilayətində yerləşən ana yurdum olan böyük Kalankatuk kəndi” Uti nahiyəsində Tərtər çay sahilində, dağın ətəyində yerləşmişdi. Müəllif özünü Utili Moisey”- adlandırır [85, s. 17]. Bərdədən bu kəndə gələnlər üç fərsəxlik yol getdikdən sonra Matris kəndində, daha 12 fərsəxdən sonra Davmis kəndinə çatmaları haqqında məlumat verilir [56, s. 111; 90, s. 123]. XX əsrin əvvəlində Kaqankat adlı qədim kəndin xarabalıqları yaxınlığında azərbaycanlı ailələrinin yaşadığı bildirilmişdir.

Qafqaz Albaniyasının ilk orta əsrlər dövründə Uti vilayətində mövcud olmuş məşhur yaşayış məskəni Kaqanqat kəndinin qalıqlarının Ağdərə də Tərtər çayın sol sahilində, həmçinin indiki Bərdə rayonun Kələntərli kəndi ərazisində yerləşməsi fikri də irəli sürmüşdür [91, s. 46].

Ziya Bünyadov Kaqankat kəndi haqqında yazırdı ki, Uti vilayətində "Böyük kənd " iti axan çayın yaxınlığında bir dağın ətəyində, Bərdədən 55 km məsafədə, Tərtər çayın sol sahilində yerləşir [22, s. 45]. Ərəb coğrafiyaşünasları da bu yeri Kalkatus adlandırır və onun Bərdənin 9 fərsəxliyində yerləşdiyini yazırlar. Onlar Kalkatusu "Hasarlı kiçik şəhər" adlandırırlar. Doğurdan da hər tərəfdən oxçu və gözətçi bürcləri olan qalın hasarlarla dövrələnmiş Kaqankat şəhərinin qalıqları, hasar divarlarının dövrələnmə qalıqları ərəb müəlliflərinin təsviri ilə üst-üstə düşür. Kaqankat şəhərinin xarabalıqlarında arxeoloji qazıntı işləri arxeoloq R.Göyüşov tərəfindən aparmışdır [41, s. 75].

C.Bağırzadə Kaqankat şəhəri haqqında apardığı elmi araşdırmalarda belə nəticəyə gəlmişdir ki, Kaqankat Bərdədən cənubi-qərbə doğru Tərtər çayı boyunca, onun yuxarı axarında, Bərədədən təxminən 63-65 km məsafədə yerləşir. Hal-hazırda da Kaqankatın xarabalıqlarının Bərdədən 63-65 km aralı Tərtər çayın sol sahilində, indiki Ağdərə bölgəsində Umudlu kəndinin ətrafında ehtimal edilir. (Şəkil2.1.4) Kaqankat şəhəri onu Bərdə ilə əlaqələndirən ilk orta əsrlərin məşhur qalalarından biri olan Çaraberd qalasının təqribən 17-20 km-liyindədir. Arxeoloji tədqiqatlardan aydın olur ki, Ana Şəhərə yol Çaraberd qalasından keçir. Beləliklə, paytaxt Bərdədən gedən yol Tərətər çayı boyunca Çaraberdə, ordan isə Ana şəhərə doğru istiqamət almışdır. Çaraberd qalasından əsas yol Kaqankata qədər uzanmişdir. Bu yol mənbələrdə göstərilən Bərdə-Dəbil ticarət karvan yolu idi. Beləliklə ilk orta əsrlərin yadigarı olan Ana şəhər, Çarabert qalası, Kaqankat şəhəri və bir çox kənd tipli yaşayış məntəqələri istehkam müdafiə xarakterli qalalar Uti vilayətinin ərazisinə daxil idi. Uti vilayətinin ərazisi cənubi-qərbdə müasir Ağdərə bölgəsinin Aterk kəndinin ətrafında və buradan da bir az yuxarıda tarixi Divdəkan kəndinin ətrafında (Kəlbəcər rayonun Vəng kəndi- Xudavəng məbədinin yerləşdiyi ərazi) Arsak vilayəti ilə hüdudlanırdı [15, s. 34]. Bununla yerli mənbələrə

əsaslanaraq deyə bilərik ki, Qafqaz Albaniyasının Uti vilayətinin ərazisi müasir Ağdərə bölgəsinin bir hissəsini də əhatə etmişdir. Daha dəqiq desək Tərtər çayı boyunca cənubi-qərbə çay vadisinin ərazisi Uti vilayətinin tərkib hissəsi olmuşdur.

Kaqankat şəhəri feodalizm dövrünün yaşayış məntəqləri kimi ənənəvi olaraq iki hissədən İç qala (narinqala) və Bayır qaladan (şəhristan) ibarət olmuşdur. Kaqankat şəhər qalasının yuxarı hissəsi (Narın qala) yer quruluşuna görə formaca üçbucağı xatırladan əraziyə malikdir. Qala ərazisi həm şimali-şərqdən, həm də cənubi-qərbdən dərə ilə əhatə olunub. Qalanın sağ tərəfindən dərədən, başlanğıcını Murovdağın yamaclarından olan Arxana (Kaqankatı iki hissəyə ayıran kiçik dağ çayı) axır. Qalanın yuxarı hissəsi hasarlarla əhatələnmişdir. Kaqankat şəhər qalasının hasarlarında, keçidlərdə dördkünc bürclərin qalıqları vardır. A.Məmmədova görə dairəvi bürclərin tikilməsi XII əsrdən etibarən daha geniş yayılmışdır [72, s. 103]. Onda belə nəticəyə gəlmək olur ki, Kaqankat şəhər-qalasının divarlarında bərpa işləri aparılmışdır. Qalanın narınqala hissəsində dövrümüzədək salamat qalmış bir-birindən aralı üç bina vardır. Bu binalar 12 metr uzunluğunda 5 metr enliyindədir. Ehtimal ki, bu qalıqlar ictimai binalar olub. Narınqaladakı digər binalar uçduğundan onların qalıqları qalmışdır. Şəhərin ərzisində həmçinin epiqrafik abidələrə (daş kitabələr) də rast gəlinmişdi. Kaqankat şəhərində ən qiymətli mənbə olan daş kitabələr düzbucaqlı şəklində sal piltə formasında olub, üzərində iri güllü xaç təsviri yonulmuş, oyma üsulu ilə Alban yazılarından ibarət mətn vardır [15, s. 44].

Kaqankat şəhərinin əsas qalasından (narınqaladan) fərqli olaraq 30 hektar sahəni əhtə edən Böyük qalanın ikinci hissəsi Şəhristan - yerli qara daş, çay daşı və əhəng məhlulu ilə hörülmüş hasar divarları ilə əhatə olunmuşdur. Lakin onun hasar divarlarının  dağılmış qalıqları qalmışdır. Həmçinin şəhristan hissəsinin Tərtər çayına baxan tərəfində indi qalıqları qalan qülləvari tikili olmuşdur. Ehtimal ki, bu tikili müşahidə- nəzarət məntəqəsi – qülləsi olmuşdur [68, s. 15]. Arxeoloji qazıntıların nəticələri göstərir ki, ilk orta əsrlərin digər həmdövr abidələrində olduğu kimi Kaqankat şəhərinin şəhristan hissəsində də arxeoloji qazıntılar zamanı əsasən sənətkarlar və tacirlərin yaşadığını təsdiq edən yaşayış evləri ilə yanaşı

burada bazar, karvansaralar, hamam, müxtəlif sənət emalatxanaları və s ictimai binalar və istehsalat ocaqları aşkar edilmişdir. Şəhərin ərzisində epiqrafik abidələr də tapılmışdır [41, s. 66]. Lakin Kaqankat şəhərinin narınqala hissəsindən fərqli olaraq şəhristan hissəsindəki tikililər günümüzə qədər gəlib çıxmamışdır. Kaqankat şəhərinin ticarət əlaqələrində Bərdə, Matris, Davmis, Kil-Kuy, Dəbil, Gəncə, Şəmkir, Şətəl, Xunan yaşayış məntəqələri mühüm rol oynamışdır. Kaqankat şəhərinin həm Dəbil istiqamətində (Dəbilə gedən yolun Tərtər çay vadisi hisəssində, indiki Kəlbəcər rayonu ərzaisində bu yolun üstündə ilk orta əsrlər dövrünə aid Laçın qalası, Divdəkan kəndi, Lök qalası, Qaraçanlı qalası, Qalaboynu qalası vəs. yerləşmişdir), həm Gəncə istiqamətində, həm də Bərdə istiqamətində mühüm ticarət yollarına rahat çıxışı olmuşdur. Şəhərin əlverişli coğrafi-strateji mövqeyinin bu cür üstünlüyü onun iqtisadi-ticarət əlaqələrinin inkişafına şərait yaratmışıdır. Bərdə-Çaraberd-Kaqankat yolu, ümümiyyətlə Utidən Gəncəyə gedən yol ilk orta əsrlərin ticarət karvan yolunun yerində olmuş və XIX əsrədək işlək yol olaraq qalmışdır [66, s. 30]. Belə ki, həm Bərədədən, həm də Şuşadan gələn yol Hirək qalasından (Ağdərənin Talış kəndi yaxınlığından) ötərək müasir Goranboyun Rəhimli kəndi istiqamətində (Şətəl qalasından), Kərpicli qəsrindən (Goranboy Borsunlusu) Qaradağlı kəndi yaxınlığında II Kürəkçay qalasının (Goranboy, Qaradağlı kəndi) yanından keçərək Gəncəyə, ordan da Tiflisə doğru istiqamətlənmişdir [67, s. 32].

Mənbələrdən və arxeolji tədqiqatlara əsasən məlum olur ki, Kaqankat şəhər-qalası V-VII əsrlərdə çiçəklənmə dövrünü yaşamışdır. Qafqaz Albaniyasının paytaxtı V əsrdə Bərədəyə köçürüldükdən sonra Bərdə şəhərinin özünün də tərkibinə daxil olduğu Uti vilayəti ölkənin mühüm iqtisadi, ticarət və dini mərkəzinə çevrilmişdi [57, s. 103]. Qafqaz Albaniyasının V əsrdən etibarən dini mərkəzi-Alban katalikosluğunun yerləşdiyi – Bərdə şəhəri olduqdan sonra Uti vilayətində yepiskopluqların sayı xeyli artdı [84, s. 224]. Kaqankat şəhəri haqqındakı məlumatları, bu şəhərin adının dönə-dönə çəkilməsi onun Uti vilayətində paytaxt Bərədədən sonra ikinci böyük şəhər olmasını göstərir. Mənbə məlumatlarını arxeolji qazıntıların nəticələri də təsdiqləyir.

Qafqaz Albaniyasında ilk orta əsrlərdə ölkənin siyasi və iqtisadi inkişafında mühüm rol oynayan yeni feodal şəhərləri yaranmağa başlayırdı. Uti vilayətində belə yaşayış məskənlərindən biri də Qalatəpə yaşayış məskəni olmuşdur. Antik yunan coğrafiyaşünası Strabon Uti vilayətinə daxil olan Ayniana və Anariaka olan iki şəhərin adını çəkir:. Starbon bu haqda özünün «Coğrafiya» əsərində yazır: «…deyirlər… aynianlar Utiyada hasarlı şəhər salmışlar, o şəhərin adı Aynianadır, deyirlər burada yunan silahı, mis qablar və qəbirlər göstərirlər; burada Anariaka şəhəri də vardır, o şəhərdə, deyirlər, yatanların qeybdən xəbər verən məbədini göstərirlər» [136, s. 126].

Yazılı qaynaqlara əsasən antik dövrdə Çin və Hindistandan Qara dəniz sahillərinə qədər uzanan beynəlxalq ticarət yolu Albaniyanın ərazisindən keçirdi. Albaniyadan keçən ticarət yollarının üzərində yerləşən çoxsaylı yaşayış məntəqələri arasında, çox güman ki, Ayniana  (Hani və ya Hanhani) şəhəri də vardı. Ərəb müəlliflərindən ilk olaraq əl-Kufi «Kitab əl-fütuh» («Fəthlər kitabı») əsərində Yunan şəhərinin adını qeyd edir. O, Beyləqanda Müsafirin başçılığı ilə ərəb ağalığı əleyhinə baş verən üsyandan (748–752-ci illər) danışarkən Yunan şəhərindən bəhs edir. Əl-Kufinin məlumatına görə, Yunan Beyləqan və Bərdə arasında yerləşirdi [107, s. 59-61; 29, s. 34]. Müxtəlif ərəb müəlliflərinin əsərlərinə istinadən tədqiqatçılar Z.M.Bünyadov və N.M.Vəlixanlı ehtimal edirdilər ki, bu şəhər Bərdə ilə Beyləqan arasındakı yarı yolda yerləşirdi [22, s. 200; 104, s 35]. İ.H.Əliyev qeyd edirdi ki, Ayniana şəhəri antik dövrdə Uti vilayətində, erkən orta əsrlərdə isə Paytakaran vilayətində yerləşirdi [10, s. 20-21]. Y.Paxomov isə ehtimal etmişdir ki, Yunan şəhəri Beyləqanın şimal tərəfində olmalıdır. Yunan şəhərinə ilk və yeganə məqaləni isə Z.Yampolski həsr etmişdir. O, «Qədim Azərbaycan şəhəri Yunanın öyrənilməsinə dair» adlı məqaləsində Roma, yunan, alban, Suriya, orta əsr ərəb muəlliflərinin Yunan şəhəri, onun əhalisi, yerləşdiyi qədim vilayət haqqındakı fikirlərini ətraflı təhlil etmiş, gələcək arxeoloji tədqiqatlar zamanı bu yaşayış məskəninin yerinin tapılmasının və müəyyənləşdirilməsinin zəruriliyini bildirmişdir[138, s. 217].

Bu günədək tədqiqatçılar Ayniana–Yunan şəhərini müxtəlif cür lokallaşdırırdılar. Belə ki, N.Adons Ayniana şəhərini Albaniyanın Paytakaran vilayəti ilə əlaqələndirirdi. Ə.K. Ələkbərov Ağcabədi rayonunda kəşfiyyat qazıntı işlərindən sonra Qalatəpədə erkən antik yaşayış məskəninin mövcudluğu haqqında fikir irəli sürdü, İ.M.Cəfərzadə güman edirdi ki, Örənqala şəhərciyinin Beyləqana heç bir aidiyyəti yoxdur, bu Yunan şəhərinin xarabalıqlarıdır. Y.A.Paxomov və A.A.İessen hesab edirdilər ki, Örənqala Beyləqana uyğun gəlir, Yunan isə ondan şimalda yerləşməlidir. Z.İ.Yampolski Strabonun və ərəb müəlliflərinin məlumatları əsasında Yunan şəhəri haqqında məqalə nəşr etdirərək, şəhərin Aranın sərhədləri daxilində olması qənaətinə gəlmişdi. S.T.Yeremyan Ayniana–Yunan şəhərini indiki Ağdam yaxınlığında lokallaşdırırdı. 1974-cü ildə F.L. Osmanov Qalatəpədə kəşfiyyat qazıntısı aparmış, nəticədə dulus kürəsi və orta əsr saxsı məmulatının nümunələri aşkar olunmuşdu. Onun fikrincə, burada həyat Eneolit dövründən orta əsrlərədək davam etmişdir [22, s 109-112]. Bizim fikrimizcə də Ayniana-Yunan şəhərinin qalıqları Qarabağda, Ağdam rayonu ərazisində yerləşir. Q.M. Əhmədov ehtimal edirdi ki, Ayniana–Yunan şəhərinin xarabalıqları daha çox Qalatəpə abidəsinə uyğundur [30, s. 87]. Q.Ə.Qeybullayev Uti vilayətini və müvafiq olaraq Eniana (Ayniana) şəhərinin Atropatenanın ərazisində, Yunan şəhərinin isə ya Bakı ilə Salyan arasında, ya da Bərdə zonasında yerləşdiyini qeyd etməklə bu məsələnin həllinə xeyli dolaşıqlıq gətirmişdi [10, s. 366-368]. R.S.Məlikov da öz növbəsində Ayniana–Yunan şəhərini Ağdamın yaxınlığında lokallaşdırırdı [22, s. 125]. Qalatəpə ilə Şortəpə abidələri arasında Qaratəpə abidəsi yerləşir ki, bu abidədə də H.F.Cəfərov arxeoloji tədqiqatlar aparmışdır [113, s. 418-420].

Həmçinin Qafqaz Albaniyasının tarixinin düzgün araşdırılmasında Nizami Gəncəvi Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayevanın böyük rolu olmuşdur. Belə ki, Akademik N.Paşayevanın təşəbbüsü ilə Oksford Universitetinin “Brasenose” kollecinin doktoru Paul Vordvorsun rəhbərlik etdiyi 10 nəfərlik Britaniyalı Arxeoloji Ekspedisiya Heyəti 2015 ci ildən Bərdədə arxeoloji qazıntı işlərinə başlamışlar. Bərdənin mərkəzində yerləşən Torpaqqalada və Bərdənin kənarında yerləşən Qaratəpədə qazıntılar apamışdılar. Arxeoloji

qazıntılar nəticəsində Qaratəpədə erkən orta əsrlərə aid (IV-V) yaşayış məskənləri aşkar edilmişdir.

Mil-Qarabağ düzündə, o cümlədən Örənqalada uzun illər tədqiqat aparan Q.Əhmədov olmuşdur.(Şəkil2.1.5) O, həmin abidənin Enian adlı şəhərin xarabası olması haqda mülahizə də irəli sürmüşdür [30, s. 19; 35, s. 15].

Ayniana–Yunan şəhər yerinin dəqiq müəyyən edilməsinə çoxtəbəqəli Qalatəpə abidəsində aparılan ən yeni arxeoloji qazıntılar imkan yaradır. Qalatəpə Bərdədən təqribən 45 km, Örənqala şəhər yerindən isə (Beyləqan) 35 km aralıdadır. Bu da onu ğöstərir ki, Qalatəpənin yerləşməsi Yunan şəhərinin Bərdə və Beyləqandan 7 fərsəx məsafədə olması haqqında ərəb müəlliflərinin verdiyi məlumatlara uyğundur.

Qalatəpə Ağcabədi rayonunun Salmanbəyli kəndindən 4 km şimal-qərbdə, Qarqarçayın və qədim Govurarxın kəsişdiyi sahədə yerləşir(Şəkil 2.1.6). Tədqiqatçı Təvəkkül Əliyev qeyd edib ki, Qarqarçay hövzəsi Azərbaycan tarixinin müxtəlif dövrlərini özündə əks etdirən arxeoloji abidələrlə zəngindir.(Şəkil 2.1.7) Hələ XIX əsrin sonlarından bu abidələr tədqiqatçıların diqqətini cəlb edir. 1987-ci ilin iyulunda T.R.Əliyevin rəhbərliyi ilə Mil-Qarabağ arxeoloji ekspedisiyası Qalatəpə abidəsində müntəzəm qazıntılara başlayır [35, s. 15-16]. Buradan antik və orta əsrlərin müxtəlif dövrlərinə aid zəngin və müxtəlif çeşidli maddi mədəniyyət nümunələri, qəbir abidələri, təsərrüfat quyuları, müxtəlif dövrlərə aid silah və sənətkarlıq nümunələri və s. aşkar edilmişdir [33, s. 226-234] .

2008 və 2009-cu illərin çöl tədqiqatları zamanı burada 200 $m^2$ sahə 6 m dərinliyədək qazılıb tədqiq edildi. Qalatəpə şəhər yerinin üst mədəni təbəqəsinin (0,7 m qalınlığında) tədqiqi onun IX əsr – XIII əsrin əvvəllərinə aid olduğunu göstərdi. (Şəkil 2.1.8) Bu təbəqədə divarları bişmiş kərpicdən inşa edilmiş, sahəsi 6×4 m olan otağın qalıqları aşkar olundu. Otağın 0,2 m qalınlığı olan gil döşəməsinin üzəri gəclə suvanmışdır. Onun cənub divarında ölçüsü 22×22×4,5 sm olan bişmiş kərpiclərdən düzəldilmiş ocaq yerinə rast gəlinmişdi. Qalatəpə şəhər yerinin 0,7 metrdən 6 metr dərinliyədək qazılmış alt mədəni təbəqəsindən antik və erkən orta əsrlər dövrünə aid maddi mədəniyyət nümunələri tapılmışdır. Bu

təbəqədən ikiqat qala divarları, keşikçi qülləsi, həmçinin kvadrat formalı böyük otaq yeri (7,5×7,5 m), 1,5 m enində küçənin, yaxud dalanın bir hissəsi (13 m) və digər tikililər aşkar edilmişdir. Üzə çıxarılmış divarların hündürlüyü 5,5 m-ə yaxındır. Divarların inşasında istifadə olunan çiy kərpiclərin ölçüləri 58×46–47×16–19 sm-dir. Bu cür iri ölçülü kərpiclər Mingəçevirdə aparılan arxeoloji tədqiqatlar zamanı aşkarlanmışdır.

Qalatəpə şəhər yerindən 100–150 m şərqdə, 4 ha-dan çox sahədə antik dövrə aid nekropol yerləşir. Burada 8×3 m ölçüdə kəşfiyyat qazıntısı aparılmış 4 küp qəbir aşkar edilmişdir. Beləliklə, Strabonun Patrokla əsaslanan məlumatlarına, eyni zamanda Qalatəpə şəhər yerindən və nekropolundan aşkar edilən arxeoloji materiallara əsasən, Ayniana (Eniana) şəhərinin hələ e.ə. III əsrdən mövcud olduğunu söyləmək mümkündür. Ehtimal ki, bu şəhər hani (hanhani) adlı tayfa tərəfindən salınmış və müvafiq olaraq Hani (Hanhani) adlandırılmışdır. Erkən orta əsrlərdən başlayaraq uzunmüddətli Sasani–Roma, ərəb, xəzər müharibələri nəticəsində Mil-Qarabağ düzlərinin çoxsaylı yaşayış məntəqələri kimi qədim Ayniana (Hani və ya Hanhani) şəhəri də dağıdılaraq tənəzzülə uğramışdır. IX–X əsrlərdə artıq Yunan adlanan şəhərdə həyatın yenidən canlanmasına baxmayaraq, XIII əsrin əvvəllərində monqolların dağıdıcı yürüşləri onun süqutuna səbəb olmuşdu [30, s. 34].

Bərdə rayonunun Şatırlı kəndi ərazisində Şortəpə arxeoloji kompleksində 2014-2015-ci ilərdə aparılan arxeoloji qazıntı işləri zamanı da uğurlu elmi nəticələr əldə olunmuşdur(Şəkil 2.1.11). Arxeoloji qazıntı işləri abidənin cənub-şərq hissəsində 10x10 m ölçüdə aparılmışdır. Qazıntı sahəsi 4 kvadrata bölünmüş və hər kvadrat 5x5 m olmaqla tədqiq edilmişdir.

I kvadrat 2,5 m dərinliyə qədər qazılmış, oradan 0,5-0,8 m, 1-1,5 m və 1,8-dərinliklərdən maddi mədəniyyət nümunələri üzə çıxarılmışdır (Şəkil2.1.12). Üst təbəqədən IV-V əsrə aid saxsı məmulatı əldə olunmuşdur. İkinci təbəqədən I-III əsrlərə aid maddi mədəniyyət nümunələri, alt təbəqədən isə antik dövrün ilkin mərhələsinə aid materiallar tapılmışdır. Kvadratın şimal-şərq küncünə yaxın yerdə şərq divarında daha dərin 2,5 m dərinlikdə təsərrüfat küpünün hissələri üzə

çıxmışdır. II kvadrat əvvəlki kvadratın cənub hissəsində yerləşmişdir. Bu hissə 0,7-1 m dərinliyinə qədər qazılmışdır. III kvadrat arxeoloji qazıntı sahəsinin cənub-qərb hissəsini əhatə edir. Arxeoloji materialların zənginliyi baxmından bu kvadrat daha önəmlidir. Bu kvadrat 1,5 dərinliyə qədər qazılmış, şimal-qərb küncündə ocaq yeri və əhənglə hörü'lmüş tikili hissəsi tapılmışdır. Mərkəzi hissədən şərq divarına döğru 1 m dərinlikdə iki sütun atlığı tapılmışdır. III kvadratın cənub-şərq küncündən 1 m qərbə doğru eyni dərinlikdə iki küp aşakara çıxarılmışdır. Onların birinin istiqaməti cənub-şərqə, digərininki isə şimal-qərbə idi. Küplərin ölçüləri 1,2x0,9 m-dir.

Beləliklə, arxeoloji qazıntı işləri nəticəsində üst hissədə III-V əsrlərə aid arxeoloji materiallar üzə çıxarılmışdır [140, s. 65]. Abidənin alt təqəbəsindən e.ə. VII-V-IV əsrlərə aid maddi mədəniyyət nümunələri tapılmışdır. Əldə olunan materiallar ardıcıl olaraq Şortəpə abidəsində yaşamış əhaliinin skiflərlə, Mərkəzi Asiya, Ellin dünyası və Şərqi Aralıq dənizi sahili tayfaları ilə iqtisadi-mədəni əlaqələrinin olduğunu söyləməyə əsas verir. Strabon öz əsərində Uti vilayətində Anariaka və Ayniana şəhərlərinin olması haqqında məlumat verir. Fikrimizcə, Anariaklanın və alban-qarqar tayfalarının birlikdə yaşadığı Anariaka yaşayış məntəqəsi məhz Şortəpə olmuşdur. Qafqaz Albaniyasının Uti vilayətinin ərazisinə daxil olan bu abidədə Qarabağın qədim yerli tayfaları olan alban-qarqar tayfaları yaşamış və antik dövr Qafqaz Albaniyasının mühüm şəhərlərindən birinin əsasını məhz Şortəpədə qoymuşlar [79, s. 69].

Uti vilayətinin kiçik bir hissəsi olan və mənbələrdə xatırlanan yaşayış yerlərindən biri Ergi düzüdür (Şəkil 2.1.14). Ergi düzü abidələrinin tarixi - arxeoloji tədqiqi müasir Azərbaycan elminin aktual məsələrindən biridir. 1985-ci ilin oktyabr ayında Ağdam  rayonunda Ergi düzündə kənd təsərrüfat işləri zamanı aşkar olunan maddi mədəniyyət nümunələrini tədqiq etmək üçün R.B.Göyüşovun rəhbərliyi ilə arxeoloji dəstə təşkil edilmişdi. Ergi düzü Ağdam rayonun cənub-qərbində, Mərzili Bələdiyyəsinin ərazisində Qarqar çayın sağ sahilində, Ağdam və Ağcabədi rayonlarının sərhəddində yerləşir. Ərazinin-relyefi təpəli düzənlik olub, Xublar çayı vasitəsilə iki hissəyə bölünür. Ergi düzündə arxeoloj kəşfiyyat işləri

zamanı üç yaşayış yeri, iki qəbristanlıq və iki səcdəgah aşkar olunmuşdu. Arxeoloji kəşfiyyat işləri Ergi düzünün şimal-qərbində yerləşən və şərti olaraq 1 №-li ibadətgah adlandırılan sahədə başlanmışdır (Şəkil 2.1.15). Bu yer kənd təsərrüfat işləri-şumlama zamanı tamamilə dağılmışdır. Şurf qazıntı nəticəsində uzunluğu 7 m, eni 1,8 m olan düzbucaqlı formalı bünovrə qalığı aşkar olunmuşdur . Bünövrə l m enlikdə çaydaşından əhəng məhlulundan yapışdırıcı maddə kimi istifadə etməklə hörülmüşdür. Divarların üst hissəsinin tikintisində isə ölçüsü 19,5x19 sm olan bişmiş kərpiclərdən isttifadə olunmuşdur [41, s. 21]. Bizcə, qazıntı sahəsindən aşkar olunan xeyli sayda şirli kaşılardan binanın xarici görünüşünün bəzədilməsində onlardan istifadə edildiyini sübut edir. Formasına əsasən onların bəzisinin ərəb-fars hərflərinə oxşar işarələr olduğu müəyyən edilmişdir.

Səcdəgah ərazisindən qırmızı rəngdə keyfiyyətli bişirilmiş, ağ anqoblu yaşıl, qəhvəyi, sarı, qara rənglərdən istifadə etməklə həndəsı naxışlanmış saxsı qab qırığı, üzərində iki cərgə bir-birinə paralel dioqanalları eyni olan konsentrik qabarıq relyefli çevrələr çəkilmiş silindirik formaya malik şüşə əşya hissəsi , üzəri kəsmə naxışlı boru formalı qara şəvə muncuq [4, s. 247], bir ədəd Eldəgiz Məhəmməd Cahan Pəhləvanın oğlu Atabəy Əbubəkirin adından kəsilən (1191-1211) mis pul aşkar olunub (Pulu M.Seyfəddini təyin edib) [143, s. 29]. Səcdəgah sahəsindən aşkar olunan materialar kompleksinə əsasən onları XIII-XIV əsrlərə aid etmək olar. Yuxarıda göstərilən bu maddi nümunələr Təbriz-Bərdə karvan yolu üzərində yerləşən Ergidəki bu tikintinin divarlarını bəzəmiş yazılı epiqrafik məlumatlar olduğunu, onun həqiqətən Azərbaycan epiqrafika elminin, həmçinin orta əsr memarlıq-inşaat texnikası və dinşünaslıq tarixinin öyrənilməsi üçün xüsusi əhəmiyyətə malik abidə olduğunu sübut edir [4, s. 248].

Ergidə qazıntılar zamanı bu səcdəgah sahəsinin şimal-qərbində təpə üzərində başqa bir müqəddəs yer hesab olunan tikinti qalığı da aşkar olunmuşdur. Burada uzunluğu 7 m, hündürlüyü 45 sm olan bişmiş kərpicdən özül aşkar olunmuşdur. Binanın içərilərinə doğru 2 m enlikdə əhənglə suvanmış döşəmə hissəsi üzə çıxarılmışdır. Yapışdırıcı maddə kimi əhəng və gil-torpaq məhlulundan istifadə olunmuşdur. Aşkar olunan kərpiclər kvadratşəkilli olub, uzunluğu 19 sm, qalınlığı

4 sm-dir. 1986-cı ilin noyabrında Ergidə arxeoloji qazmtı işlərini Ergi arxeoloji dəstəsi tərəfindən 1985-ci üdə kəşfiyyat işləri aparılmış sahənin yaxınlığında-əsaslı tədqiqat üçün zəruri olan ikinci müqəddəs yer hesab olunan məqbərə sahəsində davam etdirilmişdir. Ərazinin çox hissəsi meliorasiya işləri zamanı dağıdılsa da, qazıntı işləri nisbətən sağ qalmış 10x10 kv.m sahədə aparılmışdır [143, s. l4]. Yerüstü material kimi boz və qəhvəyi  rəngli bişmiş saxsı parçaları və bir ədəd-gümüş pul aşkar edilmişdir. Pul Elxanilər sülaləsindən olan Əbu Səid Bahadur xanın adından hicri 726/1307-ci ildə kəsilmişdi (Pulu M. Seyfəddini təyin etmişdi)(Şəkil2.1.17 ). Burada mədəni təbəqənin qalınhğı 2-2,5 m olduğu müəyyən edilmişdir. Qazıntı zamanı cənub, cənub-qərb və qərb divarı boyunca bilavasitə divarı kəsən tikinti qalığı üzə çıxanlmışdır. Bişmiş kərpiclərin üzərinə yapışdırılan ağ rəngdə əhəngdən düzəldilən  sarımtıl xardal rəngli dözbucaqlı üzlük kaşılar da diqqətl cəlb edən tapıntılardan olmuşdur. Qazıntı sahəsinin cənub-qərb küncündə qalınlığı 7-10 sm, eni 22-25 sm və uzunluğu 77-80 sm olan suvaq üzərində yağlı qara hisli kristal maddələr-çox güman ki, şam yanığı təbəqəsi aşkar olunmuşdur. Ondan cənuba doğru uzunluğu 1,5 m olan ikiqat bişmiş kərpicdən hörülmüş divar hissəsi də üzə çıxarılmışdı. Bu tikintidə yapışdırcı maddə kimi əhəngdən istifadə olunmuşdu. Kərpiclərin ölçüləri 23x19x6 sm-dir. Bu divara bitişik olan cənuba doğru yönəlmiş sarı və qırmzımtıl-qəhvəyi rəngli bişmiş kərpiclərdən hörülmüş divar qalığı və bir ədəd şirli kaşı da aşkar olunmuşdur. Kərpiclərin ölçüləri 5X19 sm və 10X26 sm. idi [143, s. 15]. Qazıntı sahəsinin cənub-şərq hissəsində 1,06 m dərinlikdə bir neçə kömür parçaları və sümükləri çox dağılmış, istiqamətini müəyyən etmək mümkün olmayan insan skeleti aşkar olunmuşdur. Qazıntı sahəsinin şimal-şərq hissəsi saxsı qırıqları ilə zəngin olsa da cənub-şərq istiqamətində dərinliyi 1,3 m, diametri 90 sm olan bir quyu aşkar olunmuşdur ki, onun da içindən 11 ədəd mismar, heyvan sümükləri, qaramtıl-qırmızı rəngli saxsı qırıqları tapılmışdır [143, s. 15]. Tədqiqat zamanı aşkar olunan şirsiz korbucaqlı üçbucaq və bir küncü itibucaqlı olan dördbucaqlı şəkildə olan kaşılar da məqbərənin bəzədilməsində istifadə edilmişdir. 1985-1986-cı illərdə apanlan

qazıntı işləri səcdəgahlar sahəsi adlandırdığımız ümumi ziyarətgah kompleksinin bir hissəsi olmasını güman etməyə əsas verir.

Beləliklə, Uti vilayətinin Ergi düzündə iki il ərzində aparılan arxeoloji-kəşfiyyat qazıntıları nəticəsində hal-hazırda Ergi dəstəsinin tədqiqatlar aparmış olduğu yerlərins bir çoxu düşmən əlində olsa da, vətənimizin bir hissəsi olan Uti vilayətində tunc dövründən başlayaraq son orta əsrlərə qədər olan bir hissəsini öyrənməyə imkan verən maddi nümunələr aşkar edilmişdir [39, s. 73]. Bu nümunələr Azərbaycanm digər həmdövr materialları ilə oxşar olub, bu dövrdə xalqımızın yaşama tarixinin qədimliymi sübut etməklə yanaşı, Azərbaycanda memarlıq, dulusçuluq, toxuculuq, şüşə istehsalı, boyakarlıq, metalişləmə, həmçinin siyasi tarix elmlərinin müəyyən səhifələrinin də zənginləşməsinə mədəniyyət tariximizin daha yaxşı öyrənilməsinə imkan verir. Ergi düzündə aşkar olunan yerüstü materialların geniş bir sahəni əhatə etməsi, qazıntı materiallarının tədqiqi nəticəsində əldə olunan elmi məlumatlar (yaşayış yerinin geniş sahəni əhatə etməsi, müqəddəs ocaqlar, dulus kürəsi və s.) bu ərazidə məhv olumuş şəhər yerinin tarixən mövcud olmasını sübut edir. Güman etmək olar ki, bu ərazidə gələcəkdə aparılacaq tarixi-arxeoloji tədqiqatçılar onun həqiqətən Azərbaycanın tarixən mövcud olub, tarix səhnəsindən çıxan hansı şəhəri olduğunu aşkar etməyə imkan verəcək.

Əndorab yaşayış məskəni - Erkən orta əsrlər dövründə Qafqaz Albaniyasının Uti vilayətinin əsas tərkib hissəsinə daxil olan beynəlxalq əhəmiyyətli ticarət karvan yollarının üstündə yerləşən bol sulu çayları, münbit torpaqları, əlverişli iqlim şəraiti olan Bərdə və Gəncə kimi iri orta əsr şəhərləri arasında vasitəçilik yaradan Tərtər ərazisində qədim yaşayış yerləri və qəbir abidələrinin olması təkzib olunmazdır. Belə yaşayış yerləri içərsində orta əsr müəlliflərinin əsərlərində adı çəkilən lakin yeri son vaxtlara qədər məlum olmayan Əndorab qalası xüssusi yer tutur [59, s. 67].

Erkən orta əsrlərdə Əndorab təkcə yaşayış məntəqəsi olmayıb, həm də karvansara kimi istifadə edilirdi. Beləki, karvansara kimi istifadə olunan şəhərlər 30-35 km-dən bir salınırdı. Belə şəhərlər həm alqı-satqı işini asanlaşdırır, həm də yük heyvanlarının yiyələrinin dincəlməsi üçün idi. Bu cür şəhərlər salınarkən yük

heyvanları və tacirlərin bir dəfəyə qət edə biləcəkləri məsafə, su mənbələri, müdafiə və.s əsas götürürlürdü.

Arxeoloji tədqiqatlar sübut edir ki, Əndərob qalası da Goranboy ərazisində yerləşən Şutur ("Dəvə yeri") qalası kimi Bərdə və Gəncə şəhərlərinin möhkəmləndirilməsinə xidmət etmişdir. XII-XIII əsrlərdə yaşamış ərəb coğrafiyaşünası Yaqut-əl-Həməvi "Mücəm-əl-buludan" (Ölkələrin coğrafi lügəti) kitabında ərəblərin işğalı ərəfəsində mövcud olmuş Aran şəhərləri, qalaları və yaşayış yerlərinin adlarını çəkərək yazır: "Karna (Kurax-Bərdə yaxınlığında Gərənə kəndi- Z.Q.)", Lasub (Bərdədə Lənbəran kəndi-Z.Q.), Yaktan –Naftalan (Naftalan-Z.Q.) əl-Əndorab- Bərdə yaxınlığında yaşayış məskənləridir. Bura bostan və bağlarla örtülüdür, hər yer meyvə ağaclarıdır. Burada Səmərqənd fındığından daha keyfiyyətli fındıq yetişir. Buradakı şabalıd əş-Şam şabalıdından daha yaxşıdır. Onların zoğal adlanan gec bayra (quşarmudu-Z.Q.) böyüklüyündə meyvəsi var ki yetişdikcə dadı şirin, kal vaxtı isə acı olur. Bərdədə Ləsubdan gətirilən ən yaxşı növ əncir satılır. Burada heç kimə mənsub olmayan yol kənarında əkilən tut ağaclarından iplik istehsal edilir [103; s. 82].

Bu dövrdə Bərədəni İz (Əndorab-Tərtər) və Şətəl (Goranboy)qalaları qoruyurdu. Bu cür qalalar ayrı-ayrı şəhərlərin möhkəmləndirilməsinə xidmət edirdi. Əksər vaxt xəzinə orada saxlanılır və onlar yay iqamətgahı rolunu oynayırdılar [43, s 28]. Qalaların möhtəşəmliyi onların hakimlərinin mərkəzdən təcrid olunmalarına, heç kəslə hesablaşmamağına gətirib çıxarırdı [105, s. 82].

XIV əsr müəllifi Həmdullah Qəznəvi isə Bərdə ilə Gəncə arasındakı yaşayış məntəqlərini qeyd edərək yazır. "Bərdədən Deh-İsfahanı kəndinə kimi(Əndərob-Z.Q.) 4 fərsəx , oradan xanəgah Şotora (Şutur-Şətəl) 5 fərsəx, Gəncə şəhərinə kimi 5 fərsəxdir" Bərdə ilə Gəncə arasında qədim karvan yolu ilə gedən məsafə də yuxarıda göstərilənlərə bərabərdir [45, s. 39 ].

Tərtər bölgəsinin ticarət əlaqələrinin inkişafında Bərdə-Tiflis ticarət yolunun da böyük əhəmiyyəti olmuşdur. Orta əsrlərdə "Dəvəçi yolu " adı ilə tanınmış bu yol hələ III-V əsrlərdə şöhrət tapmış, V- VIII əsrlərdə yüksəliş dövrünü keçmişdir. Əndərob-Şətəl-Gəncə-Şəmkir-Xunan-Qala ibn Qandamandan keçən bu yol Bərdə

şəhərini Tiflisə birləşdirirdi [45, s. 44] . Fikrimizcə Əndərob qalasının müasir Tərətər –Bərdə yolunun kənarında lokallaşdırılması ağlabatan görünmür. Bu şəhər yerinin orta əsr Bərdə-Tiflis ticarət yolunun kənarında yerləşən Toxmaxtəpə abidəsi ilə eyniləşdirilməsi daha real görünərdi. Dəqiqləşdirmələr üçün gələcəkdə Toxmaxtəpə abidəsində arxeoloji qazıntıların aparılması zəruridir.

I Yüzbaşılı (Ağdam) - Tədqiqat Ağdam rayonu Xındırıstan bələdiyyəsinin I Yüzbaşılı kəndinin şimal-şərqində Baş Qərvənd ərazi nümayəndəliyinin Mirəşelli kənd qəbirstanlığından 300 metr şimalda yerləşir. Arxeoloji obyekt cənub-qərbdən eni 50-80 m-ə yaxın olan Qobu ilə əhatələnmişdir. Məlum olmuşdur ki, kənd sakinləri əkin sahələrini suvararkən qəflətən suyun dərin axmasını müşahidə etmiş və həmin yeri 1-1,2 m dərinlikdə qazaraq oradan müxtəlif ölçüdə küplər, məişət qabalrı, kiçik ölçülü, zoomorf əşyalar və asmalar əldə etmişlər .

A.Məmmədov tərəfindən arxeoloji kəşfiyyat qazıntısı aparılarkən onun üst qatında sahəsi 30-35 h olan şəhər tipli yaşayış yerinin olduğu müəyyənləşdirilmişdir. Yerüstü arxeoloji materiallar VII-XIII əsrlərə aiddir. Lakin yaşayış yerinin böyük bir sahəni əhatə etməsinə və arxeolji materialların zənginliyinə əsasən bu ərazidə ilk orta əsrlərin sonunda orta səviyyədə inkişaf etmiş şəhər tipli yaşayış məntəqəsinin olduğu qənaətinə gəlinmişdir [59, s. 68 ].

Çünki digər ilk orta əsr yaşayış yerləri kimi I Yüzbaşlı abidəsi də təbii baxımdan əlverişli mövqeydə tikilmiş, bir tərəfdən enli qobu, digər tərəfədn isə dərin xəndəklərlə əhatəlınmişdir. Çox ehtimal ki bu yaşayış məntəqəsi orta əsr Tiflis-Xunan-Gəncə-Şətəl-Əndərob-Hərum (Bərdə) - Dəbil ticarət yolunun üstündə yerləşməklə həm karvanların dincəlməsi, alqı-satqı üçün nəzərdə tutulmuş, həm də Bərdənin müdafiəsinin gücləndirilməsinə xidmət etmişdir.

Tarixi Uti vilayətinə daxil olan indiki Goranboy rayonu ərazisindəki Abbastəpə yaşayış yerində 1990-cı ildə 5x5 metr ölçüdə kəşfiyyat qazıntısı aparılmışdır. Ümumi dərinliyi 2,5 metr olan iki mədəni təbəqə aşkar edilmişdir. Birinci mədəni təbəqənin qalınlığı 1,4 metr olub III-VIII, ikinci təbəqənin qalınlığı isə 1,1 metr olub IX-XIII əsrləri əhatə edir. Qazıntı sahəsinin birinci mədəni təbəqəsindən xeyli miqdarda təsərrüfat küplərinin qalıqları, mis qolbaqlar, bir neçə

metal əşya, ikinci təbəqədən isə kasa, boşqab tipli qablardan hissələr və bir təndir yeri aşkar edilmişdir. Yaşayış yeri cənubdan Armudlu dərə, şimaldan və şimal-şərqdən Narlı qoruq, qərbdən Bakı-Gəncə şosse yolu, qalan tərəfdən əkin sahələri ilə sərhədlənmişdir [72, s. 82]. Burada aparılan arxeoloji tədqiqatlar Qarabağın kəndtipli yaşayış yerlərinin öyrənilməsi baxımdan əhəmiyyətlidir.

Goranboy rayonu ərazisindəki Şəfəqkənd yaşayış yeri Qara çayla Goran çayının arasındakı Orta çayın sahilində yerləşir. Şəfəqkənd yaşayış yeri şərqdən və şimal-şərqdən Orta çay və Yeddi qardaş çinarları, qalan tərəflərdən yerli əhali arasında «Arpadərəsi» adlanan əkin sahəsi ilə əhatə olunur. Yaşayış yerinin eni şimaldan-cənuba doğru 60 metr, uzunluğu şərq-qərb istiqamətində 180 metr olub sahəsi 1,08 hektardır.

Şəfəqkənd yaşayış yerində aparılan kəşfiyyat xarakterli qazıntı işləri zamanı ümumi dərinliyi 2,8 metr olan iki mədəni təbəqə aşkar edilmişdir. Birinci mədəni təbəqənin qalınlığı 1,8 metr olub, III-VIII əsrləri, ikinci mədəni təbəqə 1 metr qalınlığında olub, IX-XIII əsrləri əhatə edir. Əsas materiallar I təbəqənin üst qatından tapılmış boşqab, cam, qazan tipli qablardan və bir ədəd dəyirman daşından ibarətdir.

Aparılan tədqiqatlar və yerin quruluşu göstərir ki, vaxtilə yaşayış yerinin təhlükəsizliyini möhkəmlətmək üçün onun ətrafında dərin və enli xəndək qazılmışdır. Kəndtipli bu yaşayış yeri bölgədəki monqol dağıntıları ilə yanaşı XIII əsrdə sıradan çıxmışdır.

Meydan düzü yaşayış yeri isə Kəpəz dağının şimal-şərq ətəyində yerləşir. Yaşayış yerindən əldə edilən yerüstü materiallar onun ilk otra əsrlərə aid olduğunu göstərir. Yaşayış yerinin yaxınlığında onunla həmdövr qəbiristanlıq vardır. Arxeoloji materiallar bu ərazidən əsasən maldar tayfaların yaylaq yeri kimi istifadə olunduğunu söyləməyə əsas verir. Yaşayış yeri müvəqqəti olsa da mövsümü olaraq uzunmüddətli istifadə olmuşdur [72, s. 70].

Şətəl (Şutur) şəhərinin izləri Goranboy rayonunun ərazisində yerləşir. Şəhər yeri şimaldan əkin sahələri, qərbdən Rəhimli kəndi və Uçuq körpü, cənub-qərbdən Aralıq dərəsi, şərqdən Abbasqulular kəndinin əkin sahələri ilə həmsərhəddir. Şətəl

şəhər yerinin uzunluğu şərq-qərb istiqamətində 700 metr, eni şimal-qərb istiqamətində təxminən 570 metr olub sahəsi 40 hektara qədərdir. Düzənlik ərazidə salınmışdır. Goraboy-Aşağı Ağcakənd yolu şəhər yerinin ərazisini iki hissəyə bölür.

1988-ci ildə Şətəl şəhəri ərazisində hər biri 5x5; 5x10; 5x6 metr ölçülərdə üç hissədə kəşfiyyat xarakterli qazıntı işləri aparılmışdır. Tədqiqat işləri zamanı məlum olmuşdur ki, üst təbəqələrin tikintiləri ilə əlaqədar qazılmış quyular, təndirlər, xəndəklər və s. özündən əvvəlki təbəqələri dağıtmış, əksər hallarda onların materialları torpaqla birlikdə çıxarılıb atılmışdır. Şəhərin şimal-şərq tərəfində yerləşən birinci qazıntı sahəsində ən qədim mədəni təbəqənin qalınlığı (V-VII əsrlər) 1,1 metrdən- 1,5 metrə qədər olmuşdur. Bu təbəqənin əsas tapıntıları osteoloji qalıqlardan, şirsiz gil qablardan və onların hissələrindən ibarətdir [73, s. 42].

Şəhər yerindəki ikinci mədəni təbəqənin qalınlığı 1,7-2 metr olub, IX-X əsrləri əhatə edir. Bu dövrə aid təbəqə özündən əvvəlkindən həm materiallarının çoxluğu, həm də təbəqənin qalınlığı ilə fərqlənir. Kəşfiyyat xarakterli qazıntı işləri zamanı şəhər yerindən yaşayış və məişət tikintilərinin qalıqları da aşkar edilmişdir. Müəyyən olunmuşdur ki, IX-X əsrlər mədəni təbəqəsinin yaşayış binalarının bünövrələri xırda çay daşları, divarı isə bişmiş kərpic və ya möhrə üsulu ilə hörülmüşdür. Otaqların divarına tərkibində saman qatılmış ağ torpaqdan üzlük çəkilmiş, bəzilərinin döşəməsi şirələnmiş, digərlərininki isə sasani dövrünün sonuna uyğun kərpiclərlə döşənmişdir. Şəhər yerinin şimal-şərq tərəfində aparılan qazıntı zamanı belə müəyyən olunmuşdur ki, onun giriş darvazası da məhz bu hissədə olmuşdur. Onun eninin təxminən 6 metrə qədər olduğu müəyyən edilmişdir [72, s. 127].

Qalaya daxil olmaq üçün darvaza yeri dağıdıldığına görə başqa orta əsr şəhərləri ilə müqayisəli şəkildə öyrənilmişdir. Çünki düzən yerlərin orta əsr şəhərlərinin qala divarları və darvaza yerləri də bir-birinə oxşar quruluşda olurdu. Belə ki, Şətəl şəhəri ilə həmdövr olan Beyləqan şəhərinin qala divarlarının eni 1,85 m [35, s. 16], Gürcüstanın Helati monastırında saxlanılan XI əsrə aid Gəncə

darvazası tayının eni isə 1,72 m-dir. Divarların hündürlüyünə gəldikdə yerli sakinlərin söylədiklərinə görə, dağıntı aparılana qədər o, bəzi yerlərdə 4- 4,5 metrə çatmışdır. Qala divarlarının quruluşuna gəldikdə isə o, həm də darvaza yanlarında bir qədər kənara çıxmışdır. Arxeoloji qazıntılar zamanı Şətəl şəhər yerində tapılmış nizə, ox ucluqları və yumru daşlar isə onlardan şəhərin müdafiəsində istifadə olunduğunu göstərir. 2010–cu ildə Şətəl şəhər yerində aparılan növbəti arxeoloji qazıntılar zamanı oradan dulus qabların hazırlanmasında istifadə edilən kürəxananın qalığı aşkarlanmışdır. Bu şəhərin haqqında orta əsr müəlliflərinin əsərlərində xeyli məlumatlar vardır [69, s. 86].

Hazırəhmədli qalası Goranboy rayonunun eyni adlı kəndinin cənub-şərqində, Hazırəhmədli və Göynüyən kəndləri arasındakı 14-18 dərəcə əyintisi olan alaçaq təpəlikdə yerləşir. Qalanın eni şimaldan-cənuba doğru 100 metr, uzunluğu şərq-qərb istiqamətində təxminən 500 metr olub, ümumi sahəsi 5 hektara yaxındır [127, s. 34].

Qala Hazırəhmədli bələdiyyəsinin ərazisində olduğu üçün ona Hazırəhmədli qalası deyilir.

Yazılı mənbələrdə qala haqqında məlumat olmadığına görə, onun ətraflı və dərindən öyrənilməsində arxeoloji tədqiqat işləri mühüm əhəmiyyət daşıyır. Qalanın şərq (birinci qazıntı sahəsi) və şimal (ikinci qazıntı sahəsi) tərəflərində hər biri 5x5 metr ölçüdə arxeoloji qazıntı işləri aparılmış və ümumi qalınlığı 2,5 metr olan iki mədəni təbəqənin müəyyənləşdirilməsi mümkün olmuşdur. Nəticədə aydın olmuşdur ki, qalınlığı 1,6 metr olan, II-V əsrləri əhatə edən birinci mədəni təbəqənin əsas obyektlərini istehsal ocaqları, yaşayış binaları, müxtəlif tipli istehsal alətləri və digər məişət əşyaları təşkil edir [72, s. 86].

Aparılan tədqiqat işləri zamanı Hazırəhmədli qalasında çox az miqdarda yaşayış binaları qalıqlarına rast gəlinmişdir. Bu isə kiçik çay daşları nəzərə alınmazsa, başqa tikinti daşının çıxarılmasının çətinliyinə, torpağın isə gilli və qumlu olmasına görə binaların möhrə və çiy kərpiclə hörülməsi ilə əlaqədardır ki, o da uzun müddət davam edir. Çünki arxeoloji qazıntılar zamanı birinci mədəni təbəqədən aşkar edilmiş kiçik divar qalığı da samanla qarışıq torpaq möhrə ilə

hörülmüşdür. Tədqiqatlar göstərir ki, ilk mədəni təbəqə yaşayış binaları qalıqlarının az olması, qalada yaşayışın uzun müddət davam etməsi və yeni tikilən binaların əvvəlkilərin məhvinə səbəb olması ilə əlaqəlidir.

Hazırəhmədli qalasındakı 0,9 metr qalınlığında olan və VI-VIII əsrləri əhatə edən ikinci mədəni təbəqədən əsasən, iri təsərrüfat küpləri, təndir, ocaq yerləri, heyvan sümükləri və təsərrüfat quyuları da aşkar edilmişdir. Əvvvəlki təbəqədə qazılmış quyularla eyniyyət təşkil edən, kəsikdə konus və ya silindr şəklində olan bu quyulardan un, taxıl, su, eləcə də digər ərzaq məhsulları saxlamaq üçün istifadə olunmuşdur.

Kəşfiyyat xarakterli tədqiqatlar göstərmişdir ki, formalarından asılı olaraq iri təsərrüfat küplərindən ancaq torpağa basdırılaraq istifadə edilmişdir. Çünki belə küplərin oturacağı ağız hissəsinə nisbətən çox dar olurdu ki, onlardan da torpağa basdırmadan istifadə etmək mümkün olmurdu. Küplərin ağzı iri dairəvi qapaq və ya kirkirə daşı ilə örtülürdü.

Abidədəki ikinci mədəni təbəqədə yaşayış binaları yox dərəcəsindədir. Bunun bir səbəbi ola bilər ki, Hazırəhmədli qalası yaşayış yeri kimi tərk edildikdən sonra bir neçə əsr ərzində təbii hadisələr nəticəsində üst təbəqə dağıntıya məruz qalmışdır. Çünki çiy kərpic və möhrə ilə hörülmüş binalar uzun müddət qala bilməzdi [72, s. 111].

Qala yerindən əldə edilmiş xırda tapıntılardan tutmuş, iri təsərrüfat küplərinə qədər əksəriyyəti təşkil edən dulus qablarının, çoxlu çıxdaşların, ocaq yerlərinin və s. aşkara çıxarılması ərazidə dulus kürələrinin olması fikrini irəli sürməyə əsas verir. Belə kürələrdən biri Kələk kəndində aparılan arxeoloji qazıntı işləri zamanı aşkarlanmışdır. Yaxınlıqdakı digər yaşayış yerlərində də (məsələn, Şətəl qalasında) dulusçuluq kürələrinin olduğu arxeoloji qazıntıların nəticələrindən məlumdur. Tarixi Uti vilayəti ərazisində gil yatağının bol olması və ərazinin yanacaq materialı olan meşə ilə əhatə olunması dulusçuluğun əhalinin iqtisadiyyatında əsas sahələrdən birini tutmasına imkan yaratmışdır.

Hazırəhmədli qalasındakı qazıntı sahələrinin hər iki təbəqəsindən əldə edilən istehsal alətləri başlıca olaraq dəmir və daşdan hazırlanmışdır. Dəmir alətlər

içərisində oraq, ox ucluğu və s. xüsusilə diqqəti cəlb edir. Daş alətlər içərisində kirkirələrə daha çox rast gəlinir. Bir tərəfdən iri təsərrüfat küpləri içərisindəki qalıqlar, digər tərəfdən mədəni təbəqələrdən tapılan dəmir və daş alətlər qeyd olunan dövrdə Hazırəhmədli qalası sakinlərinin iqtisadiyyatında əkinçiliyin mühüm yer tutduğunu sübut edir. Əldə edilən istər bütöv, istərsə də qab qırıntıları üzərində aparılan araşdırmalardan sonra belə məlum olur ki, burada yaşayan əhalinin məişətində dulusçuluq əsas yer tutmuşdur. Eyni tip materiallar Qarabağın digər abidələrindən də əldə edilmişdir [40, s. 110].

Şadılı qalası Goranboy rayonunun Şadılı kəndinin yaxınlığında, Kürəkçayın sahilindəki təpəliyin üstündə yerləşir. Qala yerləşən təpəlik şimaldan Şadılı kəndinin əkin yerləri, cənubdan Qaradağlı kəndi, şərqdən həmin kəndin örüş yerləri, qərbdən Kürəkçay ilə sərhədlənir. Bəzi əsrlərdə bu qala II Kürəkçay adı ilə daxil olmuşdur. Abidə ətraf yerlərdən təxminən 8-10 metr hündürlükdədir. Ona Kürəkçay tərəfdən qalxmaq olduqca çətindir. Qalanın eni 120-130 metr, uzunluğu 200 metrdir. İkiqat qala divarları ilə əhatə olunub. Birinci və ikinci qala divarları arasındakı məsafə 5 metrdir. İki qala divarı arasında cərgə ilə düzülmüş qəbirlər var. Qəbirlərdən birinin uzunluğu 2,1 metr, eni 0,8 metr, hündürlüyü 0,5 metrdir. Skeletlərin istiqaməti müxtəlifdir, bəziləri şərqdən qərbə doğrudur. Onları heç bir əşya müşayiət etmir. Qala divarlarının hündürlüyü içəri tərəfdən 0,5 metr, çöl tərəfdən 1,5 metrdir. İkinci qala divarı birincinin möhkəmləndirilməsi naminə tikilib. İç və çöl qala divarlarının tikintisində əsasən çay daşlarından istifadə edilmişdir. Qalanın tən ortasında qapı yeri vardır ki, oda dağın altındakı otaqlara və çaya gedən tunelə açılır. Tunelin uzunluğu 150 metrdir. Onun 90 metri çaya qədər, 60 metri isə çayın altında və digər sahildə yerləşir. Tunelin hündürlüyü 3 metr, eni 3,5 metrdir. Təpənin ortasında, dağın altında tunel 3 qola ayrılır. Yan qollar çaya qədər uzanır. Orta yol isəçayın altından keçərək obiri sahilə çıxır. Tunelin içərisi yağış suları, torpaq axını, külək və təbii fəlakətlərlə bağlı dolmuşdur. Qapıdan tunelin söküldüyü yerə qədər olan məsafə 20 metrdir. Mərkəzdən ayrılan sağ yolun üst hissəsində ümumi sahəsi 25-30 kv metr olan otaq var. Sol yolun aşağı divarında işıqlandırıcı qoymaq üçün 6 ədəd yumruq ölçüsündə yerlər düzəldilib. Bölünən

hissədən başlayaraq çaya qədər olan hissədə mərkəzi tunelin uzunluğu 60 metrdir. Onun təxminən 40 metrindən sonra yolun qarşısı taxta hasar və divarla kəsilib. Qazıntılar zamanı bu hissədən 3-5 litr su tutumu olan 3 ədəd bardaq və bir ədəd bərni formalı qab tapılmışdır. Divarın arxasında 13-14 kv metr ölçüdə ağzı bağlı bir otaq var. Oradan sağ tərəfə qapı yeri görünür. Tunelin divarları nazik təbəqə ilə suvanıb. Tunelin çayın altından keçən hissəsinin hər tərəf kənarından üç ədəd qapı yeri var. Tunel həmin hissədən çayın altına daxil olur. Çaydan tunelə dola biləcək suyun qarşısını kəsmək məqsədilə təhlükə hiss olunan yerə qalın kül qatı verilib. Kül qatı verilən hissənin uzunluğu təxminən 14 metr, hündürlüyü 6 metrdir. Kül təbəqəsinin olması ilk növbədə suyun qarşısının alınmasına xidmət edə bilər. Digər tərəfdən küldən dezinfeksiya məqsədi ilə istifadə olunduğuda güman edilir. Çünki kül rütubəti özünəçəkməklə bərabər bit, birəvəs. həşaratları məhv edir. Tunelin qalaya çıxan qapısı günçıxana doğrudur. Günəş şüaları elə düşür ki, gün ərzində bütün tuneli işıqlandırır. O isə öz növbəsində həm tuneldə hərəkəti asanlaşdırır, həm də xəstəliklərin qarşısını alır. II Kürəkçay qalasının şərq hissəsində dulus qablarının bişirilməsi üçün kürə yeri də aşkar edilmişdir. Qalada ölçmə və müşahidələr müəllifin özü tərəfindən aparılmışdır. I mədəni təbəqə III-VIII əsrləri əhatə edir və bu təbəqədən xeyli miqdarda təsərrüfat küplərindən hissələr, qazan tipli qabdan qulplar, kasa tipli qabın oturacağından hissələr və s. tapılmışdır. Bu hissədə gil qab hazırlamaq üçün tökmə torpağın olduğu aşkar edilmişdir [72, s. 74].

II mədəni təbəqə IX-XIII əsrləri əhatə etməklə tədqiq olunan dövrə uyğun gəlmədiyindən onun təsvirinin verilməsini lazım bilmirik.

Uti bölgəsinin şəhərtipli yaşayış yerlərinə Füzuli rayonunda da rast gəlinir. (Şəkil 2.1.16) Füzuli rayonu ərazisində Yedditəpədə aparılan arxeolji qazıntılar diqqəti cəlb edir. Yedditəpə oronimi yeddi say bildirən sözdən və təpə oronimik terminindən əmələ gəlib [99, s. 383]. Bu arxeoloji abidə təpəciyin sayına görə Yedditəpə adını alıb. Q.İsmayılzadə abidədə arxeoloji tədqiqatlar apararkən onun üst mədəni qatında ilk orta əsrlərdə gur yaşayış məskəni olduğu aşkarlanmışdır. Qafqaz Albaniyasında arxeoloji qazıntılar zamanı ikibaşlı qartal fiqurları da tapılmışdır. Qartal surətinin yaradılması Albaniya incəsənətinə yad deyildi. Lakin

Uti vilayətinin Yedditəpə yaşayış məskənində tapılan qartalın ikibaşlı təsvir edilməsi bu fiqurun Bizans mədəniyyətinin təsiri altında hazırlandığına işarə edən bir əlamət ola bilər. Əslində bu tapıntı erkən orta əsrlərdə Yedditəpədə xarici mədəni əlaqələrin inkişaf etdiyini göstərir və bu abidənin albanlara məxsus olmasını bir daha təsdiq edir [49, s. 51]. Həmçinin, daş qutu tipli qəbirlər Albaniya üçün xarakterik hesab olunur [135, s. 238]. Arxeloji qazıntılar zamanı aşkar edilmiş Yedditəpədəki iki qəbrin xristian mədəniyyəti ilə bağlı olduğu güman edilir [97, s. 30]. Eyni qəbiristanlıqda bütpərəstlərin, xristianların dəfn edilməsi hallarına Albaniyanın Mingəçevir, Qəbələ, Govurqala (Ağdam rayonu) və başqa abidələrində də təsadüf olunmuşdur.Bu isə onu göstərir ki, albanlar arasında etnik yadlaşma olmamışdı. Belə bir vəziyyət alban xristian və bütpərəst əhalisinin müəyyən yaşayış yerlərində birgə məskunlaşmasından da xəbər verir.

Yedditəpədə arxeoloji qazıntılar zamanı xeyli sayda maddi mədəniyyət nümunələri tapılmışdır. Qazıntılar zamanı qəbirlərin birindən şüşə cam tapılmışdır. Bir neçə əsr ərzində torpaq altında qalsada öz şəffaflığını və gözəlliyini qoruyub saxlamışdı [54, s. 52; 99, s. 383].

Bu tapıntılarla ilk orta əsrlərə aid maddi mədəniyyətin nişanələrini üzə çıxarıtmışdı. Qazıntılar zamanı qəbirlərdən metal bəzəklərlə yanaşı təbii şəvə və şüşə muncuqlar, qiymətli dağ süxurundan və hətta yaqutdan olan bəzək nümunələri də tapılmışdır. Tapılan üzüklərin əksəriyyətinin qaşında müxtəlif təsvirli kiçik möhürlər var idi. Üzüklərdən birinin şüşə qaşında ikibaşlı qartal təsviri nəqş edilmişdi. Bütünlüklə şəffaf dağ süxurundan yonulmuş başqa bir üzüyün üst hissəsində isə əllərini yuxarı qaldırmış uzun əbalı kahin təsviri verilmişdir [94, s. 74]. Q.İmayılzadəyə görə şəxsi mülkiyyətçilik hüququnu təsdiqlətmək, nişanlamaq üçün istifadə olunmuş bu möhür vaxtilə varlı olmuş ölənin boynundan asılıbmış [54, s. 103].

Maraqlıdır ki, bu yerlərin döyüşkən ruhlu, həm də yüksək mədəniyyətə malik qədim sakinləri Sasani İranı və Bizans ilə sıx iqtisadi-mədəni əlaqələrdə olmuş və dövrün mədəni nailiyyətlərindən bacarıqla istifadə etmişdilər. Yeni tapıntılar əsasında müəyyənləşdirilmişdir ki, Azərbaycanın Arazboyu yerlərinin sakinləri

dəfələrlə hunların, xəzərlərin hücumlarına məruz qalmışdır. Skeletlərin ayrı-ayrı sümükləri və bəzi kəllələr üzərində qalmış qılınc, ox və nizə çapıqları bunu əyani sübut edir, onların döyüş zamanı öldüyünü göstərir [54, s. 52].

Uti vilayətindəki ilk orta əsr abidələrdən biri də Füzuli şəhəri yaxınlığında Kiçik Qafqazın cənub-şərq ətəklərində yerləşən Qaraköpəktəpə yaşayış yeridir (Şəkil 2.1.17). Adı qədim türk- oğuz dilində "hündür ulu təpə" mənasını verən bu abidə uzaqdan nəhəng bir ehramı xatırladırdı .Onun hündürlüyü 50 m, diametri şimaldan cənuba 220 metrə qədərdir [99, s. 263]. Abbasqulu ağa Bakıxanovun məşhur "Gülüstani-İrəm" əsərində bu təpə həm Qaraköpəktəpə, həm də Təxti-Tavus adları ilə qeyd olunmuşdur [98, s. 48; 109, s. 56].

B.A.Tuncay bu təpənin vaxtilə bir sıra mühüm ictimai-siyasi hadisələrin şahidi olduğunu da vurğulamışdı [98, s. 48]. Bu baxımdan A.Bakıxanovun tarixi abidə haqqında iki maraqlı qeydi diqqəti cəlb edir. Birinci qeyd XVI -əsrin hərbi-siyasi hadisələri ilə bağlı olub aşağıdakı sətirlərdən ibarətdir: "İran vəziri Mirzə Səlman qızılbaş əmirləri və əsgərləri Qarabağın Qaraköpəktəpə (Təxti-Tavus) adlı yerindən surətlə hərəkət edərək, Qoyun Ulamidən keçib Şamaxı qalasını mühasirəyə almışdılar [18, s. 48]. A.Bakıxanovun ikinci qeydində isə XIX əsrin I yarısında baş vermiş İran-Rus müharibələrinin saysız-hesabsız hadisələrindən bəhs olunmuşdur. Müəllif qeyd edir: " .......Naibüssəltənə (Abbas Mirzə) Qarabağı almaq qəsdilə, damğanlı İsmayıl bəyi və Şahsevən Əliqulu xanı 10 min nəfərlik qoşunla Xudəfərin körpüsündən göndərdi. Məhəmmədhəsən ağa rus qoşunu ilə onların qarşısına çıxdı, Cəbrayıl bağlarında döyüşə başladı və Şuşaya qayıtdı. Şah özü Qarabağın Təxti-Tavus adlı yerinə, Naibüssəltənə də Ağoğlan və Çınıxlı yolundan Əsgəranın aşağısına gəldi [16, s. 109]. Hər iki qeyd xarabalıqları hal-hazırda da Füzuli şəhərinin girəcəyində qalmaqda davam edən qədim yaşayış yerinə aiddir [57, s. 47]. Tarixi təpə Qarabağlı tarixçi Mirzə Adıgözəl bəyin də nəzər diqqətindən yayınmamışdı. Onun "Qarabağnamə" əsərində Qaraköpəktəpənin adı dəfələrlə çəkilmiş, onunla bağlı dəyərli məlumatlar verilmişdi [57, s. 105].

Beləliklə, istər Abbasqulu ağa Bakıxanovun, istərsə də Mirzə Adıgözəlbəyin verdiyi məlumatlar eyni bir tarixi yerlə həm Təxti-Tavus, həm də Qaraköpəktəpə adı ilə məlum olan maraqlı bir abidə ilə bağlıdır. Buradan belə bir nəticəyə gəlmək olar ki, Qaraköpəktəpə yaşayış yeri uzun müddət orta əsrlərin mühüm yaşayış məntəqələrindən, şöhrətli iqamətgahlarından biri olmuşdur [52, s. 47].

Yaşayış yerində ilk arxeoloji qazıntı işləri XIX əsrin sonlarından ehtibarən aparılmağa başlanmışdır. XIX əsrin sonlarında Şuşa şəhər məktəbinin alman dili müəllimi Emil Resler onun sorağı ilə buraya gəlmiş, sirlərini öyrənməyə cəhd edib. Daha sonra Moskva Arxeoloji Cəmiyyətinin tanınmış üzvü A.A.İvanovski Qaraköpəktəpə ilə maraqlanmışdır. Onun üst hissəsində müsəlman qəbirləri aşkar edilmişdir [97, s. 151-152]. A.A.İvanovski də E.Resler kimi səhv olaraq Qaraköpəktəpəni qəbir abidəsi – kurqan bilmişdi. O vaxtdan uzun müddət elmi ədəbiyyatda abidə haqqında yanlış fikir hökm surmuş və o, kurqan hesab olunmuşdu. 1964-cü ildən arxeoloq Qüdrət İsmayılzadə tərəfindən Qaraköpəktəpədə başlanan və XX əsrin 80-ci illərinin sonlarınadək davam etdirilən qazıntı işləri və axtarışlar bu təpə haqqında mövcud fikirləri və təsəvvürləri əsaslı şəkildə dəyişdirmişdi. Otuz ilə yaxın bir müddətdə aparılan geniş miqyaslı qazıntılarla Qaraköpəktəpədə bir neçə minilliyi əhatə edən qalın mədəni təbəqə, müxtəlif dövrlərin tikintiləri və saysız hesabsız maddi mədəniyyət nümunələri üzə çıxarılmışdır [54, s. 31; 119, s. 31].

Abidədə aparılan arxeoloji qazıntılar nəticəsində məlum olmuşdur ki, ilk orta əsrlərdə Qaraköpəktəpə yenidən böyük yaşayış yeri kimi tanınmış və sasanilər tərəfindən mühüm strateji məntəqəyə çevrilmişdi. Sasanilər dövründə burada möhtəşəm tikililər ucaldılmış, çay daşları ilə döşənmiş geniş yol çəkilmişdir. Güman etmək olar ki, bu qədim yaşayış yeri Təxti-Tavus adını da məhz Sasanilər dövründən daşımağa başlamışdır [52, s. 47-48]. Çox ehtimal ki, qədim yaşayış yeri öz mədəni-tarixi inkişafının yeni mərhələsinə orta əsrlərdə də həmin adla daxil olmuşdur. Orta əsrlər öz başlanığıcında Azərbaycanın, iqtisadi, ictimai, siyasi və mədəni həyatı üçün ziddiyyətli bir dövr olsa da çox keçmədən

daxili və xarici amillər əsasında yeni yüksəliş və çiçəklənmə dövrünə qədəm qoymuşdur.

Müəyyən durğunluq və tənəzzül dövründən sonra Azərbaycanın Ərəb Xilafəti kimi iqtisadi və siyasi cəhətdən güclü və eyni zamanda vahid bir dövlətin tərkibinə daxil olması ümumilikdə mütərəqqi xüsusiyyət daşımış, o zamankı beynəlxalq aləmə qovuşdurmaqla təcridliyinə son qoymuşdur [10, s. 8; 11, s. 14]. Bununla ayrı-ayrı qapalı bölgələrin nəinki siyasi, həm də iqtisadi və mədəni cəhətcə yaxşılaşması üçün əlverişli şərait yaranmışdır. Yeni sənət sahələrinin təşəkkülü və inkişafı ticarət əlaqələrinin artması qədim yaşayış yerlərini o cümlədən köhnə şəhərlərin dirçəlişi və genişlənməsi yeni şəhərlərin salınması Azərbaycanda orta əsrlərin səciyyəvi xüsusiyyətini təşkil etməklə iqtisadi-mədəni inkişaf və tərəqqi üçün əsas olmuşdur. Mövcud şəraitdə Azərbaycanın bir çox orta əsr şəhərləri əsl mənada mədəni mərkəzlərə, İslamın qəbul edilməsi ilə yaranmaqda olan "İslam mədəniyyəti"-nin mərkəzlərinə və yayıcılarına çevrilmişdir. Bu cəhətdən Azərbaycanın Araz çayından aşağı və yuxarı vilayətlərindəki Təbriz, Səlmas, Sərab, Bərzənd, Mərənd, Ərdəbil, Naxçıvan, Gəncə, Şətəl, Beyləqan, Bərdə, Bakı, Şirvan, Şamaxı, Şabran, Qəbələ, Dərbənd və onlarca digər şəhərləri xüsusilə seçilmiş, artıq bütün xilafətdə həm iqtisadi-siyasi, həm də mədəni mərkəzlər kimi tanınmışdır [22, s. 202]. Onu da qeyd etməyə dəyər ki, Azərbaycanda, eləcə də xilafətin digər ölkələrində təşəkkül tapan və az vaxt içərisində bütün sahələri əhatə edən islam və ya müsəlman mədəniyyəti təkcə ərəblərə məxsus mədəni dəyərlərin məcmusu yox, ərəb mədəni ənənələri ilə xilafətə daxil olan xalqlara məxsus mədəni ənənələrin üzvü birləşməsi-sintezi olmuşdur. Şübhəsiz bütün bu tarixi prosesdə əsrlər boyu Azərbaycanın iqtisadi, siyasi və mədəni mərkəzlərindən biri kimi tanınan Qaraköpəktəpə yaşayış yerindən də yan keçməmişdir. Arxeoloji qazıntılar zamanı Qaraköpəktəpə abidəsində ilk orta əsrlərə aid 2 m-ə yaxın qalınlığında mədəni təbəqə müəyyən edilmişdir(Şəkil 2.1.18.). Məlum olmuşdur ki IX-X əsrlərdə Qaraköpəktəpə sıx əhlisi olan möhkəm bir feodal qəsrinə çevrilmiş, Azərbaycanın ayrı-ayrı bölgələri, eləcə də Şərqin bir çox yaxın və ya uzaq sənətkarlıq, ticarət və mədəni mərkəzləri

ilə sıx-sıx iqtisadi mədəni əlaqə saxlamışdır. Onun ətrafına hündür qala divarı çəkilmiş, içərisinə gil tünglər vasitəsilə uzaq bulaqlardan su gətirilmişdir. Qazıntılarla burada müsəlman memarlığı üçün səciyyəvi sayılan müdafiə divarlarının və su kəmərlərinin müxtəlif tikinti, o cümlədən mülki və ictima binaların qalıqlarının, bütöv sənətkarlıq məhəlləsinin və geniş təndirxananın üzə çıxarılması buna əyani sübutdur [52, s. 48].

Buradan tapılan bir çox madi-mədəniyyət nümunələri bu qədim yaşayış yerini hər şeydən əvvəl ilk orta əsrlərə məxsus mühüm sənətkarlıq mərkəzəzlərindən biri kimi də səciyyələndirir. Tapıntıların böyük bir qismi bədii dulus və şüşə məmulatından, eləcə də zərgərlik nümunələrindən ibarət olmaqla müsəlman mədəniyyətinə xas bir sıra xüsusiyyətləri parlaq şəkildə əks etdirir. Diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, tapıntıların müəyyən hissəsi bədii sənət sahələrilə bağlı əmək alətlərindən ibarət olmaqla əldə edilən qədim sənətkarlıq nümunələrinin bilavasitə yerli istehsal olmasını göstərir. Qaraköpəktəpədə aşkar edilən müsəlman mədəniyyəti nümunələrinin əsas hissəsi yüksək bədii dəyərli şirsiz və şirli qablarla təmsil olunmuşdur. Dulus sənətkarlığı müsəlman mədəniyyətinin təşəkkülü ilə tamamilə yeni görkəm almış, tətbiqi incəsənətin ən bariz və ən geniş yayılmış sahəsinə çevrilmişdir. Rəngarəng həndəsi və nəbati naxışlarla, müəyyən hallarda isə ədəbi klassiklərin əsərlərindən götürülmüş sujetlərlə bəzədilən şirli qablar istehsalı Azərbaycanın bir çox orta əsr mərkəzlərində olduğu kimi Qaraköpəktəpə yaşayış yerində də bədii sənətkarlığın əsas və mühüm sahəsini təşkil etmiş və bu sahədə nailiyyətlər qazanılmışdır [137, s. 228-229; 132, s. 11-20]. Eyni yüksək nailiyyətlər zərgərlik, sümükoyma və bədii şüşə sənətkarlığı sahələrində də əldə edilmişdir. Mis və eyni zamanda şüşədən hazırlanmış bilərziklər, nəfis ətir qabları, müxtəlif muncuqlar və digər bəzək nümunələri eləcə də inci naxışlı sümük düymələr və tapıntılar islami əsaslı bədii sənətkarlıq sahələrinin yüksək inkişaf səviyyəsi haqqında aydın təsəvvür yaradırlar. Yol ayrıcında yerləşən Qaraköpəktəpənin əməli rolu təkcə bədii sənətkarlığın inkişafı ilə bağlı olmamışdır. Onun o zamankı beynəlxalq əlaqələrdə böyük əməli əhəmiyyət kəsb edən və bilavasitə Xudəfərin körpüsündən keçən

mühüm karvan yolu üstündə yerləşməsini nəzərə alsaq belə nəticəyə gələ bilərik ki, bu qəsr eyni zamanda həmin yolun təhlükəsizliyini təmin edən mühüm keşikçi məntəqəsi rolunu da daşımışdır. Məlumdur ki, Xüdafərin körpüsü orta əsrlərdə Azərbaycanın cənub və şimal vilayətlərini bir-biri ilə birləşdirməklə yanaşı şərqlə qərb arasındakı əlaqələrdə də mühüm vasitə olmuşdur. Xudafərin körpüsündən Qaraköpəktəpəyə və Qaraköpəktəpədən şimala Avropa ölkələri istiqamətində uzanan qədim yol üstündə orta əsrlərə məxsus çoxlu karvansarayların və bu qəbildən olan digər tikililərin qalması da sözsüz, bununla bağlıdır [137, s. 38-50; 96, s. 21-23].

IX-X əsrlərdə Böyük İpək yolunun dirçəlişi və onun beynəlxalq əhəmiyyətinin yenidən artması çox güman ki, Xüdafərin körpüsündən, o cümlədən Təxti-Tavusdan keçən karvan yoluna da  müsbət təsir göstərmişdir.

Yeni şəraitdə bu yol Böyük ipək yolunun artıq mühüm bir qoluna çevrilmiş və bununla öz beynəlxalq nüfuzunu daha da artırmışdır. Təxti-Tavusun özü isə Azərbaycana məxsus ticarət və mədəni mərkəzlərdən biri olmaqla həm də onun nəzarəti altındakı beynəlxalq yolun mühüm bir hissəsinin təhlükəsizliyini təmin edən mühüm strateji məntəqələrdən biri kimi fəaliyyət göstərməyə başlamışdır.

Müəyyənləşdirilmişdir ki, Qaraköpəktəpədəki yaşayış yerinin sonrakı iqtisadi və mədəni yüksəlişi, çiçəklənmə dövrü Eldənizlərlə bağlı olmuşdu. Qazıntılar zamanı Qaraköpəktəpədə bu dövrə aid 3 m-dən artıq qalınlıqda mədəni təbəqə və olduqca rəngarəng və nadir tapıntılar aşkara çıxarılmışdır.

Qaraköpəktəpədən əldə edilmiş maddi-mədəniyyət qalıqları gil qablar, sümükdən yonulmuş düymələr, məişət və təsərrüfata aid avadanlıq və s. diqqəti cəlb edir. Bu əşyaların hər biri yerli sənətkarların əməyinin məhsuludur. Mümkündür ki, Qaraköpəktəpə bu dövrdə sıx əhalisi olan böyük bir feodal qəsrinə çevrilmiş, Azərbaycanın və Yaxın Şərqin bir çox sənətkarlıq, ticarət və mədəni mərkəzlərilə əlaqə saxlamışdı. Onun yaxınlığındakı Beyləqan və Bərdə şəhərlərilə əlaqələri daha sıx olmuşdu. Qeyd etdiyimiz dövrdə bu qəsrin ətrfında hündür qala divarları mövcud olmuşdur. Burada çoxlu yaşayış binaları, onların ətrafında isə iyirmidən artıq təndir yeri də aşkar edilmişdir. Qaraköpəktəpənin bu dəfəki əmin-

amanlığı, yeni çiçəklənmə dövrü də uzun çəkməmişdi. 1221-ci ildə Beyləqan şəhəri monqollar tərəfindən amansızcasına viran edildikdən sonra onun ətrafındakı yaşayış yerləri, o cümlədən Qaraköpəktəpədəki yaşayış yeri də dağıdılmışdı Monqol işğalının nəticələri Arranda, Uti vilayətində şəhər həyatına daha ağır zərbə vurmuş, şəhərlərin durumuna xüsusilə ağır təsir göstərmişdir. Buradakı şəhərlərin bir qismi xarabazara çevrildi. Digərləri isə öz əvvəlki təmtəraqlarını itirdilər və bir daha XII əsrdəki inkişaf səviyyəsinə yüksələ bilmədilər. Arxeoloji tədqiqatların nəticələri monqol işğalı ilə bağlı şəhər və kəndlərin əksəriyyətinin xarabazara çevrildiyini təsdiqləyir. Misal üçün, Şimal-Şərqi Azərbaycanın orta əsr abidələrinin arxeoloji tədqiqi XIII əsrin ortalarında burada 36 yaşayış məskənindən yalnız onunda həyatın davam etdiyini göstərir. Digərlərini əhali tərk etmişdi. Düzən və dağətəyi zonalar daha çox tar-mar olunmuşdu [27, s. 15].

Köçəri monqol əyanlarının özbaşınalıqları və zorakılığı, ənənəvi əkinçilik bölgələrini otlaq sahələrinə çevirmək cəhdləri xüsusilə dözülməz idi. Bundan sonra bu yaşayış yeri müəyyən müddət tənəzzül dövrü keçirmiş və yalnız Hülakülər dövründə yenidən dirçələ bilmişdi. Qaraköpəktəpənin Hülakülərdən sonrakı tarixi də çox maraqlı olmuşdu. Ölkələri fəth edən Teymurləng də, Qaraqoyunlu, Ağqoyunlu hökmdarları da bu yerə biganə qalmamışdılar. Dəfələrlə onlar Qaraköpəktəpənin zirvəsindən öz hökmlərini aləmə car etmişdilər.

**Govurqala yaşayış yeri**. Govurqala şəhər yeri haqqında, akademik Z.M.Bünyadov, İ.Q.Əliyev, arxeoloqlardan R.M.Vahidov, İ.M.Cəfərzadə, S.M.Qazıyev, R.Göyüşov və s. məlumat vermişlər. Arxeoloq R.M.Vahidovun 1971 ci ildə apardığı qazıntılar şəhərin xarakterini, onun plan qurluşunu, dövrünü aydınlaşdırmağa əsas vermişdi [101, s. 167].

Məlum oldu ki, Uti vilayətinin Govurqala şəhər yeri iki böyük hisssədən ibarətdir(Şəkil2.1.20). Şəhərin Narınqalası ətraf ərazilərlə müqaisədə xeyli yüksəklikdə yerləşmişdir. Hansı ki, ətraf ərazidən 6-8 m yüksəklikdə üstü düz bir təpədə yerləşən narınqalanın ümumi sahəsi 3 ha yaxındır. Təpədə aparılan yoxlama işləri göstərdi ki, torpağın altı ictimai və dini binalarla zəngindir. R.M.Vahidovun rəhbərliyi altında aparılan arxeoloji qazıntı işləri zamanı

Govurqala abidəsinin yerləşdiyi təpənin qərb yarısında ağ əhəng daşından tikilmiş xristian məbədinin qalıqları tapılmışdır [89, s. 108]. Məbəd bir nefli olub, şərq hissəsi mehrabla qurtaran böyük ibadət otağından və yardımçı otaqdan ibarət olmuşdur(Şəkil 2.1.21). Məbədin 4 qapısı olmuş, onlardan biri binanın yardımçı otağına açılmışdır. Düzbucaqlı şəkildə olan ibadət otağının şərqdən qərbə doğru uzunluğu 11,95 m, şimaldan cənuba 5,25 m, sahəsi isə 62,4 kvadrat metrdir [101, s. 170].

Məbədin mehrab hissəsi yarımdairəvi aspida formasındadır. Məbədin döşəməsi də ustalıqla yonulmuş daşlardan ibarətdir. Bə'zi döşəmə daşlarının üzəri müxtəlif cizgilərlə naxışlanmışdır. Tədqiqatçı R.Vahidov bu təsvirlərin dini etiqad ilə əlaqəli olduğunu qeyd etmişdir. Govurqalada aşkar edilən daş məmulatı içərsində əsas yeri xaçlar tuturdu (Şəkil 2.1.22). Belə ki,məbədin kiçik otağının qərb divarının xarici üzünü təşkil edən daşlardan birinin üzərində qazma üsulu ilə həkk olunmuş xaç şəkli vardır. Üçbucaq şəkilli dördqanadlı olan bu xaçın diametri 60 sm olan medalyonun içərsində yerləşmişdi. Xaçın böyük ustalıqla düzəldilməsi və bütün detalların simmetriyası nəzərə alındığını qeyd etmək olar

Xaçların bəziləri daşdan yonulmuş, bəziləri isə daş lövhələr üzərində qazma yolu ilə düzəldilmişdi. Burdan tapılmış daşların bir çoxunu həndəsi və nəbati naxışlar bənzəyir [110, s. 174-175].

R.M.Vahidovun tədqiqatları nəticəsində məlum olmuşdur ki, şəhər antik dövrdə formalaşmış, erkən orta əsrlərdə mühüm şəhərlərdən biri  olmuşdur [100, s. 20].

Həmçinin R.M.Vahidov ilk dəfə Azərbaycanda alban xristian abidələrini öyrənmişdir [101, s. 167]. Daha sonralar Govurqala yaşayış yerində qazıntı işlərini R.Göyüşov davam etdirmişdir [41, s. 25].

Qazıntılarda arxeoloqlardan A.B.Nuriyev, N.M.Quliyev və memar K.M.Məmmədzadə və s. iştirak etmişdilər. Göyüşov Govurqalada iki sahədə qazıntı işlərini davam etdirmişdir. Govurqala şəhər yerinin ərazisi və relyefi bir – birindən fərqlənən iki hissəyə bölünür. Bir növ Narınqalanı xatırladan mərkəzi

hissəsi ətraf əraziyə nisbətən 7-8 m yüksəklikdə yerləşir. Şəhərin ikinci hissəsi isə həmin təpənin ətrafında girintili və çıxıntılı bir sahəni əhatə edir[147, s. 2].

Narınqala hissədə ümumi qalınlığı 5 m-ə çatan və III-XI əsrləri əhatə edən iki mədəni təbəqə olduğu aşkar edilmişdi. Burada mədəni təbəqənin qalınlığı 3 m, bəzi yerlərdə isə 3,2 m -ə qədər olmuşdur. Mədəni təbəqədə torpaq üstdən başlayaraq çox yumşaq, dərinliyə getdikcə isə bərkləşmişdi. Qazıntı sahəsində eni 25-30 sm, dərinliyi 4-5 m -ə çatan yarğanlar əmələ gəlmişdir. Qazıntı sahəsindən bir tikinti qalığı, 2 ədəd quyu və xeyli məişət avadanlıqları aşakr edilmişdir. Tikinti qalığı dairəvi formada olub, çay daşından gil məhlulu ilə hörülmuşdür.Divarın salamat qalmış hissəsinin hündürüyü 1,2 m olmuşdur. Govurqalada ikinci qazıntı sahə isə narınqaladan təxminən 500 m cənubda, yerli əhali arasında "Birlik Həyatı" deyilən yerdə olmuşdur. Burada təxminən 900 kv. m. yüksəklik olmuşdur. Yüksəkliyin cənub ətəyində 3 ədəd sütün altıqları olmuşdur. Yüksəkliyin şərq yamacında isə kənd əhalisi tərəfindən qazılıb çıxarılmış və daşları aparılmış möhtəşəm bir divarın yeri qalmışdır.

Məbəd və onun ətrafında toplanmış maddi mədəniyyət qalıqları nəticəsində müəyyən edilmişdir ki, şəhərdə dulusçuluq, metaişləmə və daşişləmə sənətkarlığı öz dövrünün yüksək inkişaf səviyyəsinə çatmışdır. Həmçinin qazıntılar zamanı ilk orta əsr abidələrində olduğu kimi Govurqalada da müstəvi və yarımmüstəvi formada kirəmitlərə də rast gəlinmişdir.

Şəhər əhalisini içməli su ilə təchiz etmək üçün vaxtilə buraya xüsusi gil tünglər vasitəsilə «Dərə arası» adlanan yerdə (bura şəhər xarabalığından təxminən 5-6 km şimaldadır) bulaq suyu çəkilmişdir. Şəhərin ətrafı möhtəşəm qala divarları ilə əhatə olunmuşdur [41, s. 25].

Govurqalada arxeoloji qazıntılar zamanı erkən orta əsrlərə aid tapılan şirsiz saxsı məmulatlar və şirli qab qırıqları, nəfis düzəldilmiş şüşə qabların fraqmentləri, bəzək əşyaları, pullar və s. qədim şəhər sakinlərinin Suriya, Bizans, İran və digər qonşu ölkələrlə əlaqəsindən xəbər verir. Qazıntılar zamanı erkən orta əsrlərə dövründə Albaniyada hökmdar nəslinə aid qəbiristanlığın olmasına əsaslanan professor R.B.Göyüşov Govurqalanı Alban hökmdarlarının yay

iqamətgahı kimi şöhrət qazanmış, Bərdə – Dəbil (Dvin) ticarət yolunun üzərində yerləşən Aluen şəhərinin qalıqları hesab edirdi [147, s. 26].

Uti vilayətinin ilk orta əsr şəhər və yaşayış məntəqələrinin adları və yerləri haqqında dəqiq araşdırmalar aparılmadığından bu sahədə müəyyən boşluqlar hiss edilir. Belə ki Govurqalanın tarixi adı barədə tədqiqatçılar müxtəlif fikirlər söyləmişdilər. "Erməni tədqiqatçıları" əsassız surətdə Govurqalanın Qafqaz Albaniyası ərazisində guya mövcud olmuş Tiqranakert şəhəri olduğunu qeyd etmişlər.

S.T.Yeremyan 1951 ci ildə nəşr etdirdiyi dərsliyin atlasında Uti vilayətinin ərazisində Ağdam rayonun Tərnəüt kəndi yaxınlığında Tiqranakert adlı yaşayış məntəqəsinin olduğunu qeyd etmişdir. O, eyni adlı digər bir şəhər yerinin Şəmkir çayının yuxarı axarında olduğunu bildirmişdi. Alışan, S.Calalyan, M. Barxudaryan Tiqranakerti Ağdam-Ağdərə şosse yolunun kənarında yerləşən Şahbulaq qalası yaxınlığındakı Tərnəküt kəndinin qərb tərəfində lokallaşdırırlar.

Tədqiqatçı R.M.Vahidov mənbə məlumatlarına və göstərilən coğrafi ərazidəki arxeoloji abidələrin müqayisəsinə əsasən Tiqranakertin Govurqala(Ağdam) ilə eyniləşdirilməsi fikrindən yan keçmişdi.

S.T.Yeremyan Tiqranakert adı ilə iki yaşayış məntəqəsinin olduğunu göstərərkən VII əsr tarixçisi Sebeosun və X əsr tarixçisi Asoxivin qeyri-müəyyən məlumatlarını əsas götürmüşdür. Hər iki tarixçi Sasani və Bizans imperyaları arasında gedən müharibələr zamanı 623-cü ildə baş verən hadisələrdən bəhs edərkən Tiqranakertin adını çəkirlər. R.M. Vahidov Şəmkir çayı hövzəsində Tiqranakert adlı yaşayış məntəqəsinin olduğunu qəbul etməsə də S.T.Yeremyanın Tərnəüt kəndinin yaxınlığında belə bir yerin olduğunu qəbul edir, R.M.Vahidov səhvən Tiqranakertin Govurqaladan 5-6 km məsafədə yerləşən Şahbulaq (Pənahxan) qalası ətrafındakı Tərnəküt kəndi ərazisində yerləşdiyini yazır.

S.Q.Bərxudaryan S.Calalyana və M.Barxudaryana əsaslanaraq kalxozçular tərəfindən təsadüfən aşkarlanmış daş sarkofaqa əsasən Govurqala abidələrinin Tiqranakertə aid olduğunu bildirsə də onun əsaslandırdığı heç bir mənbədə Tiqranakert adı çəkilmir.

İki çatılı qapağın bir üzündə 4 sətirdən ibarət erməni əlifbası ilə yazı həkk edilmiş daş sarkofaqın uzunluğu 1,77 m, eni 0,61 m , hündürlüyü 0,28 metrdir. Yuxarıda da qeyd etdiyimiz kimi daş qapaq Govurqala məbədinin şərq divarının yaxınlığında tapılsa da, qapağın çıxarılması ilə əlaqədar qazılmış çala yoxalanılarkən orada sarkofaqın olmadığı müəyyən edilmişdir. Buradan belə nəticəyə gəlmək olar ki, ya qapaq həmin əraziyə kənardan gətirilib, ya da abidə dağıntıya məruz qalaraq kənara atılmışdır. Ermənilərin üzərində erməni yazıları və ya "xaçı" olan daşları özləri ilə gəzdirərək ayrı-ayrı abidələrin yanında basdırmaları, yaxud divara hörərək şəklini çəkmək kimi saxtakarlıqları çoxdan məlumdur.

Sarkofaqın daş qapağı üzərindəki yazı epiqrafist S.Barxudaryan tərəfindən oxunaraq qəbrin X əsrin əvvəllərində alban çarlığını bərpa etmiş alban çarı Hamamın qardaşına aid olduğu qənaətinə gəlinmişdir[101, s.177].

Mənbələrdən məlumdur ki, alban çarı Haman öz qardaşını X əsrin ilk illərində hakimiyyətdə olduğu vaxt edam etdirmişdir. R.M.Vahidova görə çar ailəsinə mənsub adama məxsus olduğu üçün sarkofaq ehtiram əlaməti olaraq əvəllər mövcud olmuş məbədin ətrafında yerləşdirilmişdir[101, s.168].. Bizcə Haman qardaşını edam etdirdiyindən ona ehtiram göstərilməsi ağlabatan deyil.

Alban çarı ailəsinə aid olan qəbr daşının üzərindəki epitafiyanın erməni dilində və erməni əlifbası ilə yazılması belə izah oluna bilər ki, VII-VIII əsrlərdə Cənubi Qafqazda ağalıq uğrunda Bizans imperyası ilə Ərəb xilafəti arasında gedən mübarizədə Xilafət Bizansa qarşı yönələn bütün qüvvələri müdafiə edirdi.

Elə həmin vaxt erməni qriqaryan kilsəsinin katalikosu İlyanın Ərəb Xəlifəsi Əbdülməlikə yazdığı Alban kilsəsinin Bizans kilsəsinə tərəfdar çıxdığını və onların dini ayinlərini təbliğ etdiyini bildirdiyi fitnəkar məktub da mühüm rol oynamışdı. Həmin məktubdan qəzəblənən Əbdülməlik 704 cü ildə alban kilsəsinin Üçmüədzinə tabe edilməsi, kilsələrdə dini ayinlərin erməni dilində aparılması, katalikos Nerses Bakur və onun yaxın adamlarının edam edilməsinə göstəriş verir. Nəticədə Alban kilsəsi öz müstəqilliyini tədricən itiir, alban əlifbası ilə yazılmış və başqa dillərdən tərcümə edilmiş dini kitablar ya yandırılır, ya da üzü

köçürülərək "saxta erməni tarixi" yaradılırdı. Əsilləri isə məhv edilirdi. Ona görə də Azərbaycan Albaniyasının istər Uti, istərsə də digər vilayətlərindəki alban xristian epiqrafik abidələrində IX əsrdən başlayaraq erməni əlifbası və erməni dili tətbiq olunmağa başlayır ki və bu özünü sonrakı mərhələlərdə də aydın göstərir. Bu baxımdan tam əminliklə deyə bilərik ki, daş sarkofaqın qapağı da erməni dilində yazılmış alban abidəsidir. Erməni alimlərinin özlərinin də qəbrin Alban sülaləsinin nümayəndəsinə aid olduğunu  etiraf etdiklərini əsas götürsək onda erməni alimlərinin son illərdə Ağdamda apardıqları arxeoloji qazıntıların nəticələrinə əsasən söylədikləri fikirləri də sasssız hesab olunur. Belə ki, Tərnəüt kəndi yaxınlığında işğal dövründə apardıqları arxeoloji qazıntıların yeri heç bir tarixi mənbəyə əsaslanmadığından  Tiqranakert adlandırırlar. Bununla yanaşı həmin ərazidən tapdıqları daş lövhənin üzərindəki təsvirin Alban çarı III Mömün Vaçaqana aid olduğunu bildirirlər(Şəkil 2.1.23). Onlar onu Vaca Barpaş deyə adlandırırlar. Yeri gəlmişkən ermənilər Vaçaqana da Vaçe deyirlər. Baripaş isə Parfiya mənşəli sözdür və ermənilər onu mənimsəyib.

Nəzərə alsaq ki, III Mömün Vaçaqanın yay iqamətgahı  da Aluen şəhəridir, onda Şahbulaq qalası yaxınlığında Tərnəüt kəndinin ərazisində yerləşən abidə Aluen şəhərinin qalıqlarıdır. Bu şəhərdə 498 ci ildə kilsə məclisi çağrılmış, qanunlar qəbul edilmiş və alban dilində ilk yazılı sənəd tərtib edilmişdir. Butun bunların əsasında deyə bilərik ki, Govurqalanı  mənbələrdə adı çəkilən Akna şəhəri ilə eyniləşdirmək mümkündür.

Son illər erməni "tədqiqatçısı " H.Petrosyan, Ağdam şəhərindən 10 km şimalda, e.ə I əsrdə Tiqran tərəfindən salınmış Tiqranakert  şəhərinin tapılması ilə bağlı cəfəngiyyat dolu məlumatlar vermişdir. 1751 ci ildə Qarabağ xanı Pənahəli xan  Şahbulaqda  tikdirdiyi qalanın  xarabalıqlarını qədim Tiqranakert adlandıran, H.Petrosyan görünür ki antik dövr abidəsi ilə son orta əsr abidəsini ayıra bilməyəcək qədər savadsızdır.

Müzəffər Ali Baş Komandanımzın torpaqlarımızı işğalçılardan azad etməsi ilə  Erməni vandallarının torpaqlarımızda qeyri qanuni olaraq apardıqları arxeoloji

qazıntılar nəticəsində Dünya və Qafqaz tarixində xüsussi yeri olan Albaniyanın tarixinin məhv olunmasının qarşısını aldı.

## 2.2. Kənd tipli yaşayış yerləri

Uti vilayətinin təbiəti münbit qara torpağı, əlverişli mövqeyi burada çoxlu şəhər və qalalardan başqa çoxsaylı yaşayış məntəqələri, kənd tipli məskənlərin olmasına şərait yaratmışdır.

Yazılı qaynaqlar Azərbaycanda orta əsrlərdə çoxlu zəngin kəndlərin olduğunu qeyd edirlər. X əsr ərəb coğrafiyaşünası əl-Müqəddəsi Azərbaycandan bəhs edərkən bildirir ki, “Bu (yerlər) başdan-başa kənd və əkin sahələridir” [131, s. 26]. Aparılan arxeoloji tədqiqatlar haqqında danışılan yaşayış məskənlərinin əsasının ilk orta əsrlərdə qoyulduğu fikrini söyləməyə əsas verir.

Orta əsr yaşayış yerlərinin böyük əksəriyyətini kənd tipli məskənlər təşkil edir. Onlar topoqrafik baxımdan çaykənarı, düzən, yamac və meşəiçi kənd tipləri ilə təmsil olunmuşdur. Çaykənarı kəndlərə mənsub yaşayış yerlərinin əksəriyyəti dağ çaylarının hündür sahilində, meşəiçi kəndlər isə meşə zolaqlarındakı talalarda, alçaq təpələr üzərində yerləşirlər. Yamac kəndlərinin əksəriyyəti yaxşı izolyasiya olunan, külək tutmayan dağın şərq və cənub ətəklərində salınmışlar [19, s. 139].

Ağdərədən Xankəndinə çəkilən yolun ətrafında ilk orta əsrlərə aid Sov və yaxud Popov dərəsi adlanan yaşayış yeri Ağdərə rayonunun Canyataq kəndindən 2 km qərbdə yerləşir. Hələ XX əsrin 80-ci illərində buradan yol çəkilərkən və yer şumlanarkən xeyli maddi-mədəniyyət qalıqları və qəbir abidələri aşkar edilmişdir. Bir hissəsi uçmuş qəbir açılarkən iri bir daşa təsadüf edilmişdir. Daş 1,5 metr uzunluğunda, 35-40 sm enindədir. Daşın üzərində stilistik insan təsvir edilmişdir. İnsanın başından yalnız göz və burun hissələri qazma üsulu ilə düzəldilmişdir. Əlləri isə dirsəkdən bükülərək üzünə doğru qatlanmış halda, qabarıq üsulda təsvir edilmişdir. Daş büt Şuşada Xan sarayında yerləşdirilmişdir. Bu daşdan Ağdam

rayonunun Boyəhmədli kəndindəki Məlikmollalı qəbirstanlığında və həmin kənddə Dəlləkli yalı deyilən yerdə də aşkar edilmişdir[146, s. 16; 16, s. 35].

Yerli əhalinin sadəcə "Qala" adlandırdığı Kaqankat şəhərindən cənubi-qərbə doğru təqribən 5-6 km–də Sarışin adlandırılan meşə ərazisində kənd tipli yaşayış məskənin qalıqları və böyük alban xristian qəbirstanlığı vardır. Kaqankat qalasından 3-4 km yuxarıda, Murovdağın şərq ətəklərində sıx, qalın meşəlik olan ərazini yerli əhali "Qozlu kənd yeri" adlandırır. Həmin ərazidə çoxlu qoz və fıstıq ağacları olan qalın meşəlik yerləşir. Buradan da 8-10 km yuxarıda Murovdağının ətəklərinə doğru qalın meşəliklərin içərsində bina və hasar qalıqları vardır. Bu ərazidən Torağayçay öz başlanğıcını götürür, hansı ki, bu çayın Tərtərlə qovuşduğu yerdə Çaraberd qalası yerləşir [15, s. 34].

Qaratəpə abidəsi Bərdə şəhərindən cənub-şərqdə yerləşir. O qədər də hündür olmayan yastı təpədən ibarətdir. Ətrafı düz və hamar olduğundan bu təpəni və onun üstündə qoyulan müasir topoqrafik nişanı çox uzaqdan görmək mümkündür. Qaratəpə kurqan deyil, qədim yaşayış yerinin qalığıdır, bütünlüklə mədəni təbəqədən ibarətdir. Bu da insanların abidənin yerləşdiyi ərazidə insanların uzun müddət yaşadığını göstərir. Əsrlər keçdikcə köhnə tikintilər üzərində yeni tikintilər ucaldılmış, onları isə başqa tikintilər əvəz etmişdi. Nəticədə düz yerdə tikinti qalıqlarından, kül və kömür laylarından, məişət və təssərrüfat tullantılarından süni təpə əmələ gəlmişdir. Qaratəpədə ilk çöl axtarışları 1954-cü ildə aparılmışdır. Bu axtarışlar nəticəsində onun üstündən eramızdan əvvəl I minilliyə aid gil qab qırıqları yığılmışdı. Bunların böyük bir qismi həmin minilliyin VII-VI əsrlərinə məxsus qara cilalı, nazik divarlı qab qırıqlarından ibarət olmuşdu. Elə həmin ilin payız mövsümündə təpədə arxeoloji kəşfiyyat işləri aparılarkən onun üst mədəni təbəqəsindən - XI-XIII əsrlərə aid tikinti qalıqları, təndir yeri aşkar etmiş, çoxlu gil məmulatına rast gəlinmişdir. Beləliklə, ilk kəşfiyyat qazıntısı ilə müəyyən edilmişdir ki, Qaratəpədə yaşayış eramızdan əvvəl I minilliyin birinci yarısında salınmış və ardıcıl olaraq davam etmişdi. Qaratəpədə ilk orta əsrlər dövrünə aid mədəni təbəqənin zəifliyi o dövrdə olan işğallarla əlaqələndirilmişdir.

Qaratəpədə qədim yaşayış yerinin ikinci dirçəlişi yalnız eramızın XI əsrində başlamış və burada XIII əsrə kimi yenidən gur həyat olmuşdu. Ümumiyyətlə, bu dövrdə Mil çiçəklənmə dövrü keçirmiş, düzdə bir sıra yaşayış yerləri salınmışdır. Arazdan gələn Govurarxın saysız-hesabsız qolları bunlara həyat vermiş, Mili Şərq nağıllarında təsvir edilən böyük bir laləzara çevirmişdi. Görünür ki, Qaratəpə bu dövrdə yaxınlıqdakı Beyləqan şəhəri ilə sıx bağlı olan əhəmiyyətli bir yaşayış yeri və ya yerli feodal əyanlarından birinə məxsus qəsr olmuşdu. Bəlkə də burada – Beyləqana gələn yolun üstündə ilk sığınacaq yeri-karvansara olmuşdu [113, s. 419].

Qaratəpə abidəsi bu haqda müəyyən bir məlumat verməmişdir. Lakin məlum olmuşdu ki, təpədəki orta əsrlərə aid yaşayış yeri də Mil düzündəki başqa kənd və şəhərlər kimi monqolların bu yerlərə hüçumu zamanı dağıdılmışdır. Çox sonralar Milin maldar tayfaları vaxtaşırı bu yerdən qəbirstanlıq kimi istifadə etmiş, yol üstündə qəflətən ölən öz yaxın adamlarını bu yerdə dəfn etməyə başlamışdılar. 1955-ci ildə arxeoloq Ömər İsmizadənin rəhbərliyi altında Qaratəpədə geniş qazıntı işləri başlamışdı. Bu qazıntı işləri maraqlı tapıntıların və elmi dəlillərin əldə edilməsilə nəticələnmişdi. Məlum olmuşdu ki, burada yaşayış eramızdan əvvəl I minillikdə başlanmışdır. Bu dövr Azərbaycanın düzən bölgələrində yarımköçəri maldar təsərrüfatının inkişafı ilə bağlıdır. Tapıntılar onu da göstərmişdir ki, Mil düzündə yarımköçəri maldarlıq təsərrüfatı ilə yanaşı oturaq əkinçilik də mövcud olmuşdur. Bu təsərrüfat sahələri ilk orta əsrlərdə zəif də olsa davam etdirilmişdir [121, s. 72].

Qalınlığı 80 sm-ə çatan, XI-XIII əsrin əvvəllərinə aid edilən üst mədəni təbəqədə çiy kərpicdən inşa olunmuş tikili qalıqları, ocaqlar, təndirlər, müxtəlif təsərrüfat quyuları aşkarlanıb tədqiq edilmişdir. Burada habelə üzərinə gil suvaq çəkilmiş təxminən 3x4 sm ölçüdə döşəmə qalıqları da qeydə alınmışdır. Bu qalıqların çubuq hörmə evin qalıqları olduğu ehtimal olunur [121, s. 72]. Qazıntılar zamanı tapılmış maraqlı inşaat materiallarından qapının dabandaşını qeyd etmək olar. Yaşayış yerindən tapılmış arxeoloji materiallar o qədər də çox olmayıb əsasən şirli və şirsiz saxsı qablarla təmsil olunmuşdur [113, s. 418].

Kənd tipli orta əsr əsr yaşayış yeri olan Əmirəhməd təpəsi Mil düzündə Govurarxın sağ tərəfində, ondan 1,2 km məsafədə diametri 130 m, hündürlüyü isə 2,5 m olan təpənin üstündə yerləşir. Abidənin mövcud olduğu sahədən və ətraflarından xeyli miqdarda şirli və şirsiz saxsı qab qırıqları tapılmışdır. Həmin saxsı nümunələri IX-XIII əsrlərə aiddir [31, s. 83]

Kənd tipli yaşayış yeri olan Qurd təpəsi isə Ağcabədi rayonunda, Govurarxın sol sahilində Qaradolaq kəndində yerləşir. Dairəvi formada olan təpənin diametri 100 m, hündürlüyü 1,5 m-dir. Təpənin şimal tərəfindən Govurarx keçir, qalan üç tərəfdən ev və həyətyanı sahələrlə əhatə olunub. Yaşayış yerinin şimal-qərb tərəfində 16 kv.m sahədə arxeoloji qazıntı aparılmış, orta əsrlərə aid maddi mədəniyyət qalıqları, əsasən, şirsiz və şirli saxsı qab qırıqları tapılmışdır [31, s. 85]. Hər iki yaşayış yeri vaxtilə Govurarxın yanı ilə gedən karvan yolu üstündə yerləşmişdir və Mil düzündəki Qalatəpə ilə Örənqala arasında əlaqə rolunu oynamışlar.

Nağaratəpə kənd tipli yaşayış yerinin qalıqları Füzuli rayonun Babı kəndinin mərkəzindən keçən yolun sol tərəfində 2,2 km magistral yoldan uzaqdadır (Şəkil 2.2.1). Kənd tipli çoxtəbəqəli yaşayış məntəqəsidir. Antik və ilk orta əsr maddi-mədəniyyət qalıqları ilə zəngindir. Xarici görünüş baxımından nağaraya bənzəyir. Yaşayış yerində daha çox daş və gil qabların qalıqlarına rast gəlinir. Ərazidə arxeoloji qazınt işləri aparılmadığından dəqiq hansı dövrə qədər bu ərazidə həyatın olmasını demək çətindir. Lakin yerüstü materiallar ərazidə həyatın monqollara qədərki dövrədək davam etdiyini söyləməyə əsas verir. Bu əraziyə yaxın yerdən 200-ə qədər monqol döyüş silah başlıqları tapılmışdır. İlkin ehtimala görə ərazi müəyyən bir müddətdən sonra qəbristanlıq kimi istifadə edilməyə başlamışdır. Ərazidə küp qalıqlarının tapılması ilə yanaşı çoxlu sayda insan sümüklərinin qalıqlarına rast gəlinir. Bu da ərazidə küp qəbirlərin olması ehtimalını artırır. Ərazidən tapılan gil qab nümunələrinin üzərində nəfis şəkildə işlənmiş müxtəlif növ bəzəklərə rast gəlinib(Şəkil 2.2.2). Maraqlı cəhətlərdən biri şirli qab nümunələrinin olmamasıdır [4, s. 247].

Ərazidə qədim saklara, massagetlərə, iskitlərə, sarmatlara, məskutlara, həmçinin yerli xalqa aid əşyalar aşkarlanıb. Burada həmçinin monqollara aid ox ucluqları və döyüş alətləri, bəzəklər, eləcə də Əmir Teymurun oğlu sultan Şahruxun pulları tapılıb. Aparılan numizmatik tədqiqatlar bu pulların Təbrizdə zərb edildiyini sübuta yetirib [4, s. 250].

Buradan belə nəticəyə gəlmək olar ki, ilk orta əsrlərdə Uti vilayətinin bol şirin su mənbələrinin, həmçinin məhsuldar və bərəkətli torpaqlarının olması burada kənd təsərrüfatının yaxşı inkişaf etməsinə şərait yaratmışdır.

### 2.3. Qalalar və müdafiə istehkamları

Eramızın III əsrindən inkişaf etməyə başlayan feodal istehsal üsulu getdikcə Azərbaycanda torpaq sahələrinin ayrı-ayrı adamların əlində toplanmasına səbəb olurdu. Butün iri torpaq sahiblərinin vəziyyəti heç də həmişə eyni olmurdu. Onların bəziləri həddindən artıq varlanıb qonşu mülkləri də özünə tabe etmək və beləliklə də öz nüfuzunu genişləndirməyə çalışırdı [41, s. 31]. Bir başqalarının isə yararlı əkin sahələrinə zəruri ehtiyacı olduğundan, nisbətən zəif qonşusunun torpağını işğal etmək istəyirdi. Daha başqaları isə öz sürülərini otarmaq məqsədilə yeni-yeni otlaq sahələrini ələ keçirmək iddiasında olurdu. Bir sözlə feodallar, öz məqsədinə uyğun zəif qonşuları hesabına hakimiyyət dairəsini genişləndirməyə çalışirdi. Əlbəttə, bütün bunlar heç də asanlıqla başa gəlmirdi. Qonşuların mülkünü işğal etmək üçün çoxlu qurbanlar vermək lazım gəlirdi. Digər tərəfdən isə hər ehtimala qarşı, hər bir feodal öz ailəsinin və əyanlarının qayğısına qalmalı, feodal müharibələri zamanı onların tam təhlükəsizliyini təmin etməli idi. Buna görə də ayrı-ayrı feodallar öz iqamətgahlarının ətrafinda bir sıra müdafiə tədbirləri görməklə yanaşı, əlavə olaraq, təbii cəhətdən əlçatmaz qayalar və ya dağlar üzərində möhtəşəm qalalar tikdirirdilər [41, s. 31].

Azərbaycandakı dağ keçidlərinin əksəriyyətində möhtəşəm bir feodal qalasının olması danılmazdır. Bu baxımdan Uti vilayətində ayrı-ayrı feodallara məxsus qalalarla yanaşı, ümumölkə əhəmiyyəti daşıyan qalalar da inşa edilirdi. Bu cür qalalar bir qayda olaraq ölkənin paytaxtı olan şəhərlərin yanında, hərbi-strateji

baxımdan əlverişli bir yerdə tikilirdi. Ümumiyyətlə feodal şəhərlərini köməkçi qalalarsız təsəvvür etmək çətindir. Ümumölkə əhəmiyyətli qalalar nisbətən böyük olmaqla, onlarda daimi qoşun saxlanılır və silah istehsalı üçün emalatxanalar olurdu. Xüsusi silah anbarları və ərzaq ehtiyati saxlamaq üçün quyular qazılırdı, orada daimi qoşun saxlanıldığından, bir çox ictimai binalarla yanaşı, yaşayış evləri də inşa edilirdi. Daimi, həm də gizli su ehtiyatları quyusu və s. düzəldilirdi. Getdikcə ümumölkə əhəmiyyətli qalalar bir növ hərbi şəhərə çevrilir və bu növ qalalar bu və ya digər səbəbdən hərbi əhəmiyyətini itirdikdə belə, möhtəşəm yaşayış yerlərindən birinə çevrilirdi [126, s. 53].

Kaqankat qalasının qalıqlarının Bərdə rayonunun Kələntərli kəndi ərazisində, Ağdərə bölgəsində yerləşdiyi qeyd edilsə də bütün hallarda bu strateji abidə Uti vilayətinə daxil olan Tərtər çay hövzəsində yerləşmişdir. Qala hərbi strateji baxımından son dərəcə əlverişli yerdə olub, bütün keçidlərdə dairəvi bürclərdən ibarət xüsusi gözətçi yerləri ilə əhatə olunmuşdur [15, s. 25]. Bürclərin birinci mərtəbəsi silah saxlamaq üçün istifadə olunurmuşsa, ikinci mərtəbədə yalnız əsgərlərin dayanması üçün nəzərdə tutulmuşdur. Bürclərin hamısında mazqalların olduğu müşahidə edilmişdir [41, s. 31].

İlk orta əsrlər dövrünə aid, müdafiə sisteminin möhkəmlənməsinə xidmət edən qalalardan biri Ağdərə bölgəsində qalıqları duran Hirək qalasıdır. Hirək qalası ilk orta əsrlərin mühüm ticarət – karvan yollarından biri olan Bərdə-Dəbil və Bərdə-Gəncə-Tiflis ticarət yolunun üstündə yerləşməklə, karvanların təhlükəsizliyini təmin etmək, eləcə də karvansara rolunu oynamaq kimi xüsusuiyyətlər daşımışdır. Həmçinin bu qala Albaniyanın paytaxtı Bərədənin yaxınlığında yerləşməklə ölkə paytaxtının müdafiə sisteminin möhkəmlənməsinə və Bərdənin Ana şəhər, Şətəl yaşayış məntəqəsi, Gəncə ilə əlaqələndiricisi rolunu oynamışdır. Dəbildən və Tiflis istiqamətlərindən Bərədəyə gələn yollar Bərdə yaxınlığındakı Hirək qalasında qovuşmuşdur [42, s. 245].

XIV əsrdə yaşamış Həmdullah Qəzvini "Nüzhət-əl-qulub" əsərində Xirək adlı yerin Bərdənin ətrafında yerləşməsini yazır. Hal-hazırda Tərtərin Talış kəndinin yaxınlığında yerləşən Hirək qalası Bərdədən təxminən 24-25 km

məsafədədir. Həmçinin, Həmdulla Qəzvini Hirək qalasını şərh edərkən onun əlverişli təbii şəraiti haqqında qiymətli məlumatlar verir [45, s. 39].

Bu abidə Ağdərə rayonunun Talış kəndindən 3 km şimal-qərbdə, xırda meşəlikdən ibarət bir dağın ətəyində yerləşir. Abidə böyük bir kompleksdən, yəni karvansaradan, XII əsrə aid məbəddən və bir neçə xırda yardımçı binalardan ibarətdir. Karvansaranın ətrafına divar çəkilib. Onun 7 otağı, bir böyük zalı vardır.

Bişmiş kərpicdən hörülmüş binanın otaqlarının üstü arka formasındadır. Otaqlar şimal-qərbdən nömrələnməklə ölçüləri aşağıdakı kimidir.

I otaq 8x5 m; II otaq 8x8 m; III otaq 8x8 m; IV otaq 8x5m; V otaq 8x7m; VI otaq 6x7 m; VII otaq 7x7m.

Otaqlara həm daxili, həm də həyətdən qapı yerləri vardır. Göstərilən otaqlar karvansaranın cənub-qərb tərəfində inşa edilmişdir. Karvansaranın şimal-şərqində isə 25x5 m ölçüdə böyük bir zal vardır. Zalın arxa divarının içərsində bir-birini əvəz edən üçkünc formalı dilovlar düzəldilmişdir. Orta hissədə bu dilovların eni 1,3 metrdir. Karvansaranın qala içərsindəki ümumi uzunluğu 59 metrdir, eni isə 28-30 metrdir.

Binada istifadə olunmuş kərpiclər kvadrat formada olub, 20x20x4sm və 24x25x5sm ölçüdədir. Karvansaranın ortasında eni 14 metr olan böyük həyəti var. Karvansaranın həyətindən yol keçdiyindən onun iki qapısı vardır. Biri şimalında, digəri isə cənubundandır. Hər iki qapı uçub dağılsa da bürcləri durur. Qala divarının kənarda, karvansaranın şimal-qərbində təxminən 50-60 metr məsafədə üstü tağla örtülmüş və çay daşından tikilmiş 3 ədəd yarımqazma tikililər vardır. Bu tikililər 4x5 metr və 4x6 metr ölçülərindədir. Ehtimal olunur ki onlar tövlə olub. Otaqlardan azacıq aralı, kərpicdən dairəvi formada tiliklmiş bürc gözətçi yeri qalığı vardır [15, s. 41].

Abidə Ağdərə bölgəsinin yerli əhalisi olan azərbaycanlılar tərəfindən Hürü qarı sarayı adlanır. Rəvayətə görə iki gözəl qızı olan Hürü qarı öz qızlarını İran şahlarından qorumaq üçün gəlib, bu dar dağ keçidində qala tikdirmişdir.

Hürü qarı karvansarasından bir qədər cənuba doğru ərazidə 1962-ci ildə kənd təsərüfatı işləri aparan zaman pul dəfinəsi tapılmışdır. Bu pullar, əsasən Qəndaharda, İsfahanda, Təbrizdə, Məşhəddə, Gəncədə zərb edilmişdir.

Ərazidə hazırda işlək vəziyyətdə olmayan orta əsrlərə aid karvan yolunun izi vardır. Həmin yolla əlaqədar olaraq Tərtər çayı üzərində tikilmiş körpü isə uçmuşdur. Mənbələrdən aydın olur ki, Hirək Bərdə yaxınlığındadır və Qarabağın Talış məlikliyi bu qalanın ərazisində yaranmışdır [68, s. 15]. Tədqiqatçı Q.Qeybullayev Hirək qalasını Gülüstan qalası ilə eyniləşdirir [63, s. 24]. Lakin arxeoloq A.Məmmədov bu fikri təkzib edərək Hirək qalasını Ağdərə rayonu ərazisindəki “Məlik Bəylər” qalası ilə eyniləşdirir [78, s. 267].

Gülüstan qalası Goranboy rayonunun Gülüstan kəndindən iki kilometr cənub-şərqdə, İncəçayın ayrılıb qovuşduğu zaman əmələ gətirdiyi bir yerdə, dəniz səviyyəsindən 170 m, ətraf ərazilərdən 200-250 m hündürlükdə olan bir dağın üstündəki yaylada yerləşir(Şəkil 2.3.1). Müşahidələr zamanı qala divarlarının qalınlığının  ayrı-ayrı hissələrdə müxtəlif olduğu aydın seçilir. Şimal və qərb hissələrdə divarlar hündür və sərt qayalar qoynunda hörüldüyündən qalınlığı bir metrdən azdır. Əksinə, cənub hissədə divar 1-1,5 metr qalınlığında hörülmüşdür(Şəkil 2.3.2). Qalanın uzunluğu şərqdən-qərbə doğru 200-210 m, eni isə şimal-cənub istiqamətində 20-25 metrədək uzanır. Şimal və şərq hissələrdə divarlar qayanın lap uçurumuna söykənmişdir. İstehkamın yerləşdiyi dağın üstü hamar olmayıb, bəzən sərt, bəzən də maili  yamac formasında yuxarıya qalxır. Eyni qaydada yerin relyefinə uyğun olaraq divarlar da qat-qat aşağı enir. Qalanın daxilindəki eniş hissələrdə ovdanlar düzəldilmişdir. Apardığımız müşahidələrin etnoqrafik materiallarla uzlaşdırılmasına əsasən demək olar ki, bu ovdanlara yağış və qar suyu süzülüb yığılmış və ondan başlıca olaraq içmək yox, təsərrüfat işlərində işlətmək üçün istifadə edilmişdir. Qala yerləşən yerin ən yüksək zirvəsində ikinci qala divarı və daha iri bürclərlə əhatə olunmuş qurğunun olması göstərir ki,  o, iki hissədən, ön və arxa istehkamlardan (Narınqala) ibarətdir. Qala içərisində qala tipli istehkamlar Azərbaycanın bir çox şəhərlərindən məlumdur. Onlara Narınqala deyilir. Belə şəhərlərin ətrafı divarla əhatə olunur, hakim

feodallar isə strateji cəhətdən əlverişli, hündür yerdə tikilmiş bu istehkamın içərisində yaşayırdılar. Bu, ilk feodal formalı şəhərlər adlanır. Narınqala daxilindəki binalarda feodalların yaxın adamları, məsul idarə məmurları, dini və ictimai xadimlər yerləşirdilər [80, s. 65].

Şamaxının Gülüstan qalası kimi Qarabağın Gülüstan qalası da ətraf yaşayış yerlərindən aralı, yüksək bir dağın üstündə bina edilmişdir. Bu cəhətdən Gülüstan əsl müdafiə tipli qaladır. Qala üç arakəsməyə bölünür. Arakəsmələrdəki otaqlardan birinin uzunluğu 8 m, eni 5,6 metrdir. Bu hissədə qalanın eni 19-22 metrdir. Otaq qurtardıqdan sonra qalanın ortasında 2 metr enində divar gedir, ondan 2,2 m sonra ikinci bir divar da var. Burada qalanın hər iki divarı boyunca binalar yerləşir. Binaların uzunluğu 4 m-dən 11 m-dəkdir. Binaların və divarların arasında keçid üçün yol var. Həmin yolun eni 2 m-dən artıq, giriş qapısının eni 1,8 m-dir. Binaların birinin içərisində yeraltı zirzəmi görünür. Bu onu göstərir ki, ya binalar iki mərtəbəli olub, ya da ondan silah və s. saxlamaq üçün istifadə edilmişdir. Hər binanın da özünün qapı, pəncərələri və hər iki kəllə divarı içərisində 4 ədəd şam yandırmaq və s. üçün yerləri vardır. Binalar qurtardıqdan sonra qalanın ortasında üçüncü divar var. Bu divarın cənub-şərq tərəfindən qalanın qalan hissəsinə keçmək üçün dar yol diqqəti cəlb edir. Həmin hissədə, lakin şimal tərəfdə gizli yeraltı yol dərhal nəzərə çarpır [81, s. 166]. Qeyd edək ki, bu cür yeraltı yollar müdafiəni asanlaşdırmaqla yanaşı təchizat işlərində mühüm əhəmiyyət daşıyırdı. Qalaları ətraf aləmlə birləşdirən yeraltı yollar Naxçıvanda Əlincə qalasında, Gədəbəydə Qız qalasında və s. olduğu tədqiqatlardan məlumdur.

Qalaya gələn gizli yolun uzunluğu 200 m-dən çoxdur. Yol düzünə deyil, dağ yamacı boyunca uzanır və İncəçaya enir. Tunelin içərisində yolu nəzarətdə saxlamaq və ötürmə üsulundan istifadə edərək su daşınmasını asanlaşdırmaq məqsədilə xırda gözətçi yerləri düzəldilmişdir.

Qala divarı boyunca dörd yerdə gözətçi məntəqəsi vardır. Qərb tərəfdəki əsas gözətçi məntəqəsi iki mərtəbədən ibarət olub, birinci mərtəbəsində görmək üçün 3, ikinci mərtəbəsində 12 mazqal açılmışdır. Yaşayış binalarının yerləşdiyi sahəni əhatə edən mərkəzi divarlar bir-birilə iri bürclərlə birləşir. Bu bürclərdən

ikisi salamat qalmışdır ki, onlardan da biri dairəvi, digəri isə dördkünc formadadır. Gülüstan qalası Qarabağın dağlıq hissəsində XIX əsrdə məskunlaşmış erməni separatçıları ilə Ermənistan hərbi hissələrinin müvəqqəti nəzarətində olan ərazilərlə sərhəddə yerləşdiyindən orada müşahidələr aparılsa da tədqiqatların aparılması mümkün olmamışdır. Hal-hazırda isə Ali baş Komandanımızın torpaqlarımızı yağı düşməndən azad etməsi ilə yenidən doğma əzəli, əbədi Qarabağımızda yeni tədqiqatlara şərait yaradacaqdır.

Qafqaz Albaniyasının Uti vilayətinin erkən orta əsrlərə aid iri yaşayış yerlərinin ətrafında möhkəm müdafiə qalaları olmuşdur. Belə müdafiə divarlarına malik abidələrdən biri də Qaraköpəktəpə yaşayış yeridir. Uti vilayətinin əlverişli təbii-coğrafi şəraiti və münbit torpağı Qaraköpəktəpənin gur yaşayış yerinə çevrilməsinə səbəb olmuşdu.

XX əsrin 60-cı illərindən başlayaraq və 80-ci illərin sonlarınadək aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, erkən orta əsrlərdə Qaraköpəktəpə böyük yaşayış yeri kimi tanınmış, Sasanilər dövründə burada möhtəşəm tikililər ucaldılmış, müdafiə istehkamları yenilənmiş, çay daşları ilə döşənmiş geniş yol çəkilmişdir [52, s. 47].

Arxeoloji qazıntılar əsasında müəyyən edilmişdir ki, IX-X əsrlərdə Qaraköpəktəpə sıx əhalisi olan möhkəm bir feodal qəsrinə çevrilmiş, Azərbaycanın ayrı-ayrı bölgələri, eləcə də Şərqin bir çox yaxın və ya uzaq sənətkarlıq, ticarət və mədəni mərkəzləri ilə sıx-sıx iqtisadi mədəni əlaqə saxlamışdır. Şərq ölkələri ilə artan iqtisadi-mədəni əlaqələr çox keçmədən burada yeni ictimai münasibətlərin təşəkkülünə zəmin yaratmış, Qaraköpəktəpənin böyük bir tayfaya məxsus yaşayış yerinə çevrilməsinə gətirib çıxarmışdı [142, s. 3-12].

Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin dirçəldiyi dövrdə onun ətrafına hündür qala divarı çəkilmiş, içərisinə gil tünglər vasitəsilə uzaq bulaqlardan su gətirilmişdir. Qazıntılarla burada müsəlman memarlığı üçün səciyyəvi sayılan müdafiə divarlarının üzə çıxarılması buna əyani sübutdur [117, s. 2; 52, s. 48].

Erkən orta əsrlərdə Uti vilayətinin daim yadelli hücumlarına məruz qalan Yedditəpə yaşayış yerinin ətrafında da möhkəm divarlara malik müdafiə qurğuları salınmışdır. Arxeoloji qazıntılar nəticəsində aşkarlanmış qəbir abidələrinin də məhz belə müdafiə qurğuları üzərində yadellilərə qarşı qəhrəmanlıqla döyüşərək həlak olmuş döyüşçülərə məxsus olduğu qənaətinə gəlmək olar.

Q. İsmayılzadəyə görə qəbirlərdə dəfn edilmiş gənc döyüşçü oğlan və qızlar, böyük ehtimalla öz yaşayış məskənlərini qoruyaraq həlak olmuşlar. Skeletlərin ayrı-ayrı sümükləri və bəzi kəllələr üzərində qalmış qılınc, ox və nizə çapıqları bunu əyani şəkildə sübut edir [54, s. 52].

Erkən orta əsrlərə aid olan bu cür müdafiə istehkamlarına malik olan yaşayış yerlərinə təkcə Uti vilayətində deyil, bütövlükdə Azərbaycanda rast gəlinir. Zəngin təbii-coğrafi şəraiti, əlverişli torpağı, tranzit mövqeyi Azərbaycan torpaqlarının daim yadelli hücumlarına məruz qalmasına gətirib çıxartmışdır. Ona görə də Uti vilayətinin ətrafında möhkəm müdafiə istehkamının qurulması da məhz bu məkanın mühüm olan təhlükə qarşısında müdafiə qüdrətinin artırılması zərurətindən irəli gəlmişdir.

## 2.4.Qəbir abidələri və Memorial tikililər

Uti vilayətində tarixən mövcud olmuş hər bir hər bir yaşayış məskəninin ayrılıqda qəbristanlıqlarının da olduğu arxeoloji qazıntıların nəticələri ilə təsdiqlənir. Yaşayış yerlərinə məxsus qəbirlərdə aparılan tədqiqatlar həm də həmin dövrün tarixini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir. Ərazidə yaşayışın davamlı olması və müxtəlif zamanlarda yadellilərin tapdağı altında qalması təbii ki, həm də müxtəlif dəfn adətlərinin mövcudluğuna səbəb olmuşdur. Bunu həmdə müxtəlif dövrlərə aid aşkar edilmiş dəfn adətlərini özündə əks etdirən maddi mədəniyyət nümunələri qalıqları və qəbir abidələri sübut edir.

Uti vilayətinə daxil olan Tərtərçay vadisində də tədqiq olunan dövrdə gur yaşayışın olması qəbir abidələrinin də müxtəlif olmasına gətirib çıxarmışdır. Arxeoloji qazıntılar zamanı erkən orta əsrlər dövründə bölgədə zəngin xristian alban qəbir abidələrinə rast gəlinir.Qafqaz Albaniyasının Uti vilayətinin ilk orta əsr

qəbir abidələri öz qurluşana görə dörd tipə bölünür: torpaq qəbirlər, daş qutular, daş sanduqələr, sərdabələr [15, s. 36].

Daş sanduqələrdən başqa qalan qəbir tipləri Uti vilayətində xristianlıq dövründə yayılmışdı  Daş sanduqələr ərəb istilasından sonra VII əsrdən meydana gəlmişdir. Daş sənduqələr baha başa gəldiyindən ehtimal etmək olar ki, varlı xristian ruhaniləri, dövlət xadimləri və zadəganlar üçün düzəldilmişdir. Əlbəttə bu qəbir tiplərinin müxtəlifliyi tikinti materiallarının ayrı-ayrı coğrafi rayonlarda müxtəlif olması ilə əlaqədardır[135, s. 239].

Kiçik Qafqaz dağlarının Uti vilayətinə aid tarixi ərazilərdəki mövcud kəndlərin yaxınlığı, eləcə də meşəlik ərazilər də qəbir abidələri ilə zəngindir. Uti bölgəsində elə bir yaşayış məntəqəsi yoxdur ki, onun yaxınlığında ilk orta əsrlər dövrünə aid qəbir abidələri və digər abidələr mövcud olmasın [93, s. 37-38]. Uti vilayətində çoxsaylı qəbir abidələrinin mövcudluğu ilk orta əsr dövründə də bu bölgədə əhalinin sıx məskunlaşdığını bir daha sübut edir.

Uti vilayətinin Kaqankat şəhəri ərazisində dövrümüzə qədər daha yaxşı vəziyyətdə qalan daş qutu qəbirlər diqqəti cəlb edir. Belə qəbirlər yerli əhalinin Sarşin adlandırdığı meşə ərazisində mövcud olan qəbirstanlıqdır. Burada xristian qəbir daşlarının sayı 200-ə qədərdir. Qəbirlərin çoxu meşədəki ağacların çoxunun sıxlaşması nəticəsində dağılıb məhv olmşdur.Hətta elə qəbirlər var ki onların böyür daşında bitən ağacların kök atması ilə sıradan çıxmışdır.Yerli əhalinin Əyrisu adlandırdığı yerdən 250-ə qədər qəbir aşkar edilmişdir. Bu qəbirstanlıqdakı qəbir daşlarının forması, ölçüsü, üzərindəki xaç işarələri Kaqankat şəhər – qalasının içərsindəki qəbirlərlə eynidir [16, s. 51]. Həmçinin Kaqankatın ətrafında torpaq və küp qəbirlərə də rast gəlinmişdir. Bu isə erkən orta əsrlərdə Uti vilayətində intensiv yaşayışın və  zəngin maddi mədəniyyətin göstəricisidir.

Uti vilayətində Yedditəpə adlı yaşayış yerindən erkən orta əsrlərə və daha əvvəlki dövrlərə aid zəngin qəbirlər tapılmışdır. Arxeoloji abidə bütövlükdə 30-a yaxın kurqan tipli qəbirlərdən ibarətdir [99, s. 383]. Onların yalnız ikisi uşaq, əksəriyyəti isə kişi və qadınlara məxsus idi.

Füzuli rayonunun Mirzə Camallı kəndi yaxınlığındakı Yedditəpə yaşayış yerinə məxsus erkən orta əsrlərə aid qəbirlər də tədqiq olunmuşdur. Qəbir kameralarının əksəriyyətinin döşəməsində, bəzi hallarda isə daş qutuların xaricində od, ocaq izləri qeydə alınmışdır [118, s. 108-109]. Arxeoloji qazıntılar zamanı daş sərdabə tapılmışdır [54, s. 51]. Sonradan aparılan arxeoloji qazıntılar zamanı yeni qəbirlərdən mis, gümüş, gil və şüşə qablar, silah nümunələri, saysız-hesabsız bəzək şeyləri tapılmışdır. Uzunluğu bir metrdən artıq olan gənc bir döyüşçüyə aid qəbirdən dəmir qılınc tapılmışdı. Bu qılıncın üstündə ağac qının izləri qalmışdı. Bundan başqa burada bir ədəd dəmir balta, bir neçə xəncər, nizə ucluqları və da var idi [54, s. 52; 99, s. 383]. Bütün kişi qəbrlərində dəmir silah nümunələrinə (qılınc, xəncər, nizə və s.) rast gəlinmişdir [119, s. 30]. Hər bir qəbirdə az da olsa saxsı məmulatları tapılmışdır. Bunların içində əsas yeri üç novçalı ağıza malik kiçik ölçülü bardaqlar tutur. Saxsı qabların bir hissəsi kəsmə, cızma naxışlarla, bəzi hallarda yapma düyməciklərlə bəzədilmişdir ki, bu da erkən orta əsr Albaniyasının keramika istehsalına xas olan əlamətlərindən biri hesab olunur Bu tip materiallar Uti vilayətinin ilk orta əsr abidələrində olduğu kimi vaxtilə Atropatena ərazisinə aid olan Naxçıvanın həmdövr abidələrindən də əldə edilmişdir. Bu da maddi-mədəniyyətdə mövcud uyğunluqların olduğunu göstərir [60, s. 51-55]. Yedditəpədə aparılan arxeoloji qazıntılar zamanı aşkarlanan daş sərdabə maraq doğurur.

Qalın torpaq qatı altından sərdabə də aşkar olunmuşdu. Bu sərdabənin divarları iri sal daşlar ilə hörülmüşdü. Qəbirlərdə çoxlu sayda naxışlarla bəzədilmiş kəmərlərə də təsadüf olunmuşdur. Bunların üzərində gözəl çəkilmiş rəsmlər, müxtəlif fiqurlar var idi. Hətta misdən, uzunluğu 3 sm olan bir toqqanın üzəri kiçik ölçülü maral heykəli ilə bəzədilmişdi. Qəbirlərdən tapılan belə qədim incəsənət nümunələri çox idi. Onların içərisində dağ keçisi, qartal fiqurları da var idi [138, s. 96- 383; 53, s. 52].

Qazıntılar nəticəsində təxminən hər qəbirdə, ən azı üç silah nümunəsi tapılmışdır ki, onlardan əsasən müxtəlif ölçülü dəmir bıçaq və xəncərlərdən, nizə və

hərbi baltalardan ibarət idi. Yedditəpə qəbirlərindən əldə olunan materialların təhlili bu qəbir tipini təqribən III-VI əsrlərə aid etməyə imkan vermişdir [49, s. 54].

Qadına məxsus olan bir qəbirə silah nümunələrilə yanaşı bilavasitə qadın məşğuliyyəti üçün istifadəsi nəzərdə tutulan sümükdən yonulmuş əyircək də qoyulmuşdu [54, s. 54]. Yedditəpədən əldə edilmiş qiymətli maddi mədəniyyət nümunələri üzərində ilkin elmi-tədqiqat işləri nəticəsində açılmış qəbirlərin dövrü dəqiq öyrənilmiş və onların erkən orta əsrlərdə Uti vilayətində yaşamış yerli əhaliyə məxsus olduğu da arxeoloji qazıntılar nəticəsində müəyyən edilmişdir.

Uti vilayətinin erkən orta əsrlərə aid Govurqala yaşayış məskənində də qazıntılar zamanı qəbir abidələri tapılmışdır. Yaşayış yerinin nekrapolunda heç bir yerüsü əlaməti olmayan beş ədəd daş qutu xristian albanlara məxsus olmuşdur. Salamat qalmış skeletlərin kəllə sümüyünə əsasən onların formasının dolixokefal olması müəyyənləşmişdi. Govurqalada tapılmış daş sarkofaqın iki çatılı qapağı böyük əhəmiyyətə malik olmuşdur. Həmin daş sənduqənin ikiçatılı qapağında dörd sətirli yazı aşkar edilmişdir. Məbəddən aşkar edilmiş daş sənduqədə Alban hökmdarı Hamamanın qardaşının dəfn edildiyi müəyyən edilmişdir [5, s. 177; 101, s. 176].

Govurqalanın «Xırman yeri» adlanan hissəsində antik dövrün sonlarına aid geniş salonlu məbəd kompleksi üzə çıxarılmışdır. Govurqalada aparılan tədqiqat işləri nəticəsində möhrə divarın altından torpaq qəbir də aşkarlanmışdır.

R.B.Göyüşovun tədqiqatları nəticəsində şəhərin antik dövrü məbədlər sahəsi üzə çıxarılmış, şəhərin nekropolu tədqiq edilmiş, daş sənduqələr, daş qutu qəbirlərlə yanaşı erkən orta əsrlərə aid daş bütlər də aşkar olunmuşdur (şəkil 2.4.1). Şəhər xarablığından təxminən 1,5 km aralıda “Dəlləkli yalı” deyilən yerdə 2 ədəd daş büt aşkar edilmişdir. Hər iki büt daşdan olmasına baxmayaraq ölçü və quruluşuna görə bir birindən fərqənirdi.Belə ki, bütlərin birinin uzunluğu2,6 m eni isə orta hissədə 1,2 m olmuşdur(şəkil 2.4.2). Daşın qalınlığı 47-50 sm olmuşdur. Bu büt 3 hissədən ibarət olmuşdur. Baş, gövdə və yere basdırılan hissədən. Baş hissəsi oval formada yonulmuş, üz hisssəsi oyma üsulu ilə goz və burun hissəsi kobud formada düzəldilmişdir.Gövdə hissəsindən yalnız əllər dirsəkdən bükülü, bütün üzünə doğru

qaldırılmış formada qabartma üsulu ilə işlənmişdir.İkinci büt isə birinciyə nisbətdə kiçikdir. Belə ki, hündürlüyü 1,3 m, eni isə 44 sm, qalınlığı isə 36 sm olmuşdur.Bütün daşı keyfiyyətsiz olub, üzərində "U" hərfinə bənzər oyma üsulu ilə burun işarə edilmişdir.Gövdə hissəsində isə əvvəlkindən fərqli olaraq əllər təsvir edilməmişdir(Şəkil2.4.3) VII-VIII əsrlərə aid olan bu daşalar Uti vilayətində qəbirüstü abidə rolunu oynamışdır. Beləliklə deye bilərik ki, erkən orta əsrlər Uti vilayətinin qəbir abidələrinin öyrənilməsində Govurqalanın son dərəcə böyük əhəmiyyəti vardır.

Uti vilayətinin erkən orta əsrlərə aid abidələrindən biri də Füzuli rayonunun Yağlıvənd kəndinin ərazisindədir. Erkən orta əsrlərə aid abidə 1964-cü ildə S.M.Qazıyev tərəfindən üzə çıxarılmış, qazıntı işlərində R.B.Göyüşov da iştirak etmişdir [49, s. 53].

Qazıntılar zamanı xristian qəbirləri tədqiq olunmuşdur. Oradan düzbucaqlı formalı yonulmuş əhəng daşından inşa edilmiş və tağvari örtüyə malik 9 daş sərdabə tapılmışdır. Sərdabələrin cənubda yerləşən girişi yastı lövhələrlə qapanmışdır. Sərdabələrin uzunluğu 1,22-3 m, eni 0,98-2,7 m, hündürlüyü 1,5-1,93 m-dir. Skeletlər sərdabələrin şimal divarı yaxınlığında, kəlləsi qərbə yönəldilmiş vəziyyətdə qeydə alınmışdır. 6 saylı sərdabədən başqa digər sərdabələrdəki skeletlərin sol əli sifət nahiyəsinə tərəf qaldırılmış, sağ əli isə döş qəfəsi üzərindədir. 3 saylı sərdabədə iki, digər sərdabələrin hərəsində bir skelet aşkar olunmuşdur. 2 saylı sərdabədə, skeletin yanında ilk orta əsrlərə aid, əlində formalaşdırılmış saxsı süddan, 7 saylı qəbirdə, skeletin boğaz nahiyəsində metal muncuqlar üzə çıxarılmışdır [49, s. 54]. R.B.Göyüşov erkən orta əsrlərə aid analoji Dzveli Anaqa sərdabələri (Gürcüstan) ilə müqayisə etdiyi Yağlıvənd qəbirlərini də ilk orta əsrlərə aid etmişdir [111, s. 75].

Yağlıvənddə digər erkən orta əsr xristian abidəsi yarımqazma tipli sövmədir [112, s. 97]. Elmi ədəbiyyatda Yağlıvənd sövməsinin geniş təsviri verilməsə də R.B. Göyüşovun müraciət etdiyi analoji abidələrdən məlum olur ki, bu cür sövmələrin interyeri dairəvi formalı olub, üstü ağac tirlərlə örtülürdü. Belə

sövmələrin şərq tərəfində, mehrab yerində xaç daş düzəldilirdi [112, s. 97-98; 49, s. 54]

Ergi düzündə 2№-li yaşayış yeri ib 1 №li dağılmış qəbir olan sahə arasında bir müvəqqəti yuşayış yeri də aşkar olunmuşdu [146, s. 8]. Şumlanmış kiçik sahədə yerləşən bu yerdən yarımdairəvi, lentvari formada olan boz rəngli gil qab hissələri, üstü yapma düyməcikli və kəsməxətli qulplu saxsılar da aşkar edilmişdir. Onun oxşarları Kürboyu Bulaqbaşı abidələrindən də məlumdur.

Daşa dönmüş insanlar. Uti vilayətində, xüsusilə düzən hissədə və dağ zirvələrində insan formasında hazırlanmiş və ya üzərində insan təsviri həkk edilmiş çoxlu sayda daşlara təsadüf edilir.

Yerli əhali arasında "üç qızlar", "çoban daşı", "özündənbəy", "gəlin qaya", "qırxqız", "hacı qəbri" və s. adlarla tanınan bu daşlar haqqinda müxtəlif əfsanələr yaranmışdır. Həmin əfsanələr müxtəlif variantda olsa da onlarda bir ümumi bundan ibarətdir ki, guya allah bu və ya digər səbəbdən həmin adamları daşa döndərmişdir. Ağdam rayonunun Salahlı Kəngərli kəndi ərazisində olan "üç qızlar" haqqındaki əfsanəyə görə guya üç bacı olan bu qızlar boranlı bir gündə azırlar. Məhz bu yerdə onlarin üzərinə canavarlar hücuma keçir. Qızlar allaha yalvarırlar ki, onlari xilas etsin. Allah isə bu qızları daşa döndərməklə, onları canavarlardan xilas edir. "Gəlin qaya" adlı başqa bir əfsanədə zorla ərə verilmiş bir qızın taleyindən danişılır. Guya bu qız istəmədiyi nişanlısından xilas olması üçün allahdan onun daşa döndərilməsini xahiş etmiş və allah bu xahişi yerinə yetirmişdir [41, s. 28].

Söylənilən bu əfsanələrdə həqiqətə uyğun heç bir şey yoxdur. Lakin bu növ daşlar Uti vilayətində o qədər geniş yayılmışdır ki, istər-istəməz onlar tədqiqatçilarin diqqətini cəlb edir. Hətta Füzuli rayonunun Araz Dilağarda kəndi ərazisində arxeoloqların "bütlər sarayı" adlandırdıqları bir təpə açılmışdır ki, orada onlarla "daşa dönmüş insan" vardır. Bu daşlar üzərində aparılmış tədqiqat işlərindən aydın olmuşdur ki, onlar Uti vilayətinin qədim sakinlərinin ibtidai dini təsəvvür formalarından biri olan bütpərəstliyin məhsuludur.

Hələ eramızdan əvvəl I minilliyin ortalarından başlayaraq bütün Azərbaycanda olduğu kimi Uti vilayətində əhali arasında ruhlara inam tədricən

allaha inamla əvəz edilmişdir. İnsanlar bu dövrdə elə düşünürdü ki, guya təbiətdə hər şeyin öz allahı vardır. Bu allahları qədim Azərbaycan xalqı şərqin bir sıra ölkələrindən fərqli olaraq, həmişə insan formasında düşünmüşlər. Bu hal eyni zamanda insanların özlərini ilahiləşdirilməsi kimi ibtidai təsəvvürlə də bağli idi. Ona görə də eramizdan çox-çox əvvəl yaranmış bu təsəvvür antik dövrdə formalaşıb, bir növ hakim mövqe tutdu. Elə bu dövrdən Azərbaycanda, o cümlədən də Uti vilayətində çoxlu bütlər (allahlar) yaradıldı. İnsan bütləri həm gildən kiçik formada, həm də daşdan iri həcmdə hazırlanırdı. Azərbaycanın bir çox yerlərindən tapılmış bütlər bir qayda olaraq sınmış halda aşkar edilmişdir. Arxeoloji tədqiqatlar nəticəsində aydın olmuşdur ki, bütlər müəyyən bir qanuna uyğunluqla sındırılmışdır. Yəni əksər bütlərdə qılça, qol və baş hissə kəsilmiş halda tapılmışdır. Tədqiqatçıların ehtimal xarakterli fikirlərinə görə bu bütlər qurban kəsilmişdir.

Beləliklə, aydın olur ki, əvvəlcə insanlardan ibarət qurbankəsmə adəti eramızın əvvəllərindən bütlərin qurban kəsilməsi adəti ilə əvəz edilmişdir.Bütlərin sınıq halda tapılmasının digər səbəbi də, sonrakı illərin, yəni xristian islam dinlərinin özündən əvvəlki dinlərə qarşı mübarizə mövqeyi tutmasından irəli gəlmişdir [41, s. 28]. Lakin bu mübarizəyə baxmayaraq eramızın IX-XI əsrlərinə kimi Uti vilayətində  bütpərəstlik adəti davam etmişdir. Bu dövrdə Uti vilayətində (ərazidə yaşayan əhali əsasən həmin dövrdə xristian albanlardan ibarət idi) yaşamış ustalar daşdan hazırladıqları bütlərdə bir sira dəyişikliklər etmişdilər. Belə ki, bütləri xristianlar qırmasın deyə ona xristian dini əlamətləri verirdilər. IX-XI əsrlərdə hazırlanmış bütlərdə əvvəlki bütlərdən fərqli olaraq bütlərin əlləri dirsəkdən bükülərək, heykəlin üzünə doğru qatlanmış halda təsvir edilir. Bu isə xristianlığın ilk dövründə dəfn adətinin bir forması olmuşdur. Elə buna görə də hazırda bu növ bütlərin əksəriyyəti salamat qalmışdir. Xristianlara elə gəlirdi ki bütlər qəbirüstü abidə olub, mərhumun qəbirdəki vəziyyətini təcəssüm etdirir. Ona görə də ona dəymirdilər. Halbuki arxeoloji tədqiqatlar nəticəsində aydin olmuşdur ki, həmin abidələr əsl bütlərin müəyyən dərəcədə dəyişilmiş formasından başqa bir şey deyildir [145, s. 15].

Bütün deyilənlərdən aydın olur ki, yerli əhali tərəfindən daşa dönmüş insanlar adlandırılan bu abidələr bütpərəstlik dini təsəvvürünün təcəssüm forması olub insanın özünü ilahiləşdirdiyi bir dövrün məhsuludur. Onlar haqqında mövcud əfsanələrə gəlincə bu xalq tərəfindən yaradılmış və həqiqətlə əlaqəsi yoxdur [41, s. 29].

Memorial tikililər. Dünyada insanın yarandığı ilk məskənlərdən biri olan və əsrlər boyu təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamış Uti vilayətinin olduqca zəngin bir keçmişi vardır. Dəfələrlə yadelli işğalçıların ardı-arası kəsilməyən hücumlarına sinə gərmiş qədim Uti əhalisi nəinki öz varlığını qoruyub saxlamış, həmçinin xalqımızın çoxəsrlik tarixini özündə əks etdirən zəngin maddi-mədəniyyət abidələri yaratmış və onu indiyə kimi qoruyub saxlamışdır.

Uti vilayəti erkən orta əsrlərə aid müxtəlif tipli arxeoloji abidələrlə olduqca zəngindir. Bunun da səbəbi bir tərəfdən Uti vilayətinin əlverişli təbii coğrafi şəraitə malik olmasıdırsa, digər tərəfdən də, IV əsrdən başlayaraq bütün Albaniyada (qədim Azərbaycanda) olduğu kimi burada da bir sıra iqtisadi, ictima-isiyasi və dini dəyişikliklərin baş verməsidir. Məhz IV əsrdən başlayaraq, artıq Uti vilayətində feodal münasibətləri formalaşır və xristianlıq feodalizmin əsas ideologiyası kimi dövlət dininə çevrilir. Bütün ilk orta əsrlər dövründə Uti vilayətində feodalizm üçün xarakterik olan müxtəlif tipli abidələrlə yanaşı dini ideoloji baxımdan olduqca rəngarəng abidələr kompleksləri də vardır [32, s. 6]. Bunun da başlıca səbəbi ilk orta əsrlərdə yerli əhalinin ideologiyasındakı ciddi pərakəndəliklə əlaqəlidir. Bir tərəfdən əhalinin aşağı təbəqəsi arasında hələ də ibtidai dini təsəvvürlər sisteminin qalıqları güclü idi, digər tərəfdən isə xristianlıq dininin özünün daxilində üç cərəyan arasında (monofizitlər, diofizitlər və nestorianlar) ciddi mübarizə gedirdi. Nəhayət, bütün Azərbaycanda olduğu kimi Uti vilayəti də VII əsrdə ərəblərin işğalından sonra əhalinin əsas hissəsi arasında islam dininin yayılması üçün hər cür şərait yarandı. Uti vilayətinin dağlıq hissəsində yaşayan və nisbətən azlıqda qalan xristian əhalisi isə öz dini taleyini erməni Qriqorian kilsəsinə bağlamalı oldu [41, s. 29].

Lakin XIX əsrin əvvəllərində Türkiyədən və İrandan ermənilərin çar Rusiyasının əli ilə Cənubi Qafqaza, o cümlədən azlıqda qalan xristian albanların yaşadıqları Qarabağın dağlıq hissəsinə kütləvi köçürülmələri ilə bölgədəki abidələrin süni şəkildə erməniləşdirilməsinə başlanıldı. Çünki 1836-cı ilə Alban katalikosluğu rəsmi ləğv edilənədək Azərbaycanda islam dini özünə dərin kök salmışdı. Xristian alban abidələri diqqətdən kənarda qalmışdı. Bunun nəticəsi idi ki, indiki Ermənistan (Qərbi Azərbaycan) Azərbaycanın Yuxarı Qarabağ ərazisindəki xristian alban abidələrində erməni, indiki Gürcüstan Respublikası ərazisindəki abidələrdə gürcü elementləri formalaşdırılırdı [27, s. 15].

Daha sonra yaranmış siyasi vəziyyət Azərbaycan mədəniyyətinin inkişafında da yeni dövrün başlanmasına səbəb oldu. Belə ki, Ərəblərin Azərbaycanı işğal etməsi, islam dinin yayılması dini-sitayiş məqsədli tikililərin özünəməxsus qurluşlarını formalaşdırdı. Azərbaycanda bu dövrdə sürətlə inkişaf edən memarlıq tiplərindən biri qülləvari türbələrdir, ki bu tipli memarlıq abidələrində islam mədəniyyətinin təsiri özünü açıq şəkildə göstəririr. Bu cür abidələrə Azərbaycanın müxtəlif  yerlərində rast gəlinir [36, s. 235].

Bərdə məbədi. Bərdə şəhərinin “Məbəd yeri”hissəsində aparılan arxeoloji qazıntılar nəticəsində üçnefli məbəd aşkar edilmişdir. Üç yarım dairəvi apsidası olan məbədin orta nefinə keçmək üçün qərb divarında giriş qapısı var. Məbəd qoşa sütunlarla üç nefə ayrılmışdır. Uznunluğu 11 m, eni isə 6 m-dir. Yan neftlərin eni isə 1,52 m –dir. Bünövrəsi çay daşından, divarları bişmiş kərpicdən olmuşdur. Kərpiclərin ölçüsü 22x22x5 sm olmuşdur. Divarların hündürlüyü isə 1,5 metr-dir. Məbədin arxeoloji materialları içərsində şirli qablara rast gəlinmir. Zənn edirk ki, məbəd VII-VIII əsrlərdə mövcud olmuş yanğın nəticəsində dağılmışdır [47, s. 166; 140, s. 65] .

Govurqala məbədi. Ulu keçmişli Azərbaycan torpağı memarlıq abidələrilə zəngindir. Yüksək əxlaqi-mənəvi dəyərlərə, kamil zövqə və duyuma, ənənəvi zəhmətsevərliyə və istedada malik xalqımız əsrlər boyu yaratdığı mədəni irsi bizə nadir tarixi yadigarlarla ərməğan etmişdir. Təəssüf ki, onlarm böyük qismi indi mənfür və riyakar qonşularımızın tapdağı altındadır. Əsrlərə sinə gərmiş bu abidələr

hal-hazırda ən acı talelərini yaşayır. Belə abidələr sırasında vaxtilə ulularımızın böyük hörmət, ehtiram və sonsuz məhəbbət hisslərilə ucaltdıqları məbədlər də vardır. Ağdam rayonu Uti vilayətinin ən qədim tarixi abidələrinin qeydə alındığı məkandır [26, s. 130]. Təəssüflər olsun ki, hazırda Ağdam rayonunun işğaldan azad olunmuş ərazilərində daha çox maddi-mədəniyyət abidələrimiz in dağıdıldığı göz qabağındadır. Lakin,işğala qədərki dövrdə və müstəqillik illərində Ağdamın bir çox ərazilərində tariximizi yetərincə təsdiqləyəcək maddi-mədəniyyət abidələri, tikililərin mövcudluğu qazıntıların nəticəsi ilə təsdiqlənmişdir [147, s. 32]. Onlardan biri ilk erkən orta əsrlərə aid Ağdam rayonun Boyəhmədli kənddində yerləşən Govurqala məbədidir. O, bir nefli olub, şərq hissəsi apsida ilə qurtaran böyük ibadət və yardımçı otaqlardan ibarət memarlıq kompleksidir [101, s. 167]. Otağın uzunluğu 11, 95, eni isə 5,25m, sahəsi isə 62,4 kv.m–dir. Məbədin şimal-şərq hissəsinə bitişik olan yardımçı otağın uzunluğu 6, eni 3,35m, sahəsi isə 19,05 kv.m –dir. Otaqlar bir-birilə əlaqədar olmuşdur. Məbədin bütün divarları istər daxildən, istərsə də xaricdən yonulmuş və hamarlanmış daşlarla hörülmüşdür. Divarların möhkəmləyini təmin etmək üçün hörgünün arasına iri daşların qarışığından ibarət kütlə tökmüşlər [73, s. 18]. Divarların hörüldüyü zaman iri daşların bir-birinə daha yaxın düzülməsinə baxmayaraq, bəzən daşlar arasında boşluqlar əmələ gəlmişdir.Ustalar bu boşluqları yamaq daşları ilə doldurulmuşlar. Onlar divar boşluqlarının quruluşundan asılı olaraq, dördbucaqlı və kvadrat biçimli yamaq daşlarından istifadə etmişlər. Məbədin otaqların və mehrabın döşəməsi hamar yonulmuş müstəvi daşlarla örtülmüşdür. Bu daşlar dördbucaqlı formada olub, müxtəlif ölçüdədir. Onların uzunluğu 0,60-1,10m-ə, eni isə 0,40-0,85 m, qalınlığı isə 10-15 sm-ə qədərdir [101, s. 180].

Burada aparılmış tədqiqat işləri zamanı əldə edilən maddi-mədəniyyət nümunələrinin müqayisəli təhlilinə əsasən mütəxəssislər bu abidəni VIII-X əsrlərə aid edirlər.

Kaqankat məbədi. Uti vilayətinin Tərtər çay hövzəsində daha qədim xristian məbədlərindən biri Kaqankat şəhər – qalasının ətrafında olan kilsə-monastr kompleksidir. V.Henninq və Ç.Dovets hesab edirlər ki, Movses (Moisey)

Kaqankatvatsi təxəllüsü Kaqankaytukdakı Movses monastrının adından götürülmüşdür. Kilsə-monastr Kaqankat şəhər qalasının ərazisindən təqribən 2 km cənubi-qərbdə yerləşir. Kənd əhalisi kilsənin yerləşdiyi ərazini “Kilsə”, “Kilsə yeri” adlandırırdı. XX əsrin 20 ci illərinə qədər burada kilsənin dağılmış binasının qalıqları durur. Dağılmış qalıqlardan aydın olurdu ki, bina əsasən qara rəngli, çay daşından, xüsusi yonma üslu ilə VI-IX əsrdə inşa edilmişdir [15, s. 21]. Kilsə xarabalığının bitişəcəyində yer üstündə oval formasında aşağı pilləkanllı girişi olan və Qalaya doğru istiqamətlənən, yeraltı yol vardır. Bununla bağlı xalq arasında müxtəlif rəvayətlər mövcud olmuşdur.

Böyük Arran (Müqəddəs Yakob) monastrı –Kiçik Qafqaz dağlarının ətəyindəki Kolatağ kəndi yaxınlığında yerləşir. İki məbəddən və iki yarımçıq binadan ibarət olan kompleksin qərb tərəfdəki kilsəsinin uzunluğu 8 m, eni 3,4 m – dir. Məbədin nal formalı mehrab apsidası ibadət zalının döşməsindən kifayət qədər hündürdür. Məbədə cənub və qərb tərəfdən iki giriş qapısı var. Pəncərələrdən biri xaçlarla bəzədilmişdir. İkinci məbəd birincinin cənub-şərq küncünlə birləşir. Əvvəlki məbədlə eyni plan qurluşuna malikdir. Şərqdən qərbə doğru dörd hücrə yerləşmişdir. Məbədlərin divarları kobud qırma daşlardan hörülmüşdür [48, s. 180-181].

Müqəddəs Yakob monastırının xaç daşlarının birinin üzərindəki yuxarıda göstərilən yazıya görə belə hesab etmək olar ki, kompleks Böyük Arran yepiskopluğunun tərkibinə daxil edilmişdir. Arxeoloji tədqiqatlar məbədi VII-IX əsrlərə aid etməyə imkan verir [62, s. 84].

Təzəkənd məbədi. VI əsrə aid olan Alban məbədi Təzəkənd ərazisində Çataltəpə yaxınlığında yerləşir. Nal formalı mehrab apsidası düzbucaqlı məbədin şərq divarından kənara çıxmışdır. Uzunluğu 16,5 m, eni 9,2 metr olmuşdur. Məbəd üçnefli olub, sütunların en kəsiyi xaç formalı olmaqla bir birindən 2 metr məsafədə yerləşmişdir. Orta nefin eni 5 m, yan neflərin eni 2,1 metr-dir. Orta nef mehrab apsidası ilə tamamlanır. Düzbucaqlı patoforilərin yarımdairəvi apsidası mehrab apsidasından fərqli olaraq məbədin düzbucaqlı çərçivəsi daxilindədir. Məbədin

girişi qərbdəndir. Tikintidə qırma daşdan və bişmiş kərpicdən istifadə olunmuşdur [48, s. 38-41].

Yuxarıda deyilən fikirləri ümumiləşdirsək belə nəticəyə gəlmək olar ki, haqqında bəhs etdiyimiz dövrlərdə, gördüyümüz kimi müxtəlif növ dəfn adətləri mövcud olmuşdur. Beləliklə, tədqiq olunan ərazilərdə xristianlığa qədər daha çox bütpərəstliklə bağlı olan dəfn adətləri, sonralar xristian dini adətlərinə uyğun olan dəfn qaydaları, nəhayət Azərbaycanın Ərəb xilafətinin tərkibinə daxil olması ilə islam adətlərinə uyğun dəfn qaydaları mövcud olmuşdur.

Azərbaycan ərazisində tarixən müxtəlif növ dəfn adətlərinin mövcud olmasını şərtləndirən başlıca amillərdən birincisi, bu torpaqlarda çoxlu sayda öz adət və ənənələrini qoruyub saxlayan etnik birliklərin mövcud olması ilə, ikincisi isə müxtəlif dilə və dinə mənsub olan yadelli işğalçıların müxtəlif vaxtlarda bu əraziləri özlərinə tabe etməsi ilə izah etmək olar.

Xarxaput məbədi. Goranboy rayonun dağlıq hissəsindən axan Qarasu çayının kənarında Meşəli kəndində yerləşir. Bəzi alimlər Xarxaput adını xarxa qarqar sözü iə bağlayırlar. Q.Qeybullayev də xaput və ya haputların qədim alban tayfaları olduğunu qeyd edir. Xaputlu kəndi Ağdaş və Göyçay qəzalarında qeydə alınmışlar [61, s. 134].

Xarxaput məbədi memarlıq baxımından Mingəçevir, Ağdam rayonundakı Govurqala, Oğuz rayonundakı Calut, Göygöl  rayonundakı Band, Azad (Yeni Zod) Qarabulaq, Gədəbəydəki Qalakənd məbədlərinə daha yaxındır. Tikinti xüsusiyyələrinə görə Xarxaput məbədi VI-VII əsrlərin tikintilərinə çox oxşardır. Xarxaput məbədi də Müqəddəs Yelisey monastırında olduğu kimi bir neçə məbəddən ibarətdir.

Abidənin divarları yanında aparılan tədqiqatlar da bu məbədin hələ VII əsrə qədər tikildiyini, XII-XIII əsrlərdə isə onun yenidən bərpa edildiyini əsaslandırmağa imkan verir. Məbəddəki kitabələrdən birində onun tarixi bərpa olunduğu dövrdən, yəni  1230-cu ildən qeyd edilir.

Çaykənd məbədi Kiçik Qafqazın ətəklərində, Çaykənd-Göygöl yolunun sağında, Çaykənd kəndinin yaxınlığında yerləşir. Məbəd sal qaya üzərində

qurulub. Məbədin uzunluğu 11 m, eni 7 m, hündürlüyü təqribən 6 m-dir. Divar boyu xaçlar yerləşdirilib. Tağbənd formalı qapısı var. Qapının eni 40 sm, hündürlüyü 1 m. 35 sm, divarın eni 80 sm. Sol tərəfində, qapının ağzında, aşağı tərəfdə kitabə var. Kitabənin üstündə alban yazıları və xaçlar yerləşdirilib. Divarda şamlar qoyulmaq üçün yerlər var. Yaxınlıqda bulaq yerləşir [69, s. 267].

Murov dağının hündür zirvələrindən birində yerləşən Band məbədi Yeni Zod kəndindən 15 km şimal-qərbdə, dəniz səviyyəsindən təqribən 2800-3000 metr hündürlükdə, yüksək dağ zirvəsində yerləşir. Məbədin yerləşdiyi dağın zirvəsində təqribən 0,25 hektar sahəni əhatə edən düzənlik var. Band məbədinin yerləşdiyi dağın ətrafında cənub-şərqdə Gamışdağ zirvəsi, Kəpəz dağı, qərbə doğru Güzgü və Koroğlu zirvələri, Qoşqar dağı yerləşir. Band məbədi Zurnabad kəndindən təxminən 3 km, Topal Hasanlı kəndindən 6-7 km, Keşikçi (Qara Keşiş – Z.Q.) kəndindən 10 km, Mirzik kəndindən 8 km cənub-şərqə doğru yerləşir. Məbəd bir növ ətraf kəndlərin mərkəzində ən hündür zirvədədir. Yerli əhali Band məbədindən ziyarətgah (ibadətgah) kimi də istifadə edir.

Məbədin tkintisi Albaniyada xristianlığın qadağan olunduğu dövrə aiddir. Ona görə də o, həm də müdafiə məqsədi ilə belə hündürlükdə tikilə bilərdi, çünki ətrafdan yollar keçsə də, zirvəyə qalxmaq çox çətindir. Həm də məbədin arxa tərəfində onun yola doğru baxan hissəsində iki ədəd mazqal formalı müşahidə və şərqə doğrü müdafiə dəliyi qoyulmuşdur. Məbədin nəfəsliyinin üstündə iki ədəd baş-başa durmuş quş təsviri var. Band məbədinin eni 4 m, uzunluğu 8 m, hündürlüyü yanlarda 3,5 m, orta hissədə 5,5 m-dir. İçərisində iki yerdə tağı var. İki pəncərə yeri var. İki yerdə şam qoymaq, çit bağlamaq üçün yer var. Divarın eni 80 santimetrdir. Üstü sonradan bərpa zamanı ağ mərmərlə döşənib. Qapının üstündə sağ və sol hissələrdə dairəvi xaçlar var. Xaçlar divarda oyma üsulu ilə düzəldilmişdir. Bu cür xaçlar məbədin içərisindəki sütunların birləşdikləri yerin alt və üst tərəflərində də var. Məbədin şimal divarında olan xaçlar istisna olmaqla yerdə qalanları bərpa zamanı ermənilər tərəfindən dəyişdirilib [73, s. 36]. Müəllif tərəfindən sonradan həmin ərazidə aparılan araşdırmalar məbədin yerləşdiyi

ərazidə həmdövr qəbristanlığın və yaşayış yerinin olduğunu aşkarlamağa imkan verdi.

Yeni Zod məbədi üç neflidir. Uzunluğu 17,3 m, eni 11, 2 m, divarıneni 85 sm-dir. Qaya daşı ilə hörülmüş məbədin üzərinə qırmızı rəngli yerli daşdan üzlük çəkilib. Giriş qapısının solunda, birinci salonun alt hissəsində gizli zirzəmi formalı yer var. Onun hündürlüyü 1 m 25 sm, eni 1,6 m, uzunluğu 2,1 m-dir. Məbədin Yeni Zod kəndinə baxan hissəsində 3 ədəd müşahidə dəliyi var. Ona nəfəslik, yaxud kiçik pəncərədə demək olar. Məbədin özülü qaya üzərində yerləşir. Bünövrəsi çay daşındandır. Məbədin şərq tərəfində 3 ədəd pəncərəsi var ki, onlardan biri çox dağıdılmış formadadır. Tağbənd formalı pəncərələrin hündürlüyü 2,2 m, eni 1,1 m-dir. Divarda bir neçə yerdə əlizləri ovulub. Qərbə doğru divarda çöl tərəfdə alban hərf işarələri var.

Qarabulaq məbədi. Murov dağının ətəklərindəki Sarısu kəndindən 8,5 km şimal-qərbdə Sarıqaya yaxınlığındakı meşədə yerləşir. Məbədin giriş qapısının üstündə xaç işarələri, otağında üç pəncərəsi, şam qoymaq üçün sandıq formalı tikililər, cənub künclərdə din xadimləri üçün uzunu 3,1 m, eni 1,6 m olan otaqlar var. Məbədin uzunluğu 15,5 m, hündürlüyü 7,5 m-dir. Tədqiqatlar göstərir ki, əhali bu ərazidə eramızdan əvvəlki dövrlərdən məskunlaşmış, eramızın IV əsrində xristianlığı qəbul etmiş və bununla əlaqədar xristian məbədlərinin tikilməsinə başlamışlar. Qafqaz Albaniyası ərazisindəki məbədlərin bir qismi köhnə bütpərəst məbədlərin üzərində tikilsə də, digərləri onların rekonstruksiyası nəticəsində yaranmışdır. Qalın meşəlikdə yerləşən Qarabulaq məbədi ərəblərin işğalı dövründə xristian albanlar tərəfindən əvvəllərdən də əhalinin inanc yeri olan sahədə tikilmişdir. Bu məbədin də tikilmə dövrü VII-VIII əsrlərə aid edilir.

Yaşayış yerlərinin bir-biri ilə ilə əlaqələndirilməsində, onlar arasındakı iqtisadi vəziyyətin yaxşılaşdırılmasında körpülər mühüm əhəmiyyət kəsb edir. Tarixi Uti vilayətinə daxil olan Goran çayı üzərindəki körpüdən danışdıqda aparılan arxeoloji tədqiqatlar onun bir yox, iki olması fikrini təsdiq edir. Birinici körpü Şəmmədli kəndi yaxınlığında: sel yumaları vaxtı 3,1 m dərinlikdən aşkar edilmişdir. Körpünün eni 3,5 m, uzunluğu 12  m-dir. Körpü üç aşırımlıdır. Hər bir

aşırımın eni 2 m-ə yaxındır. Aşırımların sayının müxtəlifliyi çay yatağının eninin az-çoxluğu ilə bağlıdır. Hal-hazırda görünən hissə körpünün alt hissəsidir. Yerli şəraitə uyğun olaraq çay daşı və əhəng qarışığı ilə tikilmiş bu körpünün su axan hissəsindən kərpic döşəmə salınmışdır. Sasani dövrünün sonuna - VII əsrə aid tikinti materiallarını xatırladan bu kərpiclər sel daşqınları zamanı körpünün dayaqlarının yuyulub aparılmasının qarşısını almaq üçün edilmişdir. Bu məqsədlə körpünün qarşısında quruluşuna görə üçbucaq formasında olan, onu mühafizə edən və möhkəmliyini artıran dalğaqıranlar da düzəldilmişdir [72, s. 87].

Birinci körpünün sahil dayağının suya batan səthində iki ədəd dairəvi boşluqları olan körpü tağının dabanı da görünür. Belə müəyyən etmək olur ki, onlar hörgünün içərisinə qoyulmuş ağac bağlayıcıların yuvalarıdır.

İkinci körpünün inşasını isə heç də birinci ilə eyni dövrə, yəni III-VII əsrlərə aid etmək olmaz. Aydın məsələdir ki, ikinci körpünün tikilməsi birincinin sıradan çıxması ilə bağlı olmuşdur. IX əsrdən etibarən Gəncə və Şətəl şəhərlərinin Bərdə və Tiflis arasında orta əsr qalası kimi əhəmiyyətinin artması ilə əlaqədar köhnə körpünü bərpa etməkdənsə, indiki Rəhimli kəndinin üst tərəfində, müasir Goranboy-Gəncə yolunun keçdiyi Goranboy körpüsündən təxminən 600-700 metr aralı yeni körpü salınması daha məqsədəuyğun hesab edilmişdir. Birinci və ikinci körpülər arasındakı məsafə təxminən bir kilometrdir.

İkinci körpünün sıradan çıxması isə monqolların Gəncəni və Şətəli dağıtdıqları dövrə aid edilir. Lakin aparılan tədqiqat və müşahidələr yenidən təmir edilməsi və uzun müddət istifadə olduğu fikrini söyləməyə əsas verir.

Bərdə şəhəri ərazisində, Tərtər çayı üzərində yerləşən körpülər də bu əlaqələrdə mühüm rol oynamışdır. Keçidlərdən asılı olaraq körpülərin aşırımları müxtəlifdir.

## 2.5 Arxeoloji materialların təhlili

Uti vilayətinin erkən orta əsrlər dövrünə aid olan maddi mədəniyyət qalıqları əsasən Şirsiz saxsı məmulatlarından daş, metal əşyalardan ibarətdir. Ancaq bununla yanaşı erkən orta əsrlərin son mərhələsinə yaxın əsasən IX əsrin əvvəllərindən başlayaraq artıq şirli saxsı qablar istehsalına da başlanıb. Bununla

bağlı olaraq ilk orta əsrlərə aid gil qabları əsasən şirsiz keramika olmaqla aşağıdakı növlərə bölünür. küplər, sərniclər, xeyrələr, dopular, bərnilər, qapaqlar, çıraqlar və başqa qablar daxildir.

Küplər. Erkən orta əsrlərdə əhalinin təsərrüfat həyatında küplərin mühüm yeri vardı. Küplər iri və orta həcimli olmaqla əsasən iki qrupa bölünür.Yaşayış yerlərinin birinci mədəni təbəqəsində orta həcimli, ikinci təbəqəsindən isə iri həcimli küplər üstünlük təşkil edir. Maye və taxıl saxlamaq üçün işlənən küplərə Uti vilayətinin yaşayış yerlərinin hər iki mədəni təbəqəsində təsadüf edilmişdir. Orta həcimli küplərin müəyyən hissəsi istisna edilməklə, demək olar ki arxeoloji qazıntılar nəticəsində tapılan küplərin çoxu əl ilə hazırlanmışdır. Ona görə də küplərin daxili və xarici səthində ustanın əl izlərinə rast gəlinir. Ergi düzündən, Qaraköpəktəpədən, Yedditəpədən tapılan orta həcimli küplərin hündürlüyü 0,45-0,9 m, gövdələrinin diametri isə 0,35-0,5 m-ə qədərdir. Bu növ küplərin bəzilərinin ağzının kənarında sərniclərdə olduğu kimi iki vertikal qulpu vardır. Bu cəhətdən arxeoloji qazıntılar nəticəsində tapılan kiçik həcimli küplər sərniclərə oxsardır(tablo 1). .Arxeoloji qazıntılar nəticəsində Uti vilayətindən tapılan iri küplərin hündürlüyü 1-1,5 m, gövdəsinin diametri isə 0,7-1 m, divarının qalınlığı isə 2-4 sm -ə qədərdir. Gen ağızlı, boğazsız və dik formalı iki quplu küplər də tapılmışdır. Q.İsmayılzadənin 1976 ci ildə Qubadlılda apardığı arxeoloji qazıntılar nəticəsində erkən orta əsrlər dövrünə aid iri küplər tapılmışdır. Həmin küp qırmızı rəngli olmaqla qum qatışıqlı gildən hazırlanmışdı. Onun enli ağız hisəssi, nisbətən dar oturacağı vardır.Hündürlüyü 70-80 sm idi. Gövdəsinin diametri isə 60 sm olmuşdur. Qeyd olunan yerdən tapılan ikinci gil qab kiçik ölçülü olub, yuvarlaq gövdədən küpədən ibarət idi. Maraqlıdır ki, qulpsuz olan bu küpün çiyin hissəsində düyməciklər şəklində bəzəklər də var idi. Təsvir edilən qab qırmızımtıl-boz rəngli idi[149, s. 3]. Təsərrüfat küpləri isə əsasən Uti vilayətinin bütün ilk orta əsr yaşayış yerlərindən aşkar edilmişdir [92, s. 14]. Hündür boğazlı küplərin bəzən 2-4 ədəd dəstəyi olurdu. Dəstəyin üstündə konusvari çıxıqlar düzəldilmişdir. Qulpsuz iri küplər torpağa basdırılır, dəstəkli küplər isə anbarın içərisinə, otaqların künclərinə qoyulur və lazım gəldikdə yeri dəyişdirilirdi. Dəstəkli küplər bəzəklərinə görə iki

yerə ayrılır: birinci qrup küplər ağ anqobla örtülmüş və memarlıq bəzəkləri ilə naxışlanmışdır. Onların üstündə bəzən yazıya da təsadüf olunur. Beyləqandan tapılmış, üzərində Əzizin oğlu Əlinin adı olan küp buna misal ola bilər. İkinci qrup küplər isə üstü şüyrələnmiş və qırmızı rənglə boyanmışdır. Onların üstü müxtəlif təsvirlər olan zolaqlarla naxışlanmışdır. Bəzən belə küplər başdan-başa firuzəyi şirlə örtülmüşdür. Onların oxşarları Beyləqandan tapılmışdır. Bu küplərdən məclislərdə şərab və yaxud şərbət içmək üçün istifadə olunmuşdur. Bu tip qab nümunələrinin Uti bölgəsində əlavə, Azərbaycanın digər ərazilərində mövcud olması istisna edilmir. Qulpsuz iri təsərrüfat küpləri Azərbaycanın o cümlədən Uti vilayətində Govurqalada, Qarakpəktəpədə, Yedditəpədə, aparılan arxeoloji qazıntıların erkən orta əsrə aid mədəni təbəqələrindən aşkar olunmuşdur [120, s. 2; 52, s. 48] (Tablo 2).

Dolçalar. Erkən orta əsrlərdə Uti vilayətində geniş yayılmış gil qab nümunələrinin bir hissəsini dolçalar təşkil edir. Sonrakı dövrlə müqaisədə erkən orta əsrlərdə dulus məmulatı içərisində dolçalar az tapılmışdır. Bərdə, Füzuli, Ağdam, Ağcabədi, Tərtər ərazisində müxtəlif formalı dolça nümunələri arxeoloji qazıntılar nəticəsində aşkar edilmişdir [117, s. 2-4; 54, s. 39].

Dolçalar ən çox Azərbaycanın ilk orta əsr abidələrindən Xınıslı daş qutu, Mingəçevirin katakomba və Yardımlı rayonu Yolocaq kəndinin küp qəbirlərindən də tapılmışdır .

Dopular. Uti bölgəsində erkən orta əsr gil məmulatı içərisində dopular geniş yayılmış qab tiplərindəndir. Onlar qulpsuzdur , kiçik və orta tutumludur. Uti vilayətindən arxeoloji qazıntılar zamanı tapılan dopular xarici görünüşünə görə iki qrupa ayrılır.

1) Boğazı azacıq boğmalı, gövdəsi isə xaşal dopular. Bunların üzəri naxışsız və zərifdir.
2) Üzərinə qazma üsulu ilə bir-birinə paralel dairəvi xətlərlə naxış vurulmuş, hündür, dar boğazlı, orta həcmli dopulardır. Onların oturacağı isə yastıdır.

Yedditəpə yaşayış yerində qəbir abidəsində aparılan arxeoloji qazıntılar zamanı erkən orta əsrlər dövrünə aid müxtəlif formalı gil dopu qab nümunələrinə rast

gəlinmişdir [51, s. 32] Orta tutumlu və qulpsuz olan bu cür dopular xarici görünüşünə görə boğazı boğmalı, gövdəsi isə xaşal formalı idi. Govurqalada da birinci qazıntı sahəsindən iki ədəd bir birindən fərqli dopu aşkar edilmişdir(Tablo 10, şəkil 3). Onlardan biri qulpsuz olub narıngildən hazırlanmış və qırmızı rəngdə bişirilmişdir. Üzəri məsaməlidir.Qab yastı formalı və enli ağızlıdır.Digər dopu isə nisbətən böyük olub, ağzı çox enlidir.Onun bir tərəfindən lövhələri çıxıq düzəldilmiş, həmin çıxıqın ortasından isə kiçik barmaq keçə bilən dairəvi deşik açılmışdır. Bu qabda narın gildən hazırlanmışdır[149, s. 9] Bu cür dopulara həmçinin Uti vilayətinin erkən orta əsr yaşayış yerlərindən aşkar edilmişdir [139, s. 228-229; 133, s. 11-20].

Xeyrələr. Erkən orta əsrdə gil qab nümunələri olan xeyrələr formasına görə dayaz və dərin olmaqla iki hissəyə bölünürdü. Onların üstü sadə bəzəksiz olurdu. Govurqalada da aparılmış arxeoloji qazıntılar zamanı qazıntının üst layından təxminən 20-30 sm dərinlikdən xeyrə tipli qab nümunələri tapılmışdır. Həmin qablardan biri şirin altında qab tamamilə anqoblanmışdır.Yalnız anqobdan ibarət kobud nöqtələrlə mərkəzi dairələnmişdir (tablo 20, şəkil 4 ).həmin qabın formaca oxşarı , lakin bir sıra cəhətlərinə görə fərqlənən qabda həmin yerdə tapılmışdır. Lakin bu qab formaca kicik olub, içərisi boz rəngli anqobla örtülmüşdür(tablo20, şəkil1). Xeyrə tipli qabların ağız hisəssi bəzilərinin kənarları dişli kəsiklərlə bəzədilmişdir. Yeddltəpədə, Qaraköpəktəpədə tapılan xeyrə tipli qablar əllə hazırlanmış və boz rəngdədir. Onların divarının qalınlığı 28 sm-dir.Qab oturacaqdan başlayaraq yuxarı getdikcə çölə doğru maili vəziyyəti alır. Hündürlüyü 6,5 sm –dir. İçərisi dayaz olmaqla üzərinə rəngsiz qatı məhluldan anqob çəkilmişdir.

Camlar. Erkən orta əsr gil məmulatı içərisində camlar da böyük yer tutur. Camlar əsasən iri ağzı novlu və nazik incə formalı olurdular. Camların digər gil məlumulatlardan fərqi yaxşı cilalanmağı və hamarlığı ilə seçilirdi.

Bu tip gil qab nümunələrinə Azərbaycanın demək olar ki, bütün ilk orta əsr abidələrində rast gəlinib [92, s. 15]. Uti vilayətinin Kaqankat şəhərində, həmçinin Yedditəpə yaşayış yerlərində aparılan arxeoloji qazıntılar zamanı açılan

sərdabələrin birindən əldə olunan oturacağı çiçək şəklində böyük ustalıqla qabarıq naxışlarla bəzədilmiş kiçik şüşə cam neçə əsrlər torpaq altında qalmasına baxmayaraq öz şəffaflığını qoruyub saxlamışdır [54, s. 32].

Bərnilər. Erkən orta əsrlərdə Uti vilayətinin əhalisinin təsərrüfatında əsas rol oynamış məişət qablarından biri də bərnilərdir. Arxeoloji qazıntılar nəticəsində tapılan bərnilərin çoxu içərsində ehtiyat ərzaq məhsulları saxlamaq üçün işlənən ortahəcimli, qulpsuz və gövdələri az xaşal olanlardır. Əldə olunmuş bərnilər xarici formasına görə iki qrupa bölünür. Birinci tip bərnilər gövdəsi uzunsov olub, oturacağı yastı, ağızı isi dairəvi olanlardır. İkinci tip bərnilər isə ağzı dairəvi, gövdəsi az xaşal üstü naxışsız bərnilərdir. Onların hündürlüyü 17-22sm , ortadan diametri 16-21 sm olan bərnilərin divarı birincilərə nisbətən nazikdir.

Kuvəclər. Arxeoloji qazıntılar nəticəsində Uti vilayətində erkən orta əsrlər dövrünə aid kuvəclərə də rast gəlinmişdir. Erkən orta əsr yaşayış yerlərindən tapılmış kuvəclərə məxsus üçbucaq və ya dairəvi qulplar güllərinə və hazırlanma üsullarına görə eyni olsalar da bəzi əlamətlərinə görə bir-birindən fərqlənirlər. Qrupa daxil olan qulpların bir qismini üçbucaq formada hazıranmış kuvəc qulplardan biri nisbətən qarışıq tərkibli gildən hazırlanmışdır. Üzəri gövdəyə doğru batıq xətlə bir-birinə paralel sürətdə bəzədilmişdir. Digər qulpda kuvəcə məxsus olub, nisbətən narın gildən və incə hazırlanmışdır. Əvvəlki qulpa nisbətən bu bir qədər kiçik həcimli kuvə aiddir. Bu qulpun da üzəri naxışlanmışdır. Naxış qulpların kənarları ilə düzülmüş batıq nöqtələrdən və bütün qulp boyu batıq xətlə çəkilmiş haşiyadan ibarətdir. Üçkünc formada hazırlanmış qulplardan biri qabın gövdəsinin bir hissəsi ilə birlikdə aşkar edilmişdir.O enli ağızı tabaqvari qaba məxsus olub, bir qədər kobud hazırlanmışdır. Hazırlanan zaman onun uc hissəsi bir qədər əzilmiş və beləliklə də simmetriya pozulmuşdur. Qulpun qaba birləşən yerində hər tərəfdə iki olmaq şərti ilə dörd batıq nöqtə qoyulmuşdur. Bu nöqtələr bir tərəfdən qulpu qaba daha möhkəm birləşdirmək üçün edilmişdirsə, digər tərəfdən də onlar bəzək rolunu oynayırlar. Bu növ qulplara Qaraköpəktəpədə, Yedditəpədə, Bərdədə, Kaqankatda, Govurqalada rast gəlinmişdir. Kuvəc tipli qabalra məxsus qulpların bir qismində çubuqvari düzəldilmiş və ya lentvari hazırlanmış yarım dairəvi olanları üstünlük

təşkil edir. Onlardan biri narıngildən səliqəli hazırlanmış və enli ağızlı qaba məxsusdur. O, çubuqvari düzəldilmiş və qaba birləşən yerdə hər tərəfində biri olmaq şərti ilə iki kiçik hədd cızılmışdır.Bu xətlər yalnız bəzək rolunu oynamışdır. Yarımdairəvi qulpların digər bir hissəsi nisbətən qarışıq gildən lentvari düzəldilmiş və qalınlığından hiss olunur ki, iri həcimli qaba məxsusdur. Onun üzəri sayadır.

Kuvəc qulplardan danışarkən müstəsnalıq təşkil edən daha bir qulpdan da bəhs etmək lazımdır. Bu qulp öz forması ilə əvvəlkindən fərqlənir. Belə ki, qalın və lentvarihazırlanmışdır. Qaba şaquli düzəldilmiş bir qulp tam dairəvi formada hazırlanmışdır. Enliağızlı qaba məxsus olan bu qulp qabın ağzına yaxın onun çiyini üzərində düzəldilmişdir.Bu növ qulplar eneolit dövründən başlayaraq məişətə daxil olmuş və orta əsrlərərə kimi davam etmişdir[72, s. 54].

Qapaqlar. Azərbaycanın ilk orta əsr gil qablarının (qazanların, küplərin, xeyrələrin, camların) özlərinə məxsus qapaqları olmuşdur. Gil qablar müxtəlif olduğu üçün onların qapaqları da fərqli idi. Arxeoloji qazıntılar zamanı tapılan qapaqlar Qafqaz Albaniyasının erkən orta əsr gil qapaqlarını iki qrupa ayırmağa imkan verir. Birinci qrupa boruformalı, tutacağı olan qapaqlar daxildir [92, s. 16]. Boru formalı yarımdairəvi qulplu qapaqlar Uti vilayətinin Govurqala yaşayış yerlərində də tapılmışdır. İkinci qrupa qulpu əvəz edən müxtəlif formalı çıxıntıları olan qapaqlar aiddir. Uti vilayətinin inkişaf etmiş mərkəzlərindən olan Bərdədə ilk orta əsrlərə aid müxtəlif məişət və təsərüffat qablarının gil qapaqları tapılmışdır. Həmin təssərüfat küplərinin qapaqlarının diametri 30, qalınlığı 3 sm-dir.(Tablo 13). Adətən qapaqlar hansı növ qab üçün hazırlanmasından asılı olaraq saxsının rənginə, ölçülərinə üzərinə vurulan naxışlarına və formalarına görə bir-birindən fərqlənirlər. Gil qapaqların forması qabın ağzının qurluşundan asılı olmuşdur. Onlar adətən yastı, boru formalı, dairəvi olub, kiçicik qulplu olurdular.

Qazanlar. Əsas etibarilə yarımşar formadadır, onların əksəriyyətinin dairəvi oturacağı var, ancaq dayaz qazanların oturacağı yastıdır. Geniş boğazlarının ağız hissəsi bir az içəri qatlanmışdır, qulpları kiçik və cəftəvaridir [106, s. 60-65]. Onların yarımşar şəkilli oturacağı əl ilə, boğaz hissələri isə dulus çarxında formalaşdırılmışdır. Əl ilə bütöv hazırlanan qazanlara da təsadüf olunur. Onların

oturacağını formaya salmaq üçün torba üsulundan istifadə edilmişdir (Yarımşar şəkildə tikilmiş torba qumla doldurulur, torba gil ilə suvandıqdan sonra içərisi boşaldılır, beləliklə, qazanın oturacağı alınırdı). Bəzi qazanların novça və lülə şəkilli burunları var. Qazanların çiyin hissəsinə, başlıca olaraq dərin nöqtələr, xətlər, çərtmələr və bəzən firuzə rəngli şirli qab qopuqları ilə düzəldilmiş bəzəklər vurulmuşdur. Fizuli rayonu ərazisində Qaraköpəktəpə yaşayış yerindən tapılan qazanlarda yapma naxışlara təsadüf olunur [117, s. 58] (Tablo 14).

Bardaqlar. III-IX əsrlərdə Uti vilayətində Bardaq tipli gil qablara da rast gəlinir.Arxeoloji qazıntılar nəticəsində erkən orta əsrlərdə Uti vilayətindən əldə olunmuş bardaqlar xarici formasına görə müxtəlifdir. Onlar tək qulpla təchiz olunmuşdur. Forma və hazırlanmasına görə onları üç qrupa ayırmaq olar. Birinci qrupa boğazları uzunsov və ağızları dairəvi, ikinci qrupa isə gövdəsi xaşal lüləli, üçüncü qrupa isə ağzı novlu bardaqlar daxildir. Orta həcimli bardaqların ağızı iri gövdələri xaşal rəngi qara boğazı dairəvi, qulpunun üstündə isə bir-birinə paralel qazma xətlərlə bəzəklər vurulmuşdur. Oturacaqları yastıdır.

Ağzı dairəvi, kiçikhəcimli bardaqların əksəriyyətinin rəngi qaradır. Onalr hamısı əəl ilə formalaşdırılmış və üzəri müxtəlif üsulla vurulmuş naxışlarla bəzədilmişdir. Çöl tərəfindən üstü şüyrələnmiş, üzərinə isə qabırğavari, bir-birinə paralel qazma, düz və dalğavari naxışlar vurulmuşdur[92, s. 12].

İkinci qrup bardaqların rəngi açıq-qırmızı, qulpları yastı və boru formalıdır. Bu tip bardaqların ümumi hündürlüyü 30-35 sm-dir.Bunlar da gövdədən oturacağa tərəf kobud, yuxarı hisəssi isə hamar və səliqəli formalaşdırılmış və yapma, qazma, basma naxışlarla bəzədilmişdir.

Üçüncü qrupa ağzı novlu gövdələri armudavari, oturacaqları yastı, üzərində bütün üsullarla (yapma, basma, qazma) vurulmuş naxış olan bardaqlar aiddir. Birinci və ikinci qrup qablardan fərqli olaraq bunlar yaxşı bişirilmiş, müxtəlif formalı naxışlarla bəzədilmişdir[92, s. 13]. Ağzı dairəvi, kiçikhəcmli bardaqların çoxuna Şortəpədə və Balatəpədə rast gəlinir. Onların hamısı əl ilə formalaşdırılmış və müxtəlif üsulla naxışlarla vurulmuşdur.[52, s. 47] (Tablo 4 şəkil 1,3,4,9).

Ağzı dairəvi bardaqlar Uti vilayətindəki yaşayış yerlərinin V-VII əsrlərə aid təbəqələrindən aşkar edilmişdir. Ağzı novlu bardaqların içərisində gövdəsi uzunsov, şarşəkilli qablar xüsusi yer tutur. Onların bəzilərinin boğazı dar və yuxarı getdikcə qıf formasında açılır. Qabların əksəriyyətinin hündürlüyü 15-17 sm, gövdəsinin diametri 12-14 sm-ə bərabərdir [92, s. 9].

Ağzı suddanvarı olub VI-VII əsrlər üçün xarakterik bardaq tipli qablar Uti vilayətinin Ağdərə ərazisində aşkar edilmişdir.

Arxeoloji qazıntılar zamanı Govurqalanın birinci qazıntı sahəsindən iki ədəd dopu və bir ədəd bardaq boğazı tapılmışdır. Onlar təxminən qazlntının 1,5-2 m dərinliyindən aşkar edilmişdir. Haqqında danışdığımız bardaq boğazı ağzının qurluşu etibarı ilə maraqlıdır( tablo 10, şəkil 2). Belə ki, o ağız tərəfdən enlidir, aşağıya doğru getdikcə nisbətən daralır.Qabın ağzı novcalı düzəldilmişdir. Həm də novca qabın ağzının kənarlarını ortadan sıxıb, bir-birinə birləşdirmək üçün gildən oraya xüsussi bənd salınmışdır. Beləliklə, qabın ağzı iki hissəyə bölümüşdür və bir tərəfdən bir növ kiçik lülə yaradılmışdır.Qab ümumiyyətlə, narın gildən hazırlanmış və qırmızı rəngdə bişirilmişdir.Onun gövdəyə birləşən yerində lentvari yuvarlaq formada iki qurşağı vardır. Bu tip bardaqlara , Şortəpədə, Qarakopəktəpədə daha çox rast gəlinmişdir(tablo 15).

Həmçinin Azərbaycanın digər bölgələrində Qəbələdə, Zərdabda, Mingəçevirdə erkən orta əsrlər dövrünə aid bu cür bardaqlara rast gəlinmişdir.

Duz qabları. Erkən orta əsrlərdə Uti vilayətində artefaktları təhlil edərkən, dulusçuluq istehsalının aparıcı sahəsi kimi daha çox məişət keramikasından söhbət açmaq olar. Aparılan arxeoloji qazıntılar zamanı çoxlu sayda müxtəlif formalı yaxşı hazırlanmış şirli və şirsiz gil duz qablarına təsadüf olunmuşdur. Məişət keramikasının geniş yayılmış və çox istifadə olunmuş bu növünə Qaraköpəktəpə yaşayış yerində daha çox rast gəlinmişdir ( tablo 16, 1-2-ci şəkillər, tablo 11, 1-10-cu şəkil). Ümumiyyətlə, bütün tarixi dövrlərdə olduğu kimi duz məmulatından bütün orta əsrlər boyu məişətdə geniş istifadə edilmişdir. Duzdan daha çox ərzaq məhsullarının, xüsusən ət məhsullarının xarab olmaması üçün davamlı istifadə olunurdu. Belə tapıntılara Yedditəpə ərazisində də rast gəlinir.

Zoomoof qablar. Erkən orta əsrlərdə istehsal olunan Zoomoof qablar xarici görünüşlərinə görə ev heyvanlarına oxşadılmışdır. Arxeoloji qazıntılar zamanı tapılan zoomorf qabların bəzilər heyvan fiquru üstündə hazirlanmiş, bəzi qabların isə qulpu və ağzı heyvan fiqurlarına oxadılmışdır. Uti bölgəsində, erkən orta əsr abidələrindən əldə edilmiş gil məmulatı içərisində, çoxda olmasa, zoomorf qablar vtapılmışdır. Bu tip gil qab nümunələrinə əsasən Fizuli rayonu ərazisində yerləşən Yedditəpə yaşayış yerində rast gəinib. Bu ərazidə aparılan arxeoloji qazıntılar zamanı qəbirlərin birindən tapılan incəsənət əsərləri içərisində dağ keçisi, qartal və s. fiqurlar da vardır.Bəzi qəbirlərdə iri ölçülü təbii şəvə və muncuqlar, yaqutdan və qiymətli daş süxurlarından yonulmuş bəzək nümunələri, qaşı müxtəlif təsvirli kiçik möhürlü üzüklər, eləcə də metal bəzəklər aşkar olunmuşdur.Qırmızı rəngli yarımdairəvi bir möhürün üzərində mikroskopik ölçüdə şir başı təsviri  və Sasani yazısı da həkk olunmuşdur [54, s. 103]. Yaşayış yerində çoxlu sayda şüşə qaşlı üzüklərə rast gəlinmişdir. Bu cür üzüklərdə heyvan təsvirləri maral, keçi, şir və s. daha çoxluq təşkil edir. Bu üzüklərin dövrü IV-V əsrlərə aiddir və Azərbaycanm digər erkən orta əsr abidələrindən aşkar olunmuş üzüklərlə oxşarlıq təşkil edir [95, s. 75]. Uti vilayətində erkən orta əsrlərə aid gil məmulatları içərsində çoxsaylı tikinti materiallarına rast gəlinmişdir. Bunların içərsində gil kərpiclər, kaşı, kirəmit və su tünglərin və s. rast gəlinmişdir. Belə ki, Bərdə ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən yaşayış binaları, ictimai və təsərüffat tikillilərinin qalıqları,eləcə də su təchizatı və başqa tikinti materialları içərsində gil məmulatı başlıca yer tutur. Gil məmulatı olan bişmiş kərpic inşaat materialları içərsində geniş yayılmışdır. Uti vilayətində erkən orta əsrlərə aid kərpic nümunələri düzbucaqlı, müəyyən həndəsi fiqur şəklində olmuşdur. Tikintilərin dərindən öyrənilməsi hansı sosial təbəqələrin olmasını təyin etməyə imkan verir. Tikintidə istifadə olunan kərpic, eləcə də kirəmitlər qəliblərdə formalaşdırılırdı. Bərdədə ilk orta əsrlərə aid tikililərin öyrənilməsi göstərir ki, çox vaxt binanın aşağı hissələri bişmiş kərpiclərlə tikilmişdir. Həmçinin Uti vilayətində ilk orta əsrlərdə evlərinin çoxunun üstü kirəmitlərlə örtülü olurdu. Tikinti materialları içərsində erkən orta əsrlər dövründə Uti vilayətində su təchizatında arxlar və kəhrizlərlə yanaşı, gil məmulatı olan saxsı

su tünglərindən düzəldilmiş su kəmərlərindən geniş istifadə edilmişdir. Bərdə şəhərinin içməli su ilə təchizatını həyata keçirmək üçün gil tünglər vasitəsi ilə kəmərlər düzəldilmişdi. Həmin kəmərlər Tərtər çayından və ondan ayrılan arxlardan çəkilmişdir. Tünglər bir - birinə keçirilərək möhkəmləndirilir, onların birləşdirilən yerləri suvanırdı. Həmçinin üçlük və dirsək tünglərdən də istifadə olunurdu. Çünki, belə olmasaydı su kəmərini ancaq düz xətt boyu çəkmək lazım gələr, onu döndərmək və başqa istiqamətə yönəltmək olmazdı [91, s. 53].

Qafqaz Albaniyasının Uti vilayətinin mühüm yaşayış məskənlərindən olan Qalatəpədə aparılan arxeoloji qazıntılar zamanı üst mədəni təbəqəsindən erkən orta əsrlərə aid şirli və şirsiz saxsı nümunələri (küpə, nimçə və s.), həmçinin metal və şüşə əşyalar aşkar edilmişdir. Saxsı nümunələri arasında qum qarışıqlı, yaxşı bişirilmiş qazan tipli gil qablar xüsusilə seçilir. Bu qabların çiyin hissəsində müxtəlif üsullarla mürəkkəb naxışlar işlənmişdir. Bəzi qabların ağız hissəsində navalça vardır. Şirli qabların və fincanların üzərində nəbati və həndəsi naxışlar çəkilib.(Şəkil 2.1.9) Budağa qonmuş quş təsviri diqqəti cəlb edir. Ümumiyyətlə, Qalatəpə şəhər yerinin üst təbəqəsinin saxsı nümunələri Örənqalada (Beyləqan) aşkar olunmuş materiallarla yaxın oxşarlığa malikdir [130, s. 174]. Qeyd olunan təbəqədə üzərinə qırmızı boya ilə naxışlar çəkilmiş saxsı nümunələri üstünlük təşkil edir. (Şəkil 2.1.10) Nadir hallarda daş əmək alətlərinə və metal əşyaların qalıqlarına təsadüf olunmuşdur [34, s. 110].

Erkən orta əsrlərə aid Bərdənin şirsiz məişət və təsərüüfat qabları iri və orta həcimli təsərüffat küplərindən, qazanlardan, su qablarından, bardaqlardan, sərniclərdən, dopulardan, kuzələrdən ibarətdir. Bərdə qazıntılarından tapılan küpləri də iki yerə bölmək olar. İri həcimli və Orta həcimli küplər.Ümumiyyətlə ilk orta əsrlərə aid Bərdədə tapılmış küplər ümumi xarakterik xüsussiyyətə malik olmuşdur. Onların gövdəsi adətən ellips formaları, gödək boğazları, ağzı gen, dibi isə dar və yastı olur. İri küplər isə adətən qalın divarlı və qulpsuzdur.Məhsulları yerdə basdırıb saxlamaq üçün, su və şərab saxlamaq üçün istifadə edilən iri həcimli küplər erkən orta əsrlər üçün səciyyəvidir. Bərdə şəhərində aparılan arxeoloji qazıntılar zamanı ilk orta əsrlərə aid kuzələrdə tapılmışdır [91, s. 41].

Kuzələr adətən boğazı dar, gövdəsi armudvari gen,qulplu olur.Bu qabların ağızları novlu, oturacaqları isə yastı olur.Kuzələrdən su, ağartı və şərab daşımaq saxlamaq üçün istifadə olunurdu. Bərdədən tapılan kuzə nümunələri III-VIII əsrlərə aid edilir.

Bərdə rayonunun Şatırlı kəndi ərazisində Şortəpə arxeoloji kompleksində 2014-2015-ci ilərdə aparılan arxeoloji qazıntı işləri zamanı qapaq,bardaq, küpə və dopu tipli qablar aşkar edilmişdir(şəkil 2.1.13) . Arxeoloji tədqiqatlar zamanı IV kvadrat da 1,5 m dərinliyə qədər qazılmış, oradan ocaq yeri və saxsı məmulatları tapılmışdır. Bu kvadratın fərqli tapıntısı 0,5 m dərinlikdən insan sümüklərinin aşkara çıxarılmasıdır. Qarışıq formada tapılan sümüklər ayaq və qol hissələrindən ibarətdir. Güman edilir ki, sallama qəbir kimi sonradan dəfn olunmuşdu. IV kvadratım şimal-şərq küncündən 1,5 m cənubda şərq divarına bitişik hissədə dairəvi döşəmənin üzərində küpə və dopu aşkar edilmişdir. Sarımtıl, bozumtul, qara və ağ rəngli olan qablar həm bütöv halda, həm də oturacaq, boğaz,ağız və qulp hissələri olmaqla ayrı arılıqda tapılmışdır. Buradan 1 m cənubda diametri 0,8 m olan ocaq yeri üzə çıxarılmışdır. IV kvadratın cənub-qərb küncündən 1,5 m dərinlikdən müxtəlif tipli saxsı nümunələri aşkar edilmişdir. Saxsı məmulatları, küp, küpə, dopu, kasa, bardaq cam və boşqab tiplidir(şəkil 2.1.13).

Boşqab –sarı qırmızımtıl, divarının qalınlığı- 0,4 sm,oturacağının diametri-10 sm, ağzının radiusu 11 sm, hündürlüyü 4,5 sm olmuşdur.

Kasanın oturacaqla gövdəsi- qırmızı, tünd qırmızı naxışları şaquli istiqamətdədir, divarının qalınlığı -0,5 sm, oturacağının diametri-6 sm olmuşdur.

Küpün qapağı- qırmızı, divarının qalınlığı -0,8 sm; diametri-21 sm, hündürlüyü isə 2 sm olmuşdur.

Kiçik dopu tipli qab-sarı, üzəri kirəcləşib, oturacağının diametri -4 sm, gövdəsinin diametri -8 sm, boğazdan yuxarı hissəsi qırılıb, hündürlüyü 7 sm olmuşdur.

Üç ayaqlı gil saxsı- sarı, tərkibində xırda qum qarışığı var, hündürlüyü 7 sm, hər üç tərəfində üstündə cüt-cüt pastadan göy naxışı olub, üst hissəsinin diametri 5 sm olmuşdur.

Yaşıl şirli çıraq- divarının içi qırmızıdır, hündürlüyü -4,5 sm; lüəliyinin uzunluğu-7sm, oturacaöınn diametri isə 3,5 sm olmuşdur.

Yaşıl şirli və kiçik qab –oturacağının diametri -4 sm; divarının qalınlığı 0,3 sm.olmuşdur.(Bərdə arxeoloji ekspedisiyası) [145, s. 2].

Şortəpədən tapılan iri küplərin ağız hissələri aşağıdakı ölçülərdə olmuşdur.

1) Ağız hissəsi –sarımtıl, tərkibində xırda qum qarışığı və divarının qalınlığı 1,3 sm, radiusu- 14 sm,ağızının kənarı naxışlıdır.
2) Ağız hissəsi –ağımtıl, tərkibində xırda qum qarışığı var, divarının qalınlığı -1,5 sm, radiusu-21 sm olub, ağzının kənarı naxışlıdır.
3) Ağız hissəsi –qırmızımtıl, tərkibində xırda qum qarışığı var, divarının qalınlığı -2 sm, radiusu-22 sm olub, ağzının kənarı naxışlıdır.
4) Ağız hissəsi –sarı-qırmızımtıl, tərkibində xırda qum qarışığı var, divarının qalınlığı -2 sm, radiusu-27 sm olub, ağzının kənarı naxışlıdır.
5) Ağız hissəsi –sarı-qırmızımtıl, tərkibində xırda qum qarışığı var, divarının qalınlığı -2 sm, ağzının eni -6,5 sm olmuşdur.

İri küplərin ağzı və oturacağı-sarı-qırmızımtıl rəngdə olub, tərkibində xırda qum qarışığı olmaqla, divarının qalınlığı 2 sm, radiusu 20 sm-dir.(Bərdə arxeoloji ekspedisiyası) [145, s. 3].

Arxeoloji qazıntı sahəsinin şimal-qərbində dik basdırılmış içərisində kömür qalıqları olan iri təsərrüfat küpü aşkar olunmuşdur. Həmin təsərrüfat küpünün ağız hissəsinin şimal qərbində çay daşından ibarət hörgü olduğu müəyyənləşdirilimişdir. 1 m dərinlikdə şimaldan cəbuna doğru uzanan və bünövrəsi çay daşından olan döşəmənin çiy kərpic və möhrədən olduğu qənaətinə gəlinmişdir. 45x45x12 sm ölçüdə ikiqat və üçqat hörgü izlənilmişdir. Çay daşı və kərpiclərin arası xüsusi suvaq üçün olan maddə ilə doldurulduğu məlum olmuşdur. Arxeoloji qazıntı sahəsində həmin tikilinin 11,7 m hissəsi üzə çıxarılmışdır. Lakin hər iki istiqamətdə tikilinin davam etdiyi aydınlaşdırılmışdır (Bərdə arxeoloji ekspedisiyası) [144].

2015-ci ildə Şortəpədə aparılan arxeoloji qazıntı işləri zamanı möhrədən hörülmüş müdafiə divarı üzə çıxarılmışdır. Divarın şimal-şərq hissəsində 1,5

dərinlikdən maddi mədəniyyət qalıqlarının hissələrinin üzə çıxması maraq doğurmuşdur. Bu hissədən həmçinin, ağ rəngli qab, digər saxsı qabın lülək hissəsi və kiçik həcmli qapaq da aşkar olunmuşdur. Divar qalıqları çıxarılan hissədə 2 m dərinliyə qədər qazıntı aparılsa da, döşəmə hissəyə çatmaq mümkün olmamışdır. Möhrədən olan tikilinin şimal-qərbə doğru digər bir tikili ilə kəsişdiyi müşahidə olunmuşdur. Bu arxeoloji tədqiqatlarda müəllifin özü də iştirak etmişdir (Bərdə arxeoloji ekspedisiyası) [145].

Bərdənin Şortəpə və Balatəpə ərazisindəki arxeoloji qazıntılar nəticəsində əldə olunan arxeoloji materiallar xüsususilə Küp qəbirlərə, saxsı məmulatlarına Yevlax rayonun Qaraoğlan kəndində, Ağdaş rayonun Gürcuva kəndində rast gəlinmişdir. Həmçinin Ağdaş rayonun Pirkəkə, Yevlax rayonun Şilyan və Ərəş kəndləri ərazisində aparılan arxeoloji qazıntılar zamanı Ərəş şəhər yerində 15 m uzunluğunda divar qalığının və yaxınlıqda yerləşən yaşayış üçün istifadə edilmiş tikili hisəssinin qalıqları da tapılmışdır. Bu isə onu deməyə əsas verir ki, erkən orta əsrlərdə Uti vilayəti və ona qonşu olan ərazilər Albaniyanın ictimai, iqtisadi həyatında mühüm rol oynamışdır.

Uti vilayətinin Ergi düzündə arxeoloji kəşfiyyat işləri zamanı şumlanmış sahədən xeyli sayda saxsı hissələri əldə edilmişdir. Onlar qazan, dopu, qulp, xeyrə və s. tipli qablardan ibarətdir. 1985-ci il arxeoloji tədqiqatları zamanı Mərzili kəndindən Ağdama gedən yolun sol tərəfindən saxsı qab hissələri və toxuculuqda istifadə olunan iy başlıqları əldə edilmişdir [146, s. 7] (Tablo I, 1-8-ci şəkillər).

Ergi düzündə aparılan arxeoloji qazıntılar zamanı tapılan Kaşıların əksəriyyətinin 1,5-1,8 sm qalınlıqda olduğu müşahidə olunmuşdur. Beşbucaqlı və altıbucaqlı ulduzşəkilli kaşılar keyfiyyətli qırmızı rəngdə bişib, üzərlərinə şir çəkilmişdir. Beşbucaqlı tünd göy rəngli bir kaşının üz hissəsində tərəflərinin uzunluğu 3,3:3:5 sm, başqa bir mavi şirlinin ölçüləri 3:3:3,5:4 sm, firuzəyi altıbucaqlı divar bəzəyində isə 3:3,5 sm olmuşdur. Bir ədəd kaşı çoxuzlü konusşəkillidir. Sayca çoxluq təşkil edən kaşılar içərisində "lam" və "əlif" şəkilli-çubuğabənzər itibucaqlı tərəfə malik olanlar da vardır. Göy şirli bir kaşının uzunluğu 11,8 sm, qalınlığı 2,8 sm-dir. Düzbucaqlı şirli kaşı ilə yanaşı, bir tərəfi

maili, üzəri qara şirli, həmçinin qalınlığı 1,5 sm olan bərabəryanlı üçbucaq formalı kaşılar da vardır. Onlardan birinin yan tərəfinin uzunluqları 4 sm, 2,5 sm, oturacağınınkı isə 3,2 sm və 3 sm-dir. Firuzəyi şirli bir ədəd bərabaryanlı üçbucaq formalı kaşının hazırlanmasında tərəflərinin ölçüləri 7:4:4 sm olan qəlibdən istifadə olunmuşdur. Düzbucaqlı üçbucaq formali kaşılardan birinin üzərinə firuzəyi şir çəkilib. Önun hündürlüyü 7,7-sm, oturacağının uzunluğu 5 sm, hipetonuzun uzunluğu 9,8 sm, qalınhğı 1,8 sm-dir. Bu binanın üzərində nüqəddəs kəlamlar yazılmasını sübut edən faktlardan biri də qövs-mötərizəyəbənzər formalı ağ şirli kaşıdır. Onların içərsində üçbucağabənzər mötərizəni xatırladan kaşının ölçüləri 3,4:4, 5:5, 8 sın, 2,5:6:1,5 sm olanlar da vardır. Səcdəgah sahəsindən ağ şirli ölçüləri 2,5:4,5 sm nisbətində olan açıq-qəhvəyi rəngdə bişən, həmçinin firuzəyi şirli tərəflərinin uzunluqları 4:3 sm nisbətində olan paraleloqram formalı, qara şirli romb formalı, tərəflərinin uzunluğu 3 sm, mavi şirli kvadrat formalı tərəflərinin uzunluqlarının 6,5 sm və 3 sm olan  kaşılar tapılmışdır. Ərəb əiifbasının «lam» hərifə bənzər, qalınlığı 1,5 sm olan üzərinə sarımtıl-qəhvəyi şir çəkilmiş tərəflərinin uzunluğu 3:6:7,5 sm olan kaşı ilə yanaşı, ağ şirli lam  hərfinin orta hissədə birləşməsini təsvir etdirən, uzunluğu 5,5 sm olan epiqrafik işarələr da maraqlı tapıntılardan hesab olunur [146, s. 35].

Qazıntı sahəsində aşkar olunan dördbucaqlı formalı tərəflərinin uzunluğu 3,2:2,8:2:1,2 sm.olan.səthinə tünd yaşıl şir çəkilmiş kaşı hissəsinin üzərində müxtəlif hərflərə uyğun nöqtə-qabarıq səthdən qopmuş gil izi-yerləri vardır. Dördbucaqlı formalı tərəflərinin uzunluğu 3,5:3,8:5,9:5,5 sm olan başqa bir kaşının isə səthinə ağ şir çəkilib [146, s. 36].

Tədqiqat zamanı şirli epiqrafık məmulatlarla yanaşı, düzbucaqlı formalı şirsiz kiçik qırmızı kərpic formasında düzəldilən uzunluğu 9 sm:, eni 2,5 sm, qalınlığı 2 sm saxsı çubuq da tapılmışdır. Bu deyilənlərlə yanaşı, qazıntı sahəsindən daha qalın və nisbətən boyük prizma formalı kərpiclərə də təsadüf olunmuşdur. Göy rəngin müxtəlif çalarlarına malik şirlərlə örtülən  kaşının üz hissənin uzunluğu 20-21 sm, eni 8 sm, qalınlığı 2,2-2,5 sm, hundürlüyü 6-7,5 sm-dir. Onların yan hissəsində divarda möhkəm yerləşməsi üçün batıqlar da vardır.

Apardığımız araşdırmalar göstərir ki, səcdəgah sahəsindən aşkar olunan bu tikinti bəzəklərinin oxşarları Azərbaycanın bir çox orta əsr abidəbrində, o cümlədən Şabran, Bərdə, Şamaxı, Şətəl, Şəki və başqa yerlərdən aşkar olunmuşdur [148, s. 97].

Arxeoloji tədqiqat və qazıntı işləri zamanı II Kürəkçay qalasından xeyli miqdarda təsərrüfat və məişət küplərinin hissələri, iki ədəd iri, beş ədəd orta həcmli təsərrüfat küpü, çıraq qabları, boşqab tipli qablardan hissələr, dəmir qayçı qolu, bülöv daşı və s. maddi-mədəniyyət nümunələri tapılmışdır. Arxeoloji qazıntı işləri zamanı qalada iki mədəni təbəqənin olduğu müəyyən edilib. III-VIII əsrləri əhatə edən 1 mədəni təbəqənin qalınlığı 1,2 metrdən-1,6 metrə qədərdir. Bu təbəqədən xeyli miqdarda təsərrüfat küplərindən hissələr, qazan tipli qabdan qulplar, kasa tipli qabın oturacağından hissələr və s. tapılmışdır. Bu hissədə gil qab hazırlamaq üçün tökmə torpağın olduğu aşkar edilmişdir [72, s. 74].

Həmçinin Uti vilayətinin əsas yaşayış məskənlərindən olan Kaqankatda sarı və ağımtıl gil yataqlarının olması, geniş çeşiddə saxsı məmulatları istehsal etmələrinə başlıca zəmin olmuşdur ki, ətrafdakı digər yaşayış məntəqlərinə də məhsullar buradan göndərilmişdir.

Kaqankat şəhərindəki emalatxanalarda istehsal olunan dulusçuluq məmulatları çox güman ki, yerli tələbatı ödəmək və Tərtər çayı boyunca cənubi-qərbə doğru, Bərdə - Dəbil ticarət karvan yolunun üstündə yerləşən yaşayış məntəqələrinin istehlakı üçün hazırlanırmışdır. Kaqankat şəhərinin ərazisindən tapılmış müxtəlif şirli və şirsiz saxsı məmulatları yerli istehsal olmaqla burada dulusçuluğun inkişaf etməsini göstərir. Şirli və şirsiz saxsı məmulatların üzərində həm orromentli naxışlar, həm də müxtəlif təsvirlər –insan və müxtəlif heyvan təsvirləri vardır [20, s. 72]. İlk orta əsrlərə aid saxsı məmulatları şirsiz olub, nisbətən kobud hazırlanmışdır.

İlk orta əsrlərin son mərhələsində dulusçuluq sənətində çox böyük dəyişikliklər baş verərək, Saxsı qab hazırlanmasında metal tozlardan hazırlanmış şirdən geniş istifadə olunur. Bu dövrü səciyyələndirən gil qab növləri qazan, küpə, aftafa , boşqab, sini, təknə, dolça, xeyrə, kasa, dopu, bardaq, duzqabı, qənddan

biçimli vazlar və s-dən ibarət olmuşdur. Yeni formalı konusvari qablar meydana gəlir [13, s. 453] (Tablo 2,şəkil 1-11).

Xalq sənətinin mühüm shələrindən biri olan dulusçuluqda müxtəlif çeşidli və formalı məişət əşyaları (nehrə, küp, kasa, kuzə, fincan və s.) düzəldilmişdir. Hər bir xalqın özünəməxsus xüsusiyyətləri dulusçuluqda da öz əksini tapmışdır. Bu özünü dulus məmulatlarının hazırlanma texnologiyasında daha qabarıq göstərirdi [30, s. 19] (Tablo 3, şəkil 2-15).

Sərniclər. Sərniclər irihəcmli və sadə naxışlı qablardır. Bu qabalar görünüşünə görə enli boğazı, iki qulpu və yastı oturacağa malikdirlər.

Bu cür sərniclər Bərdədə, Xucbala, Torpaqqala, Yedditəpə, Beyləqan, Qaratəpə və s. abidələrindən də xeyli sayda tapılmışdır [149, s. 17; 91, s. 60; 130, s.32].

Bu dövrdə sərnic, küpə, dopu, goduş və s. qablar əsasən heyvandarlıq məhsulları emalı və o dövrün təsərüüfat həyatı ilə bağlı olub, ağartı məhsulları üçün istifadə edilirdi [91, s. 61].

İlk orta əsrlərdə əsas əmək alətləri və silahlar dəmirdən düzəldilirdi. Dəmir həm də tikintidə, təsərrüfatda və məişətdə geniş tətbiq olunurdu. Ox ucluqları, ağac gövdə və lələkdən ibarət olurdu. Orta əsr abidələrinin arxeoloji qazıntılarından məlum olan dəmir alətlər içərisində ox ucluqları xüsusi əhəmiyyət kəsb edir. Ox ucluqlarının, demək olar ki, hamısı sulquncludur. Onları tiplərə yalnız pərlərinin formasına görə ayırmaq olar. Ox ucluqları təyinatlarından asılı olaraq müxtəlif formada hazırlanmışlar. Yastı, ikipərli və üçpərli ox ucluqları zirehsiz hədəfi məhv etmək üçün idi və tapıntılar arasında üstünlük təşkil edirlər. Belə ox ucluqları geniş yara açaraq güclü qanaxmaya və bununla da düşmənin canlı qüvvəsinin sıradan çıxmasına səbəb olurdu. Sıx toxunmuş halqalı zireh geymiş düşməni sıradan çıxarmaq üçün ensiz, kəsikdə dəyirmi və ya kvadrat olan, möhkəmləndirilmiş ox ucluqları tətbiq olunurdu. Belə ox ucluqları halqalı zirehi dəlib düşmənə xətər yetirirdi. Lövhəli zireh geyimə malik düşmən döyüşçüsünə qarşı isə üçtilli və dördtilli ox ucluqları işlədilirdi [26, s. 134]. Bu silahın növləri arasında çəngəl formasında, haçalanan ox ucluğuna da təsadüf olunur .

Uti bölgəsində mis məmulatlarının ən çox rast gəlindiyi yaşayış yerərindən biri Yedditəpə arxeoloji abidəsidir. 1972-ci ildə Mirzə Camallı kəndi yaxınlığındakı Yedditəpə adlı yerdə açılan zəngin qəbirlər müxtəlif və zəngin avadanlığı ilə diqqəti cəlb etmişdir.Yedditəpədə arxeoloji qazıntılar zamanı metal əsyaları (Tablo 17) və metal toqqa başlıqlarını tapılmışdır(Tablo 18). Onların içərisində mis, gümüş əşyalar və silah nümunələri tapılmışdır. Döş sancaqları və kəmərləri qəbirlərin çoxunda tapılmışdır. Kəmərlərin toqqaların üstündə müxtəlif rəsmlər və fiqurlar həkk olunmuşdu. Misdən tapılan toqqanın üzərində kiçik ölçülü maral təsviri vardı. Onun uzunluğu 3 sm-dən artıq deyildi. Qəbirlərdən tapılan belə qədim incəsənət nümunələri çox idi. Onların içərisində misdən düzəldilmiş dağ keçisi, zebra, qartal fiqurları da var idi. Bu tapıntılar bir qədər əvvəlki dövrə aid olsalar da bu əşyalardan antik və ilk orta əsrlər dövründə də istifadə edildiyi arxeoloji qazıntılardan məlumdur.

Uti bölgəsində yaxşı inkişaf etmiş sənətkarlıq sahələrindən biri də şüşə məmulatı istehsalı olmuşdur. Govurqalada mövcud olan yaşayış yerlərində aparılan arxeoloji qazıntılar zamanı 1971-ci ildə 3№ - li quyudan xeyli sayda şüşə məmulatı aşkar edilmişdir.

Yaşımtıl rəngli şüşə ətirqabı uzunsov formada olub üfürmə üsulu ilə hazırlanmışdır. Boğazla gövdənin birləşdiyi hissədən ağac kəlbətin vasitəsi ilə bir qədər boğulmuşdur. Oturacağı yastılanmadığına görə qab yerə oturmur. Ağızının kənarı kəsilmişdir. Qabın ümumi hündürlüyü 8, ağzının diametri 1,8 sm, gövdəsinin diametri isə 2,4 sm-dir. Digər bir qab yaşımtıl rəngli olub şarvari gövdəsi ilə seçilir. Üfürmə vasitəsilə hazırlanmış bu qabın oturacağı yastıdır. Gövdə ilə boğazın yapışdığı hissədən ağac kəlbətin vasitəsi ilə boğulmuş və ətir qabına məxsus forma almışdır.Ağız kəsilmişdir.Kəsikdən göründüyü kimi şüşə ətir qabı qalın divarlıdır. Qabın ümumi hündürlüyü 6,5, gövdəsinin diametri isə 1,8, oturacağın diametri isə 1,2 sm.-dir .

Yaşımtıl rəngli, uzunsov gövdəli başqa bir ətirqabı da üfürmə üsulu ilə hazırlanmışdır. Ağızının kənarı o biri qablarda olduğu kimi kəsici alətlə

kəsilmişdir. Oturacağı yastıdır.Qabın hündürlüyü 5,5, oturacaqlarının diametri 0,6, ağzının diametri 1,4, gövdəsinin diametri isə 2,2 sm -ə bərabərdir.

Yaşımtıl rəngli şüşə ətirqablarından biri üfürmə üsulu ilə hazırlanmış və ağzı içəriyə tərəf qatlanmışdır. Ətir qabının yastı oturacaqları vardır. Kəsikdən göründüyü kimi qabın daxilindən və xaricindən boğazı vardır. Qab ortadan sınmışdır. Onun ümumi hündürlüyü 8, ağzının diametri 2,4, oturacağının diametri isə 1,2 sm -ə bərabərdir.

Quyudan  aşkarlanmış bir ədəd boğaz hissəsi sınmış şüşə ətirqabı yaşımtıl rəngdə olub gövdəsi uzunsovdur. Onun ümumi hündürlüyü 4, gövdəsinin diametri isə 1,6 sm-dir. Onun çıxdaş halında olması yerli istehsalı olması haqqında bizə fikir söyləməyə əsas verir.

Arxeoloji qazıntılar zamanı Uti vilayətini əhatə edən ərazilərdən  erkən orta əsrlərə aid əhalinin məişət qablarının içərsindən piyalələr də tapılmışdır. Piyalələri - texnoloji və sənətkarlıq xüsussiyyətlərinə görə aşağıdakı qruplara bölmək olar.

1. Saya səthli piyalələr
2. Səthi dairəvi oymalarla bəzədilmiş piyalələr
3. Səthi çoxbucaqlılarla bəzədilmiş piyalələr
4. Qəlibdə hazırlanmış səthi konsentrik dairələrlə bəzədilmiş piyalələr

1. Saya səthli piyalələr iki ədəd yaşımtıl rəngdə olub, qəlibdə basma üsulu ilə hazırlanmışdır.

2. Səthi dairəvi oymalarla bəzədilmiş piyalələr 1 ədəd olmaqla dörd cərgə oymalarla bəzədilmişdir. Oymalar kürəşəkilli sürtgəclərlə oyulmuşdur. Kürəşəkilli sürtgəclərin fırlanması izləri oymalarda aydın görünür. Qabın oturacağı da kürəşəkilli daş vasitəsilə düzəldilmişdir. Lakin onun diametri qab səthində olan kürəşəkilli sürtkəclərin diametrindən böyük olmuşdur. Piyalə oturacaq tərəfə gəldikcə qalınlaşır.Yaşımtıl rəngə malik olan bu piyalənin ümumi hündürlüyü 7 sm, ağzının diametri 3,5, səthində olan oymalrın orta böyüklükdə olanın birinin diametri 1,8 sm-ə bərabərdi. Dövr etibari ilə səthi çoxbucaqlılarla bəzədilmiş qablar daha sonra meydana gəlmişdir.

1972 ci ildə Govurqalada aparılmış arxeoloji qazıntılar zamanı bir neçə səthi oyma naxışlarla bəzədilmiş piyalə nümunələrinə də təsadüf olunub. Govurqalada bu piyalədən 3ədəd aşkar edilmişdir. Onların hər üçü yaşımtıl olub, səthi yeddibucaqlı və altıbucaqlı olmuşdur.Bucaqların çəkilişi və həndəsi ölçüsü bəzi qablarda dəqiq bəzilərində isə qeyri-dəqiqdir. Yəqinki bu müxtəlif sənətkarlar tərəfindən hazırlanmışdır. Bu isə onu göstərir ki, sənətkarlardan biri peşəkar, digəri isə naşı olmuşdur. Şüşəni çoxbucaqlı qəlib daxilində həkk etmək üçün usta uzun müddət əmək vərdişlərinə yiyələnməli idi. Səthi naxışlanmış şüşə piyalələrin ən təkmil forması üzərində konsentrik, qabartma üsulu ilə bəzək həkk edilmiş formadır. Govurqalada aparılmış arxeoloji qazıntılar nəticəsində belə piyalələrdən ancaq birinə təsadüf edilmişdir. O da başqa piyalələr kimi qəlibdə basma üsulu iləhazırlanmışdır .

Sənətkar yüksək vərdişlərindən sonra belə sənət nümunəsinin səthində olan bəzəyi qəlib daxilində oyur və beləliklə, ilk orta əsr şüşə istehsalının yüksək mərhələsinə çatan və o dövr sənətkarlıq və incəsənt xəzinəsinə bir nümunə bəxş etmişdir.Birinci tip qabların analogiyasına Azərbaycanda Mingəçevir və Şamaxıda, ikinci tip qablara Mingəçevir, Torpaqqala, Xınıslı və Şərgahda təsadüf edilmişdir [89, s. 108; 100, s. 19-20]. Burda aşkar edilən qalan şüşə nümunələri inkişaf etmiş orta əsrlərə aiddir ( tablo 8).

# III FƏSİL. UTİ VİLAYƏTİNİN İLK ORTA ƏSR TƏSƏRRÜFAT HƏYATI

## 3.1.Əkinçilik

Azərbaycanın əlverişli iqlim ehtiyyatına, şirin su qaynaqlarına, gözəl təbiyətə malik olması ən qədim insanların burada məskunlaşmasına şərait yaratmışdı. Arxeoloji qazıntılar və tarixi faktlar sübut edir ki, Azərbaycanın Kür və Araz çayları arasında yerləşən ərazisi ən qədim insanların yaşayış məskəni olmuşdur.

Arxeoloji tədqiqatların nəticələri göstərir ki, erkən orta əsrlərdə Uti vilayətində ənənəvi əkinçilik mədəniyyəti və bu mədəniyyətə həm müsbət, həm də mənfi təsir edən tarixi amillər olmuşdur. Ərazinin ən qədimdən məskunlaşmış yaşayış yerlərindən biri olması buradakı əkinçilik mədəniyyətinə müsbət təsir etdiyi halda, müxtəlif tarixi dövrlərdə yadellilərin basqınına məruz qalması bölgənin təsərrüfat həyatına dağıdıcı və ya mənfi təsir etmiş olur.

Əkinçilik və maldarlıq VII əsrin II yarısından - X əsrə qədərki tarixi dövrdə Azərbaycanın təsərrüfat həyatında müstəsna rol oynayırdı. Müxtəlif quruluşlu şum alətləri Azərbaycanda əkinçiliyin daha da inkişaf etməsində, onun məhsuldarlığının artmasında böyük rol oynamışdı. Təkmilləşdirilmiş kotanların sayəsində torpağın daha dərin və keyfiyyətli şumlanması mümkün olmuşdu ki, nəticədə məhsuldarlıq bir neçə dəfə artmışdı [24, s. 80]. Kotanlara qoşqu vasitəsi əsasən öküz olurdu.. Lakin əkinçilikdə baş vermiş daha böyük irəliləyişlər isə qara kotan və yaxud ağır kotanın meydana gəlməsi oldu ki, bu da torpağı daha dərin, daha yaxşı şumlamağa imkan verdi. Çünki dağlıq yerlərdə iqlim şəraiti, relyef xüsusiyyətləri, yumşaq torpaqların olması ilə əlaqədar dərindən şumlandığından, nəticə etibarı ilə ağır kotana ehtiyac qalmırdı. Ağır kotan xam torpaqların şumlanması zamanı daha çox köməyə gəlirdi. Əkinçilər bu kotanın köməkliyi ilə çox geniş əraziləri daha az qüvvə və vaxt sərf etməklə daha dərindən şumlaya bilirdilər. Qabaqki dövrlərdən fərqli olaraq, əkinçilik öz inkişafının elə səviyyəsinə çatmışdı ki, artıq burada müstəqil sistemlər tətbiq edilirdi. Məsələn ən geniş tətbiq olunan sistem torpağın dincə qoyulması idi. Aranda və qismən də dağlıq ərazilərdə süni suvarma tətbiq olunurdu. Meşəlik ərazilərin əkin üçün ayrılmış sahələri ağaclardan təmizlənirdi.

Münbit və məhsuldar torpaqlara malik Uti vilayəti IV-XIII əsrlərdə Azərbaycanda əkinçiliyin yaxşı inkişaf yaxşı inkişaf etdiyi ərazilərdən biri olmuşdur. Əkinçilik Albaniyada, o cümlədən Uti vilayətində ilk orta əsrlər dövründə təsərrüfat həyatının əsas sahələrindən birini, daha doğrusu onun əsasını təşkil edirdi. Uti vilayətində təbii-coğrafi mühit təsərrüfatın inkişafı üçün geniş imkanlar yaratmışdı. Arxeoloji qazıntılar zamanı bölgənin qədim sakinlərinin məişət və təsərrüfatına, ictimai həyatına və mədəniyyətinə dair xeyli sayda maraqlı tapıntı əldə edilmişdir [51, s. 4; 97, s. 254].

Qafqaz Albaniyasının tədqiqatçılarından olan T. Məmmədov qeyd edir ki, Albaniyada erkən orta əsrlər dövründə əkinçiliyin inkişafını bu dövrə aid yazılı mənbələr-A.Şirakasi, Alban tarixçisi Musa Kalankatlı, ərəb çoğrafiyaşünaslarından ibn Hövqəl, Yaqut əl-Həməvi, əl-İstəxri və başqaları öz əsərlərində verdikləri məlumatları ilə də təsdiq edirlər [83, s. 17-19].

Moisey Kalankatlı "Alban tarixi" əsərində Kür çayı boyunca çoxlu taxıl bitkilərinin becərildiyi haqda məlumat vermişdir. Bu məlumatı arxeoloji qazıntılar zamanı əldə edilən maddi mədəniyyət nümunələri də təsdiq edir. Erkən orta əsrlərdə Uti vilayətinin əsas şəhərlərindən olan Bərdə təbii-coğrafi baxımdan olduqca əlverişli mövqeyə malik idi. Bu isə öz növbəsində onun iqtisadi cəhətdən sürətlə inkişafına müsbət təsir etmişdir. Bir tərəfdən Kür çayı və onun qədim zamanlardan bu günə kimi mövcud olan zəngin torpaqları, digər tərəfdən isə Tərtər, Xaçın və İnçə çaylarının dağlardan axan bol suları və hövzələri boyu uzanan ucsuz bucaqsız geniş otlaqları burada əkinçiliyin və maldarlığın inkişafı üçün əlverişli zəmin yaradırdı.

Erkən orta əsrlərdə pambığın becərildiyi Bərdədə VIII-X əsrlərdə bu sahənin inkişafı üçün əlverişli şərait yaranmışdı. Həmin dövrün qaynaqlarında Azərbaycanda becərilən "sonsuz miqdarda", "yaxşı keyfiyyətli" pambıqdan, Bərdə ipəyindən,bağ və bostanlarından danışılır [113; s. 48, 52].

Erkən orta əsrlərdə Uti vilayətində becərilən texniki bitkilər arasında əkilən qızıl boya (qırmız) özünəməxsus yer tuturdu. İbn Havqəlin yazdığına görə "Varsan, Bərdə, Bab əl-Əbvab nahiyələrində və Xəzər dənizinin ortasında yerləşən adada

qırmız var. Həmin məlumatlara aydın olur ki, Bərdədə tut ağacları yetisdirilirdi və ipəkçiliyin əsas mərkəzlərindən biri idi [116, s. 88].

Erkən orta əsrlərdə Uti vilayətində ipəkçiliyin inkişafı haqqında ərəb mənbələrində verilən məlumatlar eyni zamanda arxeoloji tapıntılarda da öz təsdiqini tapır. Bərdə şəhərində aparılan arxeoloji qazıntılar zamanı VIII-IX əsrə aid su ilə hərəkətə gətirilən dəyirman daşları aşkarlanmışdır. Eyni formalı dəyirman daşları orta əsr Gəncə şəhəri ərazisindəki qazıntılarından X-XI əsrlərə aid təbəqədən məlumdur [72, s. 132]. Bu dəyirman daşları forma etibarı ilə müasir tipli su dəyirmanı daşlarına tam oxşar şəkildə düzəldilmişdir. Həmin daşların su dəyirmanlarında necə istifadə edildiyi etnoqrafik və arxeoloji ədəbiyyatda geniş şəkildə şərh olunmuşdur [21, s. 55-57; 73, s. 58]. Bütün orta əsr ərəb tarixçiləri Bərdənin qədimliyi, əhəmiyyəti və əzəməti haqqında ətraflı məlumatlar vermişlər.

İlk orta əsrlərdə Uti vilayətində təsərrüfatın bütün sahələrinin inkişaf etdiyi ərazilərdən biri də Kalanqat şəhəridir. Kaqankat şəhəri dağ çayları, hər cür ağac növünün bitdiyi barlı bağlar, son dərəcə munbit qara torpaqları olan geniş əkin sahələri, füsunkar təbii gözəlliklərlə əhatə olunmuşdur. Murovdağın şərq ətəklərində sıx qalın meşəlik olan ərazini yerli əhali "Qozlu kənd yeri" adlandırırdı. Çunki, həmin ərazi qoz və fıstıq ağacları olan meşəliklərlə zəngindir.

Füzuli rayonunun müxtəlif ərazilərində, xüsusilə də Arazboyu ərazilərdə qədim əkinçilik mədəniyyətinin yaradıcıları və daşıyıcıları olan türkdilli xalqlara məxsus abidələr mövcuddur. Bu cür abidələrdən biri Füzuli şəhəri yaxınlığında Kiçik Qafqazın cənub-şərq ətəklərində yerləşən Qaraköpəktəpə yaşayış yeridir [99, s. 263]. Təbii şərait Qaraköpəktəpənin gur yaşayış yerinə çevrilməsinə səbəb olmuşdu.

İlk orta əsr yazılı mənbələrindən aydın olur ki, Kür və Araz çaylarının vadilərində, Uti vilayətində, Mil və Muğan düzlərində və Albaniyanın digər bölgələrində yaşayan insanlar əkinçiliklə məşğul olurdular. Yazılı mənbələrdə əkinçilik təsərrüfatında yerin şumlanması haqqında və becərilməsində istifadə olunan əmək alətləri barədə heç bir məlumat verilməyib. Lakin, geniş arxeoloji tədqiqatlardan və etnoqrafik müşahidələrdən aydın olur ki, ilk orta əsrlər dövründə

Albaniyada yerin şumlanması geniş yayılmışdır. O cümlədən, Uti vilayətində torpqaların şumlanaraq əkilməsi təsərrüfat forması istisna edilmir. Tədqiqatlardan aydın olur ki, əkin sahələri dəmir gavahınlı xışla şumlanmışdır.

VII əsrin II yarısı - X əsrdə Azərbaycanda, o cümlədən Uti vilayətində Ərəb işğalı nəticəsində təsərrüfatın, sənətkarlığın, ümumiyyətlə məhsuldar qüvvələrin ahəngdar inkişafını xeyli ləngidi. İlk dövrlərdə bu hal o qədər də nəzərə çarpmasa da sonralar tədricən inkişaf özünü göstərməyə başladı. Buna baxmayarq, Uti vilayəti heç şübhəsiz Azərbaycanın bu dövrdə mühüm əkinçilik regionlarından biri olmuşdur [17, s. 107-109].

Ərəb xilafəti dağıldıqdan sonra isə Albaniyada təsərrüfatın bütün sahələri dirçəlir, əhali artır və məhsuldar qüvvələr inkişaf etməyə başlamışdı. Əkinçilikdə dəmyə əkinçilik ilə yanaşı dağətəyi və qismən də dağlıq rayonlarda arxlar, düzən rayonlarda isə (Mil-Qarabağ və Muğan düzənliklərində) Kür və Araz çaylarından çəkilmiş kanallar (Govurarx) vasitəsilə suvarılan, yəni süni suvarmaya əsaslanan əkinçilik də geniş yayılmışdır.Orta əsrlər öz başlanığıcında Azərbaycanın, iqtisadi, ictimai, siyasi və mədəni həyatı üçün ziddiyyətli bir dövr olsa da çox keçmədən daxili və xarici amillər əsasında yeni yüksəliş və çiçəklənmə dövrünə qədəm qoymuşdur [54, s. 32].

Müəyyən durğunluq və tənəzzüldən sonra Azərbaycanın ərəb Xilafəti kimi iqtisadi və siyasi cəhətdən güclü və eyni zamanda vahid bir dövlətin tərkibinə daxil olması ümumilikdə mütərəqqi xüsusiyyət daşımış, o zamankı beynəlxalq aləmə qovuşdurmaqla təcridliyinə son qoymuşdur [11, s. 124]. Bununla ayrı-ayrı qapalı bölgələrin nəinki siyasi, həm də iqtisadi və mədəni cəhətcə yaxşılaşması üçün əlverişli şərait yaranmışdır. Yeni sənət sahələrinin təşəkkülü və inkişafı ticarət əlaqələrinin artması qədim yaşayış yerlərini, o cümlədən köhnə şəhərlərin dirçəlişi və genişlənməsi, yeni şəhərlərin salınması Azərbaycanda orta əsrlərin səciyyəvi xüsusiyyətini təşkil etməklə iqtisadi-mədəni inkişaf və tərəqqi üçün əsas olmuşdur. Mövcud şəraitdə Azərbaycanın bir çox orta əsr şəhərləri əsl mənada mədəni mərkəzlərə, İslamın qəbul edilməsi ilə yaranmaqda olan "İslam mədəniyyəti"-nin mərkəzlərinə və yayıcılarına çevrilmişdir [58, s 48]. Bu cəhətdən Azərbaycanın

Araz çayından aşağı və yuxarı vilayətlərindəki Təbriz, Səlmas, Sərab, Bərzənd, Mərənd, Ərdəbil, Naxçıvan,Gəncə, Beyləqan, Bərdə, Bakı, Şirvan, Şamaxı, Şabran, Qəbələ, Dərbənd və onlarca digər şəhərləri xüsusilə seçilmiş, artıq bütün xilafətdə həm iqtisadi-siyasi, həm də mədəni mərkəzlər kimi tanınmışdır. Azərbaycanda, eləcə də xilafətin digər ölkələrində təşəkkül tapan və az vaxt içərisində bütün sahələri əhatə edən islam və ya müsəlman mədəniyyəti təkcə ərəblərə məxsus mədəni dəyərlərin məcmusu yox, ərəb mədəni ənənələri ilə xilafətə daxil olan xalqlara məxsus mədəni ənənələrin üzvü birləşməsi-sintezi olmuşdur [11, s. 124; 54, s. 48]. Bu tarixi prosesdə əsrlər boyu Azərbaycanın iqtisadi, siyasi və mədəni mərkəzlərindən biri kimi tanınan Qaraköpəktəpə yaşayış yerindən də yan keçməmişdir.Arxeoloji qazıntılar zamanı Qaraköpəktəpə abidəsində orta əsrlərə aid 2 m-ə yaxın qalınlığında mədəni təbəqə müəyyən edilmişdir. Öyrənilmişdir ki, IX-X əsrlərdə Qaraköpəktəpə sıx əhlisi olan möhkəm bir feodal qəsrinə çevrilmiş, Azərbaycanın ayrı-ayrı bölgələri, eləcə də Şərqin bir çox yaxın və ya uzaq sənətkarlıq, ticarət və mədəni mərkəzləri ilə sıx-sıx iqtisadi mədəni əlaqə saxlamışdır. Onun o zamankı beynəlxalq əlaqələrdə böyük əməli əhəmiyyət kəsb edən və bilavasitə Xudəfərin körpüsündən keçən mühüm karvan yolu üstündə yerləşməsini nəzərə alsaq belə nəticəyə gələ bilərik ki, bu qəsr eyni zamanda həmin yolun təhlükəsizliyini təmin edən mühüm keşikçi məntəqəsi rolunu da daşımışdır.

Onun yaxınlığındakı Beyləqan və Bərdə şəhərlərilə əlaqələri daha sıx olmuşdu. Qaraköpəktəpənin bu dəfəki əmin-amanlığı, yeni çiçəklənmə dövrü uzun çəkməmişdi [53, s. 37]. Monqol işğalının nəticələri Uti vilayətində də şəhər həyatına daha ağır zərbə vurmuşdu. Bu isə əkinçilik təsərrüfatının təsnəzzülünə gətirib çıxardı. Köçəri monqol əyanlarının özbaşınalıqları və zorakılığı, ənənəvi əkinçilik bölgələrini köç ərazilərinə çevirmək cəhdləri xüsusilə təsərrüfatın bu sahəsinin tənəzzülə uğramasında böyük rola malik oldu. Buradakı şəhərlərin bir qismi xarabazara çevrildi. Digərləri isə öz əvvəlki təmtəraqlarını itirdilər və bir daha inkişaf səviyyəsinə yüksələ bilmədilər. Arxeoloji tədqiqatlarda monqol işğalı ilə bağlı şəhər və kəndlərin əksəriyyətinin xarabazara çevrildiyini təsdiqləyir.

Bundan sonra bu yaşayış yeri müəyyən müddət tənəzzül dövrü keçirmiş və yalnız Hülakülər dövründə yenidən dirçələ bilmişdi. Hakimiyyətdə olan mütərəqqi qüvvələr dövlətin qüdrətinin yüksəlməsində və xəzinənin doldurulmasında oturaq həyatın, sənətkarlıq, ticarət və şəhərlərin əhəmiyyətini dərk etməyə başladılar.

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Uti vilayətinin əlverişli torpaq və iqlim şəraiti ən qədim zamanlardan burada ilk oturaq əkinçi icmalara məxsus yaşayış yerlərinin əmələ gəlməsinə zəmin yaratmış və tarixin demək olar ki, bütün dövürlərində gur yaşayış yeri olmaqla yanaşı, bu ərazidə inkişaf etmiş əkinçilik mədəniyyəti formalaşmışdır.

## 3.2.Bağçılıq və bostançılıq

Erkən orta əsrlərdə Uti vilayətində əlverişli təbii şəraitin o cümlədən iqlimə uyğun olaraq əkinçiliyin bir qolu kimi bağçılıq və bostançılıq geniş inkişaf etmişdi. Bu barədə bir çox dəyərli mənbələrdə məlumat verilmişdir. Məsələn məşhur ərəb səyyahı Əbu Düləfin qeydlərində vurğulanır ki, Araz çayının sahillərində yetişdirilən nar sortunun heç bir ölkədə tayı yoxdur. Eyni zamanda İbn Havqəl qədim Bərdə şəhərində yetişdirilən “şabalıd”, “zoğal” və “əncir” kimi bağ bitkilərinin adlarını çəkir [97, s. 102; 123, s. 13]. Müəllifi naməlum olan “Əcaib əd-dünya” adlı tarixi mənbədə Beyləqanda və onun ətraf ərazilərində nar, əncir, tut və s. meyvələrin yetişdirildiyindən bəhs edilir [28, s. 201-208]. Həmin mənbədə Uti vilayətinin tərkib hissəsi və başlıca iqisadi mərkəzlərindən biri olan Bərdədən çoxlu miqdarda şirin nar ixrac olunmasından danışılır [30, s. 201]. Albaniyada, həmçinin Uti bölgəsində ilk orta əsrlərdə geniş becərilən bitkilərdən biri də üzüm olmuşdur. Azərbaycan ən qədim üzümçülük ölkələri sırasındadır. Bu arxeoloji qazıntılar zamanı aşkar edilmiş şərabçılığa dair arxeoloji materiallarda dəfələrlə təsdiq edilmişdir. Xüsusilə, Uti bölgəsində üzüm bitkisinin yetişməsi və inkişafı üçün əlverişli torpaq resurslarına və iqlim şəraitinə malik olmuşdur.

Albaniyada üzümçülüyün inkişafı eyni zamanda yazılı mənbələr də təsdiq edir. Belə ki, alban tarixçisi M.Kalankaytuklunun məlumatlarından aydın olur ki,

öz əsərində bu haqda məlumat vermişdir. Onun verdiyi məlumatlardan aydın olur ki, erkən orta əsrlərdə Albaniyada (Azərbaycanda) üzüm bitkisi geniş becərilirdi. Bu məlumatı ərəb coğrafiyaşünası Müqəddəsinin qeydləri də öz növbəsində təsdiq edir. XIII əsrin birinci rübündə özünün Azərbaycan səyahətindən danışan Yaqut Həməvi yazır: "Mən heç yerdə burada olan qədər çoxlu bağ görməmişəm" [37, s. 110].

Albaniyada üzümçülüyün inkişafına dair yazılı mənbələrin verdiyi məlumatları eyni zamanda aparılmış arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi nümunələr də təsdiq edir. Məsələn, o dövrün Uti vilayəti yaxınlığında yerləşən tarixi Azərbaycanın ən qədim şəhərlərindən olan Beyləqan ərazisində aparılmış arxeoloji qazıntılar erkən orta əsrlər dövrünə aid mədəni təbəqələrdən çoxlu miqdarda üzüm tumları aşkar edilmişdir. "Əcaib əd-dünya" adlı mənbədə Beyləqanın gözəl, ləzzətli üzümündən bəhs edilir. Üzümdən müxtəlif şirniyyat və "maviz" adlanan kişmiş hazırlandığı qeyd olunur [30, s. 206-210]. Ərəb xilafətinin təsiri altında islam dinin təbliği və islamın şərabçılığa mənfi münasibəti yerlərdə şərabçılığın inkişafını ləngitsədəüzümçülüyün inkişafına mane ola bilməmişdi. Erkən orta əsrlərdə Albaniyada üzümçülüyün inkişafı şərabçılığında inkişafına şərait yaratdı. Alban tarixçisi M.Kalankatlı qeyd edir ki, erkən orta əsrlərdə Azərbaycanda çoxlu miqdarda və müxtəlif növlərdə olduqca keyfiyyətli şərablar hazırlanırdı.

Albaniya ərazisinə X əsrdə gələn səyyahlar erkən orta əsrlərdə Azərbaycanın, demək olar, bütün ərazilərində üzümün bol olduğunu qeyd edirdilər və bu meyvənin ticarətdə xüsussi əhəmiyyətindən bəhs edirdilər, onun həm qurusundan, həm də yaşından Yaxın şərq ölkələri ilə ticarətdə çox istifadə edilirdi.

Arxeoloji qazıntılarda üzümçülüyün və şərabçılığın inkişafına dair kifayət qədər maddi dəlillər aşkar edilmişdir. Məsələn aşkarlanmış çoxlu miqdarda üzüm tumları, şərab çöküntüləri, şərabın hazırlanması və saxlanması üçün zəruri olan gil qablar, tuluqlar və s. bu dövrdə üzümçülüyün və şərabçılığın yüksək səviyyəli inkişafına dair yazılı mənbələrin əyani sübütlarıdır. Əvvəlki bölmələrdə Kaqankat şəhəri ətraflnda gözəl üzüm bağları olduğundan bəhs etmişdik ki, bu, Allahın

Azərbaycan üçün yaratdığı gözəl təbii şərait, zəngin iqlim və torpaq resursları ilə əlaqədardır. Kaqankat şəhərindən ticarət məqsədilə ixrac olunan məhsullar arasında şərabın ixracı xüsusi çəkiyə malik olmuşdur. Bir faktı nəzərə alsaq ki orta əsrlər dövründə Qafqaz Albaniyası xristian dini etiqadına tabe idi. Xristianlıqda isə islamdan fərqli olaraq şərab geniş istifadə olunan gündəlik məhsul sayılır, hətta xristian əhalinin kilsəyə və monastrlara şərab vergisi verməsi və nəzirlərini şərabla verməleri faktı tarixdə vardır. Buna görə də ilk orta əsrlərdə Uti vilayətində şərabçılıq və şərab məhsullarının ticarətinin geniş yayıldığını göstərə bilərik. Uti vilayətinin təbii şəraiti hələ qədim zamanlardan bu bölgədə bağçılıq və bostançılıq təsərrüfatının inkişafı üçün əlverişli olmuşdur.

Albaniyada bağçılığın yüksək səviyyəli inkişafı barədə Alban tarixçisi M.Kalankaytuklu öz əsərində qeyd etmişdir [55, s. 102]. Yazılı mənbələrin əksəriyyətində erkən orta əsrlərdə Albaniya ərazisində geniş və gözəl meyvə bağlarının olduğunu, bostançılığın da geniş yayılıb inkişaf etməsi haqqında məlumat vurğulanır. Ərəb coğrafiyaşünasları da erkən orta əsrlərdə Albaniyada bağçılığın geniş inkişafını öz əsərlərində qeyd edirlər. Erkən orta əsrlərdə bağçılığın yüksək inkişaf etdiyini aparılmış arxeoloji qazıntılar da sübut edir. Albaniyanın müxtəlif yerlərində, xüsusilə Uti bölgəsində aparılan arxeoloji qazıntılar nəticəsində ilk orta əsrlərə aid mədəni təbəqədən xeyli sayda meyvələrdən üzüm, şaftalı, albalı, gavalı, zoğal, ərik, nar, tərəvəzlərdən balqabaq, qarpız, xiyar və s. tumlarının tapıntıları aşkar edilmişdir. Albaniyada, o cümlədən Uti vilayətində aparılan arxeoloji qazıntılar zamanı ilk orta əsrlərə aid çoxlu sayda müxtəlif formalı bağçılıq və bostançılıq təsərrüfatında istifadə olunan əmək alətləri aşkar edilmişdir.

İlk orta əsrlər dövründə Uti ərazisində, bütövlükdə Albaniyada çox becərilən bitkilərdən biri əncir olmuşdur. Əncir bitkisinin Albaniyada becərilməsinə aid məlumat da alban tarixçisi Musa Kalankatuklunun əsərində əksini tapmışdır [55, s. 104]. Onun verdiyi məlumatlardan aydın olur ki, Albaniyada, xüsusən Uti bölgəsində həddindən artıq əncir yetişdirilirmişdir. Bu haqda Ərəb coğrafiyaçısı əl-İstəxri də məlumat vermişdir. O öz əsərində Bərdədə çoxlu sayda əncir bitkisinin yetişdirilməsindən danışmışdır [114, s. 68].

Beləliklə, yazılı mənbələr və ilk orta əsrlərə aid təbəqələrdən arxeoloji qazıntılar zamanı əldə olunmuş bağçılıq və bostançılıqda istifadə edilən əmək əalətləri və təsərrüfat qalıqları Albaniyada, o cümlədən onun tərkib hissəsi olan Uti bölgəsində bu dövrdə bağçılıq və bostançılıq təsərrüfatının yaxşı inkişaf etdiyini və yüksək səviyyədə olduğunu göstərir.

Erkən orta əsrlərdə də Azərbaycanda, o cümlədən Uti bölgəsində bostan və tərəvəzçilik təsərrüfatı sahələri inkişaf etməkdə davam etmişdir. Azərbaycanda əldə edilən arxeoloji materiallar və yazılı mənbələrdən məlum olur ki, bu dövrdə nəinki kənd əhalisi, həm də şəhərlilər bostan və tərəvəz becərməklə məşğul olmuşlar.

Arxeoloji qazıntılardan tapılmış meyvə tumları və bağçılıq və bostançılıq sahəsində istifadə edilən əmək alətləri erkən orta əsrlərdə Uti vilayətində bu təsərrüfat sahələrinin yüksək səviyyəli inkişafından xəbər verir. Bölgədə üzümçülük təsərrüfatı da daha geniş yayılmışdır. Belə ki, aparılmış arxeoloji qazıntılar zamanı bütün abidələrin ilk orta əsrlərə said mədəni təbəqəsində kütləvi şəkildə üzüm çəyirdəklərinə rast gəlinmişdir. Bərdədə Şortəpədə, Ağcabədidə Qalatəpədə, Füzulidə Qaraköpəktəpə yaşayış yerindən tapıntılara, həmçinin Beyləqan şəhəri ərazisində bu cür tapıntılar əldə edilmişdir. Belə yüksək səviyyəli inkişafın nəticəsidir ki, orta əsrlərə aid yazılı mənbələrdə də Azərbaycan üzümünə yüksək qiymət verilir.

Uti vilayətinin tərkib hissəsi və başlıca iqisadi mərkəzlərindən biri olan Bərdə şəhərindən çoxlu miqdarda şirin nar ixrac edilidiyi qeyd edilir. Arxeoloji qazıntılar zamanı bağçılıq və bostançılıq təsərrüfatında istifadə etmək üçün nəzərdə tutular müxtılif formalı əmək alətləri, çoxlu sayda təsərrüfat qabları, müxtəlif növ meyvə və tərəvəz qalıqları aşkar edilmişdir [65, s. 35-36].

Sonda belə bir nəticəyə gəlmək olar ki, ilk erkən orta əsrlərdə Uti vilayəti tarixin müxtəlif dövürlərlərində durğunluq dövrü keçirməsinə baxmayaraq əhalinin işgüzarlığı sayəsində ərazinin təbii-çoğrafi şəraiti və çaylarının bol şirin suları bölgənin Azərbaycanın bağçılıq və bostançılıq təsərrüfatı sahələrinin yaxşı inkişaf etmiş ərazilərindən biri olmasına gətirib çıxartmışdır.

### 3.3. Maldarlıq

İnsan həyatı bilavasitə maddi nemətlər istehsalından asılı olduğuna görə, hər bir dövrün iqtisadi-istehsal tarixinin öyrənilməsinin böyük elmi-praktik əhəmiyyəti vardır. Bu baxımdan IV-IX əsrlərdə Uti vilayətində tarixən mövcud olmuş maldarlıq təsərrüfatı tarixinin öyrənilməsi böyük əhəmiyyətə malikdir. Bölgədə baş verən ictimai, siyasi proseslər və hərbi əməliyyatlar təsərrüfatın bütün sahələri kimi maldarlıq sahəsinə də təsirsiz qalmamışdı.

Azərbaycanda başqa təsərrüfat sahələrilə yanaşı maldarlığın da inkişafı təbii-coğrafı şəraitlə üzvi surətdə bağlı olmuşdur.

Maddi istehsalın ən qədim sahələrindən biri olan maldarlıq təsərrüfatının yaranmasından sonra, insanların həyat uğrunda mübarizə işi əhəmiyyətli dərəcədə asanlaşmış və bununla əlaqədar olaraq onların məskunlaşdığı ərazi də xeyli genişlənmişdir. Maldarlıq ən qədim dövrlərdən bəri insanları həyat üçün zəruri olan yaşayış vasitələri ilə təmin etdiyinə görə, əkinçilikdən sonra onun böyük iqtisadi əhəmiyyəti olmuşdur. Dünyanın bir çox ərazilərində olduğu kimi Azərbaycanın əlverişli iqlim və münasib təbii-coğrafi şəraiti burada başqa təsərrüfat sahələri ilə bərabər maldarlığın və maldarıq təsərrüfatı ilə bağlı olan digər sahələrin də inkişafına səmərəli təsir göstərmişdir [8, s. 220].

Maldarlıq təsərrüfatı Azərbaycan ərazisində erkən cəmiyyətlərin mədəni-tarixi səviyyəsinə müvafiq yaranan və inkişaf edən ikinci vacib sahəsi olmuşdur. Mənimsəyici ovçuluq-balıqçılıq iqtisadiyyatından istehsal təsərrüfatına keçid, onun əsas formalarının, o cümlədən maldarlığın təşəkkülü, inkişafı və yayılması bəşər tarixinin vacib mərhələsi olmuşdur. Məhz bu amillər onun sonrakı gedişini müəyyən etmişdir. Bu proseslər ən qədim tarixin yeni mərhələsinin başlanğıcı olub əvvəlki minilliklərdən köklü dəyişikliklərlə fərqlənirdi. Şübhə yoxdur ki, yığıcıların və ovçuların qədim icmaları öz imkanlarında təbii ehtiyatlarla məhdudlaşmırdılar. Onlar təbii ehtiyatların istifadəsini təkmilləşdirə bilərdilər. Eyni zamanda, bu ehtiyatları artırmaq, onların keyfiyyətini dəyişmək onlar üçün imkansız idi. Beləliklə, istehsal bazasının məhdudiyyəti, təbii şəraitdən tam asılılıq cəmiyyətin

inkişafını kəskin şəkildə limitləşdirirdi və yalnız istehsal təsərrüfatına keçid nəticəsində erkən cəmiyyətlərin inkişafının bütün istiqamətlərində köklü dəyişikliklər yaratdı. Bu tarixi prosesdə maldarlıq da böyük əhəmiyyət kəsb etmişdir [8, s. 220].

Aparılmış geniş miqyaslı tədqiqatlar sübut edir ki, Uti vilayətinin əlverişli təbii-coğrafi şəraitə malik olması su hövzələrinə yaxınlığı, geniş otlaq sahələrinin mövcudluğu, iqlimin və relyefin rəngarəngliyi, ərazinin qışlaq və yaylaq maldarlığı üçün əhəmiyyətli olması və s. amillər tarixən burada maldarlığın inkişafına şərait yaradaraq əhalinin təsərrüfat həyatının başlıca sahələrindən birinə çevrilmişdir.

Uti vilayətinin iri və xırdabuynuzlu maldarlıqla yanaşı qatırçılıq, atçılıq, dəvəçilik kimi maldarlığın digər sahələri də inkişaf etdirilərək tələbata uyğun şəkildə istifadə edilmişdir. Arxeoloji tədqiqatlar zamanı Utidəkı yaşayış yerlərində çoxlu sayda at, dəvə, qoyun, öküz və s. tipli ev heyvanlarına məxsus skelet qalıqlarına, daşdan yonulub hazırlanmış at və qoç fiqurlarına maldarlıq məhsullarının hazırlanması üçün istifadə olunmuş müxtəlif növ gil qab nümunələrinə, sərniclərə, nehrələrə və s. rast gəlinməsi, tarixən bu bölgədə maldarlığın bütün növ sahələri ilə məşğul olunmasından xəbər verir. Bölgədə maldarlığın inkişafına rəvac verən amillər, insanlığın bu təsərrüfat sahəsinə olan böyük ehtiyacından irəli gəlirdi. Belə ki, ətə, yuna, gön dəriyə, südə, yağa və s. heyvandarlıq məhsullarına cəmiyyət daxilində böyük miqyasda tələbat meydana gəlmişdir. Tələbatın durmadan artması amili isə ərazinin sürətli ikişafından xəbər verirdi. Aparılan araşdırmalar sübut edir ki, Uti bölgəsində əhalini qida məhsulları və gön-dəri məmulatları ilə təmin edən iri və xırdabuynuzlu maldarlıq daha çox inkişaf etdirilmişdir. Digər tərəfdən kənd təsərrüfatının ağır əkin-biçin işlərində işlədilən heyvanlar içərisində kəl və öküzlərin xüsusi yerinin olması iribuynuzlu maldarlığın inkişafına xüsusi önəmin verilməsindən xəbər verir. Apardığımız müşahidə və araşdırmaların nəticəsi olaraq maldarlığın bir sıra tipərinə Uti bölgəsində rast gəlinmişdir. Ərazinin dağlıq və düzən relyeflərə malik olması tarixən burada həm düzən, həm də dağlıq və dağətəyi tipli oturaq maldarlığın, eləcə də yarımköçmə maldarlığın meydana gəlməsinə vəsilə olmuşdur.

Uti vilayətində, bütövlükdə Azərbaycanın qədim maldarlıq təsərrüfatı haqqında nisbətən tam təsəvvür eneolit dövrü ilə bağlıdır. Müəyyən edilmişdir ki, bu dövrdə Azərbaycanda (bütövlükdə Cənubi Qafqazda) ev heyvanlarının əsas növləri artıq əhliləşdirilmişdi. Bunun üçün zəruri fauna da var idi. Qafqazın, o cümlədən Azərbaycanın faunasında dağ keçisi, qoyun, keçi, donuz və başqa heyvanlar təmsil olunmuşdu ki, onlar da iri və xırda buynuzlu mal-qaranın əhliləşdirilməsində ilkin forma ola bilərdi. Qobustandakı qayaüstü rəsmlər də bunu sübut edir. Azərbaycanda belə heyvanların təsvirinə digər qayaüstü rəsmlərdə rast gəlinir. Faktlar göstərir ki, bəzi heyvanlar, o cümlədən iri buynuzlu mal-qara birbaşa Cənubi Qafqazın özündə əhliləşdirilmişdir. Cənubi Qafqaz, o cümlədən Azərbaycan ərazisində eneolit dövründə maldarlıq təsərrüfatının sonrakı inkişafı üçün bütün şərait olmuşdur. Q.F.Korobkovanın fikrincə, insan heyvanları əhliləşdirmə gedişində bəzi heyvan növlərini yaymaqla yanaşı, həm də maldarlığın müxtəlif formalarını da inkişaf etdirir [128, s. 74]. İlk orta əsrlər dövründə də Uti vilayəti maldarlıq təsərrüfatının yaxşı inkişaf etmiş regionlarından biri olmaqla bərabər daha da inkişaf etmiş sahəyə çevrilmişdir. Şirəli otlarla örtülü Uti vilayəti köçəri maldarlığının geniş inkişafı üçün şərait yaradırdı. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitinin münbitliyi haqqında qədim yunan alimi Strabon yazılarında qeyd edirdi ki, Albaniya ərazisində münbit torpaqlar, zəngin otlaqlar, şirin su ehtiyyatları vardır [136, s. 63]. Uti bölgəsinin iri və xırdabuynuzlu maldarlıqla yanaşı qatırçılıq, atçılıq, dəvəçilik kimi maldarlığın digər sahələri də inkişaf etdirilərək tələbata uyğun şəkildə istifadə edilmişdir. Arxeoloji tədqiqatlar zamanı Bərdədə, Yedditəpə və Qaraköpəktəpə, Qalatəpə kimi yaşayış yerlərində çoxlu sayda at, dəvə, qoyun, öküz və s. tipli ev heyvanlarına məxsus skelet qalıqlarına, daşdan yonulub hazırlanmış at və qoç heykəllərinə, maldarlıq məhsullarının hazırlanması üçün istifadə olunmuş müxtəlif növ gil qab nümunələrinə, sərniclərə, nehrələrə və s. rast gəlinməsi, tarixən bu bölgədə maldarlığın bütün növ sahələri ilə məşğul olunmasından xəbər verir [9, s. 220]. Bərdə şəhər yerində arxeoloji tədqiqat işləri zamanı çoxlu su, təsərüffat, zibil quyuları, eləcə də təndir və ocaq qalıqları aşkar edilmişdir. Bu quyulardan aşkar edilən müxtəlif sümük qalıqlarının varlığı və

zənginliyi, eləcə də təsərüffat qabalarının içərsində aşkar edilən çoxlu sümük qalığına əsasən deyə bilərik ki, Bərdədə erkən orta əsrlərdə maldarlıq mühüm yer tuturdu. Arxeoloji qazıntılar zamanı tapılmış heyvan sümüklərinin içərsində üstünlüyü iribuynuzlu heyvanlar təşkil edirdi. Ikinci yerdə isə xırdabuynuzlu heyvan sümükləri tuturdu. İribuynuzlu heyvanlar zümrəsinə daxil olan Bərdə qoşqu çöngəsi haqqında orta əsr müəllifləri geniş məlumat verirlər. Şəhər ərazisində aşkar edilən iribuynuzlu heyvan sümükləri, mal qara(inək, öküz) dəvə,at və xırdabuynuzlu (qoyun, keçi) heyvan sümükləri şəhər əhalisinin hansı heyvanları bəsləməsi və onlardan hansı məqsədlə istifadə etmələri haqqında fikir söyləməyə imkan verir. Əhali onların bir qismindən həm ətindən, həm də südündən qida məhsulu kimi faydalanır, yun və dərisindən toxuculuq və dabbaqçılıqda istifadə edir, buynuzundan və sümüyündən isə sümükişləmə sənətində müxtəlif məmulatlar düzəldirdilər [91, s. 31].

Uti vilayətində aparılan arxeoloji-etnoqrafik müşahidə və tədqiqatlara dayanaraq deyə bilərik ki, Azərbaycanın digər erkən orta əsr yaşayış yerlərində olduğu kimi bu bölgədə də erkən orta əsrlərə aid oturaq maldarlığın düzən, dağlıq və dağətəyi növləri mövcud olmuşdur [72, s. 176]. Bölgədə oturaq maldarlığın mövcudluğu ərazinin coğrafi relyefindən, fauna və flora zənginliyindən, iqlimin münbitliyindən, şirin su hövzələrinin bolluğundan, habelə əhalinin maddi və mənəvi dəyərlərindən bilavasitə asılı olmuşdur. Buradakı maldarlar öz heyvanlarını bilavasitə kəndətrafı örüşlərdə, habelə biçindən sonrakı kövşənliklərdə otarır, suya olan təlabatlarını bol və şirin su mənbələri ilə qarşılamış olurdular. Erkən orta əsrlər də Uti vilayətində oturaq maldarlıqla yanaşı yarımköçmə maldarlığın da mövcud olduğu arxeoloji qazıntılar vasitəsilə aydınlaşmışdır. Maldarlığın bu formasının fəaliyyəti zamanı mal-qara, hətta qışlaq mövsümündə belə, örtülü tövlə və yataqlarda deyil, açıq və ya yarımaçıq kərəskə və ağıllarda saxlanılırdı.

Etnoqrafik müşahidələr nəticəsində aydın olmuşdur ki, Azərbaycanın digər erkən orta əsr yarımköçəri maldar tayfaları kimi Uti bölgəsində mövcud olmuş yarımköçəri maldar tayfaların da özünəməxsus xüsusiyyətləri olmuşdur. Belə ki, bu maldar tayfaların ümumilikdə yarımköçəri maldar tayfalara məxsus

mədəniyyətlərdən tam fərqi ondan ibarət idi ki, onların daimi yaşayış məskənləri, daimi yaylaq və qışlaq otlaq sahələri, daimi köç yolları, az miqdarda olsa belə, yenə də müəyyən miqdarda əkin sahələri mövcud olmuşdur. Uti vilayətində iri və xırdabuynuzlu, habelə qatırçılıq və atçılığın inkişafı əsasən bölgə ərazisinin dağlıq və düzən tipli relyef quruluşa malik olmasından birmənalı şəkildə asılı idi. Belə ki, əgər çətin keçilə bilən dağ relyefinndə əsasən xırdabuynuzlu (qoyun, keçi) heyvandarlıq inkişaf etdirilmişdirsə, bu hal düzən relyefdə öz yerini daha çox iribuynuzlu heyvandarlığa vermişdir. Uti vilayətində erkən orta əsr kənd tipli yaşayış yerlərində aparılmış və aparmış tədqiqatlar zamanı çoxlu sayda ev heyvanlarından olan qoyun, keçi və qaramal sümüklərinə rast gəlinməsi faktı burada maldarlığın hər iki qolunun inkişafı üçün əlverişli şəraitin olduğundan xəbər vermişdir. Tədqiqat işləri zamanı osteoloji qalıqlara, başlıca olaraq aşkar olunmuş mədəni təbəqənin ocaq yerlərində, quyularda, təndirlərdə, təsərrüfat tipli tikililərin torpaq döşəmələrində və saxsı nümunələri içərisində rast gəlinmişdir ki, bunların da hər biri ayrı-ayrılıqda maldarlığın insan həyatında önəmli yerə sahib olmasından xəbər verir. Uti vilayətində aparılmış arxeoloji qazıntılar zamanı iri və xırdabuynuzlu maldarlığa aid osteoloji qalıqlar içərisində bir qayda olaraq keçi, qoyun, öküz, camış,dəvə, at və ulaq sümükləri aşkarlanaraq qeydə alınmışdır. Bu materialların öyrənilməsi zamanı isə Utivilayətinin III-VIII əsrlər maldarlıq təsərrüfatında əsas yerin xırdabuynuzlu ev heyvanlarına aid olduğu aydınlaşmışdır. Uti bölgəsində inkişaf etdirilmiş heyvandarlığın digər bir sahəsi isə atçılıq olmuşdur. Bu təsərrüfat, demək olar ki, zaman keçdikcə maldarlıqdan ayrılmış və özü xüsusi bir təsərrüfat sahəsinə çevrilmişdir [13, s. 544]. Tarixən atçılığın bir çox təsərrüfat və ordu quruculuğu sahələrində özünü köməkçi qüvvə kimi göstərməsi faktı tarixi qaynaqlardan və arxeoloji tədqiqatlardan məlumdur. Tranzit ticarətindən tutmuş ölkə daxili ticarətdə minik və qoşqu vasitəsi kimi, müharibələrdə isə süvarinin əsas döyüş vasitəsi kimi bu heyvanın daha çox lazımlı olması atçılığın inkişafını hər zaman labüd etmişdir. Uti vilayətində aparılan arxeloji tədqiqat işləri zamanı çoxlu sayda at sümüklərinə rast gəlinmişdir. Beləliklə  onu demək olar ki,

Uti bölgəsi qədim dövrlərdən maldar əhalinin təsərrüfat fəaliyyətində böyük rol oynamış, onun yaşam tərzinə hər cəhətdən təsir göstərmişdir.

VII əsrin I yarsının sonlarında Sasani imperiyasının dağılması ilə Azərbaycan Atlantik okeanı sahillərindən Çin və Hindistana qədər uzanan Ərəb Xilafətinin tərkibinə daxil edildi [22, s. 7]. Azərbaycanın vahid bir dövlətin hakimiyyəti altında olması, daha sonralar isə müstəqil feodal dövlətlərinin yaranması onun bütün sahələrdə inkişafına müsbət təsir göstərmişdir. VII-X əsrlərdə Azərbaycanda o cümlədən Uti bölgəsində oturaq və köçəri maldarlıq geniş yayılmışdı [13, s. 215]. Həmçinin Uti vilayətində əhali maldarlığın bir sahəsi olan qoyunçuluda məşğul olurdu.Ancaq təsərrüfatın bu forması Azərbaycanda geniş inkişaf tapa bilməmiş, yalnız Şirvan, Qarabağ, Muğan və Mil düzlərində qeydə alınmışdı [13, s. 215]. Qafqaz Albaniyasının Uti vilayətində atçılıda inkişaf etmiş və şöhrət qazanmışdı. Ərazinin cöğrafi mövqeyi və təbii şəraiti bizə bunu birmənalı şəkildə deməyə imkan verir[8, s. 231].

Beləliklə, aparılan araşdırmalar bizə deməyə əsas verir ki, Uti vilayəti erkən orta əsrlərdə Azərbaycanın maldarlıq təsrrüfatının yaxşı inkişaf etmiş ərazilərindən biri olmuşdur.

### 3.4. Sənətkarlıq

Uti bölgəsində sənətkarlığın inkişaf səviyyəsi təbii-coğrafi şərait və xammal ehtiyyatlarının bolluğu ilə əlaqəlidir. Belə ki, mövcud durum ilk orta əsrlərdə Uti vilayətində sənətkarlığın müxtəlif sahələrinin dulusçuluq, metalişləmə, şüşə istehsalı, eləcə də yardımçı sənət sahələri və peşə növlərinin davamlı inkişafına təkan vermişdir.

#### 3.4.1. Dulusçuluq

İlk orta əsrlərdə Uti bölgəsində sənətkarlığın aparıcı sahələrindən biri dulusçuluq olmuşdur. Dulus materiallarının araşdırılması ilk orta əsrlərdə Uti vilayətində sənətkarlığın inkişaf səviyyəsi haqqında fikir söyləməyə əsas verir.

İlkin sənətkarlıq nümunələri ağacdan və daşdan olan ilk alətlər və silahlardır. Daha sonra sümükişləmə, dəriçilik, dulusçuluq, metalişləmə, şüşə istehsalı kimi

sənət sahələri təşəkkül taparaq inkişaf edib. Məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə, ayrı-ayrı sənət sahələri də təkmilləşib. Bu baxımdan ilk orta əsrlər dövrü Azərbaycan tarixinə müxtəlif sənət sahələrinin yüksəlişində yeni mərhələ kimi daxil olub.

Azərbaycanda zəngin gil yataqlarının olması dulusçuluğun minilliklər boyu davamlılığını təmin etmişdir [23, s. 72].

Dulusçuluq dedikdə, gildən hazırlanan məmulatlar nəzərdə tutulur. A.Mustafayev gil məmulatı istehsalını dulusçuluq, kərpickəsmə, suvaqçılıq və kaşıçılıq kimi sahələrə bölür [87, s. 83].

Tarix boyu Azərbaycan ərazisində çoxsaylı gil məmulatlar istehsal olunmuşdur. Gildən hazırlanan məmulatlar su daşımaq (səhəng, cürdək, bardaq, kuzə, küp), su saxlamaq (squrqur, dolça, parç, tayqulp), yuyunmaq üçün (aftafa, lüləyin, fəşir), mətbəx qabları (çölmək, qazança, küvəc, piti dopuları, çilovsüsən, həlimdan), çörəkbişirmə vasitələri (kürə, təndir, sac, manqal) çoxluğu ilə fərqlənir [23, s. 73]. Azərbaycanda ilk orta əsr dulusçuluq sənətinin tədqiq edilməsinin vacibliyi arxeoloji qazıntılar zamanı aşkarlanmış materialların bolluğu ilə də əlaqəlidir [50, s. 23-28].

Qafqaz Albaniyasının ilk orta əsr dulus məmulatı formasına və daşıdığı məqsədə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1) məişətdə və təsərrüfatda işlənən qablar;

2) zoomorf və antropomorf qablar;

3) uşaq oyuncaqları;

4) tikinti materialları.

Saxsı məmulatı da öz növbəsində texniki xüsussiyyətlərinə görə iki yerə bölünür.

1) Şirsiz saxsı məmulatı;

2) Şirli saxsı məmulatı.

XX əsrin 80 ci illərindən arxeoloq A.Nuriyev tərəfindən Bərdədə aparılan arxeoloji qazıntılar zamanı şəhərin keçmişi ilə bağlı zəngin arxeoloji materiallar və dulus məmulatları əldə edilmişdir. İlk orta əsrlər dövrünə aid III-IV və IV-VIII

əsrlərə aid təbəqələr digər təbəqələrə nisbətən əldə olunan maddi mədəniyyət nümunələri kəmiyyətinə görə nisbətən zəifdir. Çox güman ki, bu ərazi şəhərin ətrah hissəsi olması ilə əlaqədar idi. Həmçinin bəhs olunan dövrdə dulusçuluq sənətində qəribə bir məqam yaranmışdır ki, onu da mütəxəssislər adətən "dulusçuluqda durğunluq"dövrü adlandırmışlar. Bununla bağlı arxeoloq R.M. Vahidov bunun başlıca səbəbini Bizans imperyası ilə Sasanilər arasında gedən müharibə ilə əlaqələndirirdi. R.Göyüşov isə əsas səbəb kimi xarici işğalçıalrın vurduğu zərbələrlə, Q.Əhmədov isə cəmiyyətin özündə baş verən ictimai iqtisadi proseslərlə bağlayırdı. Çox güman ki bunun səbəbi həm xarici işğalçıların hücumu, həm də tətbiq olunan dulus çarxının bu dövrdə az tətbiq edilərək məmulatın əldə kobud hazırlanması ilə bağlı idi. Göstərilən təbəqənin özündən sonrakı təbəqələrə nisbətən zəif olmasına baxmayaraq, buradan əldə edilən materiallar erkən orta əsrlərdə Bərdə şəhərində dulus məmulatı haqqında geniş danışmağa imkan verir. Bərdə şəhərində qazıntılar zamanı alt təbəqədən əldə edilən saxsı məmulatları III-VIII əsrlərə aid edilir.Buradan əldə edilən dulus məmulatları məişət və təsərüffat qablarından, tikinti materiallarından və eləcə də qismən zoomorf qablar və uşaq oyuncaqlarından ibarətdir [91, s. 38]. .Dulus məmulatları içərsində ən çox rast gəlinən şirsiz məişət və təsərüffat qablarıdır. Həmçinin qismən şirli qablara da rast gəlinir.

Kaqankat şəhərinin ətrafında zəngin meşələrin olması dulus məmulatların hazırlanmasında əsas vasitə olan yanacaq materiallarının bolluğuna imkan vermişdir.

Uti vilayətinin Ergi düzündə 1986-cı ildə də arxeoloji kəşfiyyat işləri zamanı şumlanmış sahədən xeyli sayda saxsı hissələri əldə edilmişdir. Bu cür məmulatlar su quyusu qazılan zaman da aşkarlanmış və ətrafa səpələnmişdi. Burada diqqəti çəkən tapıntılardan biri ətrafa səpələnmiş şlaklaşmış –çixar hala salınmış gil kərpic hissələridir. Onların qalınlığı 6 sm, tərəflərin uzunluğu 26 sm-ə çatırdı. Bundan başqa alt üzü beşbucaqlı formalı olub, bir bucağı iti bucaq şəklində irəli çıxan, üst hissəsində isə gil lentdən bir ucu açıq bərabəryanlı üçbucaq şəkilli çıxar hala salınmış naməlum fiqurun olması yaxınlıqda dulus kurəsinin olmasından xəbər

verirdi. Qəhvəyi rəngdə, çay qumu qarışıq gildən keyfiyyətli bişirilmiş bu fiqurun üzərinə qırmızı boya çəkilmişdir.Yuxarıda şərh olunanlarla yanaşı , Ergi arxeoloji dəstəsi Ağdamın digər yerlərində də dağıntıya məruz qalmış abidələrdə kəşfiyyat işləri aparmışdı. Onlardan biri də Baharlı kəndi ərazisində yerli əhali tərəfindən Seyid Əhməd yatağı adlanan ərazidəki dağ yamacında yerləşən abidədir. Yol və su xətti çəkilişi zamanı aşkarlanmış materialların bir qismi ilk orta əsrlərin ilk mərhələsinə aiddir.

Tədqiqat zamanı tapılan irihəcmli küpün ağız hissəsi sünbülvari kəsmələrlə haşiyələnib.Digərinin isə üzərini lentşəkilli yapışdırma bəzək əhatə edir.

Uti vilayətinin Qaraköpəktəpə yaşayış yeri oturaq həyat tərzinə keçmiş əcdadlarımızın məskəni olmuşdu. Təpədə böyük bir qəbilə icmasına məxsus yaşayış yeri yaranmış və burada ibtidai əkinçi-maldar istehsal təsərrüfatının əsası qoyulmuşdu [120, s. 3].

Əkinçilik və maldarlıq təsərrüfatının yüksəlişi, metalişləmə, dulusçuluq və başqa sənət sahələrinin geniş inkişafı, Şərq ölkələri ilə artan iqtisadi-mədəni əlaqələr çox keçmədən burada yeni ictimai münasibətlərin təşəkkülünə zəmin yaratmış, Qaraköpəktəpənin böyük bir tayfaya məxsus yaşayış yerinə çevrilməsinə gətirib çıxartmışdı [142, s. 3-12].

Müəyyən durğunluq və tənəzzül dövründən sonra Azərbaycanın ərəb Xilafəti kimi iqtisadi və siyasi cəhətdən güclü və eyni zamanda vahid bir dövlətin tərkibinə daxil olması ümumilikdə mütərəqqi xüsusiyyət daşımış, o zamankı beynəlxalq aləmə qovuşdurmaqla təcridliyinə son qoymuşdur [12, s. 124]. Bununla ayrı-ayrı qapalı bölgələrin nəinki siyasi, həm də iqtisadi və mədəni cəhətcə yaxşılaşması üçün əlverişli şərait yaranmışdır.Yeni sənət sahələrinin təşəkkülü və inkişafı ticarət əlaqələrinin artması qədim yaşayış yerlərini o cümlədən köhnə şəhərlərin yeni dirçəlişi və genişlənməsi yeni şəhərlərin salınması Azərbaycanda orta əsrlərin səciyyəvi xüsusiyyətini təşkil etməklə iqtisadi-mədəni inkişaf və tərəqqi üçün əsas olmuşdur. Mövcud şəraitdə Azərbaycanın bir çox orta əsr şəhərləri əsl mənada mədəni mərkəzlərə, İslamın qəbul edilməsi ilə yaranmaqda olan “İslam mədəniyyəti”-nin mərkəzlərinə və yayıcılarına çevrilmişdir [51, s. 48].

Tapılan maddi-mədəniyyət nümunələri bölgənin ilk orta əsrlər dövründə mühüm sənətkarlıq mərkəzlərindən biri olduğunu səciyyələndirir. Tapıntıların böyük bir qismi dulus və şüşə məmulatından, eləcə də zərgərlik nümunələrindən ibarət olmaqla müsəlman mədəniyyətinə xas bir sıra xüsusiyyətləri parlaq şəkildə əks etdirir.

Tapıntıların müəyyən hissəsi bədii sənət sahələrilə bağlı əmək alətlərindən ibarət olmaqla əldə edilən qədim sənətkarlıq nümunələrinin bilavasitə yerli istehsal olmasını göstərir.Qaraköpəktəpədə arxeoloji qazıntılar zamanı erkən orta əsrlər dövrünə aid məişət əşyaları tapılmışdır.

Dulus sənətkarlığı müsəlman mədəniyyətinin təçəkkülü ilə tamamilə yeni görkəm almış, tətbiqi incəsənətin ən bariz və ən geniş yayılmış sahəsinə çevrilmişdir.

Etnoqrafik tədqiqatlar göstərir ki, gil yazda yığılırdı. Gil quyuda acıtma prosesi keçirəndən sonra yoğrulurdu. Dulus xəmrinin yoğrulub, tapdanması "əlləmə" adlanır [23, s. 72-81]. Xəmir hisələrə bölünürdü. Texnoloji baxımdan çarxlı və qeyri çarxlı olmaqla iki qrupa bölünür [23, s. 72-81]. Qeyri çarxlıya təndir, quyubaşı, sərnic, kürə və s. misal gətirmək olar. Əl çarxı vasitəsilə düzəldilən qablar oyma və piçənə üsulu ilə hazırlanırdı. Oyma üsulunda kündəni əl çarxı üzərinə qoyub ortasını genəldərək lazimi şəklə salırdılar. Bu prosesdə yaş əski və bıçaq yardımı ilə kənarını hamarlamaq  üçün istifadə edirdilər. Piçənə üsulunda isə əl çarxı üzərində qoyulan xəmiri istənilən formaya saldıqdan sonra kənarına piçənə adlanan palçıq əlavə edilərək gövdəsi əmələ gəlir.Yenidən artırmaqla proses iki-üç dəfə təkrar olunur. Ayaq çarxı əl çarxına nisbətən daha keyfiyyətli olur .

### 3.4.2. Metalişləmə

Öyrəndiyimiz tarixi abidələrdə digər maddi-mədəniyyət qalıqları ilə yanaşı metal məmulatları da aşkar edilmişdir. İnsan cəmiyyətinin hər hansı bir ictimai-iqtisadi durumunun aydınlaşdırılmasında əsas etalon-əmək alətləridir. Burada insanların istifadə etdiyi əmək alətlərinin formaları o qədər də əsas rol oynamır. Vacib olan əmək alətlərinin nədən hazırlanmasıdır. Məhz əmək alətlərinin hansı

materiallardan hazırlanmasına görə insan cəmiyyəti daş, mis-daş, tunc və dəmir dövrünə bölünür.

Tədqiqatlar zamanı ilk orta əsrlər dövrünə aid edilmiş çoxlu dəmir parçası və çıxdaşları Uti vilayətində metalişləmənin inkişaf etməsin nişan verən əsaslı dəlilərdəndir.

Dəmirçilik. İlk orta əsrlərdə əsas əmək alətləri və silahlar dəmirdən düzəldilirdi. Dəmir həm də tikintidə, təsərrüfatda və məişətdə geniş tətbiq olunurdu. Yedditəpə yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı açılan sərdabələrin birindən ilk orta əsrlər dövrünə aid 2 kiçik dəmir xəncər, dəmir qalxan qırıqları, balta, digər dəmir silah nümunələri və bir nizə də tapılmışdır. Uti bölgəsində ən çox rast gəlinən dəmir məmulatları xüsusi qeyd etmək lazımdır. Digər tərəfdən Şərq ölkələri ilə artan iqtisadi-mədəni əlaqələr çox keçmədən burada yeni ictimai münasibətlərin təşəkkülünə zəmin yaratmışdır. Arxeoloji qazıntılar zamanı erkən orta əsrlər dövrünə aid Bərdə ərazisində aşkara çıxarılan təsəsrüüfat alətləri, məişət qabları, müxtəlif silah növləri, qalıqları və numizimatik dəlilər metalişləmənin inkişaf etdiyini söyləməyə imkan verir [91, s. 97]. Əkinçilik və maldarlıq təsərrüfatının yüksəlişi, metalişləmə, dulusçuluq və başqa sənət sahələrinin geniş inkişafına səbəb olmuşdur.Qaraköpəktəpədə aparılan arxeoloji qazıntılar zamanı dəmirdən düzəldilmiş silah nümunələrinə, həmçinin əmək alətləri aşkar olunmuşdur. Onların içərisində dəmirdən düzəldilmiş məişət və təsərrüfat avadanlıqları, silah nümunələri və sairə - tapıntılar çoxluq təşkil edir. Yerli sənətkarlar tərəfindən hazırlanmış bu əşyaların hər biri nadir və nəfis incəsənət nümunəsidir [54, s. 37]. Arxeoloji qazıntılar zamanı aşkarlanmış bəzi alətlər çoxfunksiyalı olub, həm sənətkarlıqda, həm də məişətdə istifadə olunurdu. Çəkic, balta, kərki, kəlbətin, mişar, iskənə, qayçı, bıçaq və s. belə alətlərdəndir. Həmin alətlərin əksəriyyəti öz formasını müasir dövrə qədər saxlamışdır. Bu da onların artıq orta yüzilliklərdə mükəmməl formaya malik olduğuna dəlalət edir. Müxtəlif təyinatlı bıçaqların istehsalı kütləvi xarakter daşıyırdı. Bu tip bıçaq nümunələrinə Uti bölgəsində az təsadüf olunub.

Hərbi bıçaqlar da Azərbaycanın ilk orta əsr şəhərlərinin arxeoloji qazıntılarından yaxşı məlumdur. Ox və kaman erkən orta əsrlərdə də mühüm silahlardan biri olaraq qalırdı.

Yuxarıda qeyd etdiyimiz faktlar Uti bölgəsində III-XIII əsrlərdə fəal dəmir məmulatından istifadə edilən bir ərazi olduğunu bir daha gösrtərmiş oldu.

Misgərlik. Qafqaz Albaniyası tarixən yeraltı və yerüstü sərvətlərlə zəngin olmuşdur. Musa Kalankatuklu da öz əsərində bu Qafqaz Albaniyasının faydalı qazıntılarla zəngin olması haqqında məlumat verir. Bu baxımdan da Albaniyada xüssusən Uti vilayətində sənətlərin inkişafına böyük imkanlar açılmışdı. Arxeoloji qazıntılar zamanı Qarabağ, Naxçıvan, Mingəçevir, Gədəbəy, Qazax, Gəncə, və s. yerlərdən tapılmış metaldan hazırlanmış belə sənət əsərlərinin varlığı da deyilənləri təsdiq edir. Bu tapıntılar Albaniyada sənətkarların ustalıq bacarıqlarının yüksək olduğunu sübut edir.

Uti vilayətinin yerləri lap qədim zamanlardan mis məmulatının ən çox istifadə olunduğu ərazilərdən biri olub.Metalişləmənin mühüm sahəsi zəngin mis yataqlarının varlığına əsaslanan, qədim istehsal ənənələrinə malik misgərlik sənəti orta əsrlərdə öz inkişafında yeni mərhələyə daxil oldu.

Arxeloji qazıntılar zamanı Yedditəpədə qəbirlərdən müxtəlif bəzək əşyaları, rəngarəng mis bəzək tapılmışdır. Görünür, onların hamısı dəfn mərasimi zamanı mərhumun qohum və tanışları tərəfindən qəbrə bəxşiş kimi atılmışdı.

Qazıntı zamanı silah nümunələrinə iki uşaq qəbrindən başqa demək olar ki, bütün qəbirlərdə rast gəlinirdi. Hər qəbirdə, onun kişiyə və yaxud qadına aidliyindən asılı olmayaraq ən azı üç silah nümunəsinə təsadüf edilirdi. Xəncər və qılıncların bir qisminin dəstək və qınları mis və gümüş lövhəciklərlə bəzədilmişdi.

Uti vilayətinin yaşayış yerlərində mis məmulatlarının ən çox rast gəlindiyi yerlərdən biri də Qalatəpə, Bərdə şəhərinin Şortəpə yaşayış yeridir.

Erkən orta əsrlərdə də Uti vilayəti misgərlik sənətinin yaxşı inkişaf etdiyi ərazilərdən biri olaraq qalırdı. Bu dövrdə həmçinin Gəncə, Dəbil, Şamaxı, Dərbənd, Naxçıvan, Tiflis, Təbriz, Ərdəbil kimi Azərbaycan şəhərləri mis məmulatı istehsalında öncül mövqe tuturdular. Misgər emalatxanalarında tətbiq olunan

istehsal texnologiyası ənənəvi olaraq əritmə, isti və soyuq döymədən ibarət idi. Bundan başqa, istehsal prosesində zərbetmə, kəsmə, lehimləmə, məftilçəkmə, deşmə və digər texniki üsullardan istifadə olunurdu. Bəzən bir əşyanın hazırlanmasında bir neçə texniki üsul tətbiq olunurdu.

Orta əsr misgərlərinin yüksək texniki nailiyyətlərini nümayiş etdirən faktlardan biri də misdən tük naziklikdə saplar hazırlanmasıdır. Belə saplar bədii tikmə sənətində geniş işlədilirdi. Döymə üsulu ilə mis təbəqədən hazırlanmış məmulat arasında ləyən, qapaq, parç, dolça, məcməyi, qaşıq, tərəzi gözləri də vardır. Bu cür mis məmulatları nümunələri çox güman ki, Uti bölgəsində də mövcud olmuşdur.

### 3.4.3. Şüşə məmulatı istehsalı

Uti bölgəsində yaxşı inkişaf etmiş sənətkarlıq sahələrindən biri də şüşə məmulatı istehsalı olmuşdur. Bölgədə mövcud olan yaşayış yerlərində aparılan arxeoloji qazıntılar zamanı bu sənətkarlıq sahəsinə aid maddi-mədəniyyət abidələrinə rast gəlinmişdir. Uti vilayətində yaşayan əhalinin müəyyən hissəsi erkən orta əsrlərdə sənətkarlığın ayrı-ayrı növləri olan dulusçuluqla, metal məmulatı (dəmirçilik) istehsalı kimi sənətkarlıq sahələri ilə yanaşı şüşə istehsalı sənəti ilə də məşğul olmuşlar [111, s. 65-67].

Uti vilayətinin Govurqala yaşayış yerindən də arxeoloji qazıntılar zamanı müxtəlif şüşə məmulatlarıəldə edilmişdir. Govurqala Ağdam rayonun Boyəhmədli və Sofulu kəndi ərazisindədir və bu abidə elm aləminə 1958 ci ildən məlumdur. Govurqala yaşayış yeri təxminən 4 hektar ərazini əhatə edir. Arxeoloji qazıntılar zamanı buradan xeyli sayda şüşə məmulatı aşkar edilmişdir. Govurqalanın şüşə məmulatı əsasən qazıntının birinci, aşağı mədənitəbəqəsindən tapılmışdır. Şüşə məmulatının böyük bir qismini kiçikhəcimli ətir və ya dərman qabları təşkil edir.Bu növ qabların xeyli hissəsi bütöv halda 1971 ci il qazıntıları zamanı II qazıntı sahəsindən aşkar edilmişdir. Bəlkə də bu onların salamat qalmasına səbəb olmuşdur. Şüşə məmulatının digər böyük bir qrupu 1972 ci ildə 4-cü qazıntı sahəsindən otağın döşəməsindən aşkar edilmişdir. Bu otaq yarımqazma halında olub möhrədən tikilmiş, içəri tərəfdən çay daşları ilə

düzlənmişdir. Bu otağın döşəməsini təmizləyərkən oradan ocaq yeri, xeyli şüşə məmulatı və bir ədəd də Bizans imperatoru Anastasinin (491-518) adından kəsilmiş pul tapılmışdır.

Govurqalada 3№ - li quyudan xeyli sayda şüşə məmulatı aşkar edilmişdir.

3 №-li quyudan tapılan belə şüşə qablar Cənubi Qafqazın bir çox yerlərində aparılan arxeoloji tədqiqat işləri zamanı IV-VIII əsrlərə məxsus təbəqədən aşkar edilmişdir [87, s. 112].

Govurqalanın məbəd yerində aparılan arxeoloji qazıntılar zamanı bir ədəd şüşə ətir qabı tapılmışdır. Qabın ağız hissəsindən bir parça sınıb düşmüşdür. Onun ağzının qırıqları kənara qatlanmışdır. Boğazla gövdənin yapışdırıldığı hissə ağac kəlbətinlə səhmanlanmışdır. Şarvari gövdəsi olan bu qab üfürmə üsulu ilə hazırlanmışdır. Qabın ümumi hündürlüyü 4,5, oturacaqlarının diametri isə 1,2, ağzının diametri isə 2,2 sm-dir.

1972-ci ildə Govurqalada tapılmış şüşə ətir qablarının oxşarı ancaq Azərbaycanda aşkar edilmişdir. Məhz buna görə də qabın ancaq yerli şüşə istehsalı nümunəsi olduğu haqqında fikir söyləmək olar. Bununla yanaşı aşkar edilmiş şüşə qablar içərsində çıxdaş nümunələr də vardır ki, bu da yerli istehsal haqqında fikir söyləmək üçün ən tutarlı elmi dəlilərdəndir [89, s. 113].

1976-ci ildə Bərdə şəhəri ərazisində aparılan tikinti işləri zamanı üç ədəd şüşə ətir qabı da aşkar edilmişdir. Qabların ikisinin səthi qabırğavari konnelurlə bəzədilmiş, digəri isə qəhvəyimtil rəngdədir [90, s. 84].

1975 ci ildə Q. İsmayılzadə erkən orta əsrlər dövrünə aid Füzuli rayonun Yedditəpə ərazisində aparılan arxeoloji qazıntılar zamanı iki ədəd şüşə qab nümunəsi aşakr etmişdir. Onlardan biri boşqab, digəri isə piyalə tipli qab olmuşdur [90, s. 82]. Uti vilayətinin Yedditəpə yaşyış yerində mövcud olan qəbir abidlərində aparılan arxeoloji qazıntı işləri zamanı çoxlu sayda şüşə qablar da aşkar edilmilşdir. Qazıntılar zamanı qəbirlərin birindən şüşə cam tapılmışdır. Baxmayaraq ki, neçə əsrlər torpaq altında qalıb ancaq öz şəffaflığını və gözəlliyini itirməmişdi [54, s. 52; 99, s. 383]. Bu cam Uti vilayətində şüşə istehsalının yaxşı inkişaf etdiyini göstərməklə bərabər, eyni zamanda bölgədə sənətkarlığın yüksək inkişaf etdiyini

göstərir. Onun oturacağı qabarıq naxış ilə çiçək formasında bəzədilmişdi (54, s. 52; 12, s. 102]. Öz formasına görə bu Azərbaycanda ilk tapıntı sayılır. Bəzi qəbirlərdə metal bəzəklərlə yanaşı şüşə muncuqlar, qiymətli dağ süxurundan və yaqutdan bəzək əşyalarına da də təsadüf olunmuşdur. Tapılan üzüklərin çoxunun qaşında möhürlər vardır. Üzüklərdən birinin şüşə qaşında ikibaşlı qartal təsvir edilmişdi. Bütünlüklə şəffaf dağ süxurundan yonulmuş başqa bir üzüyün üstündə əllərini yuxarı qaldırmış uzun əbalı kahin təsviri verilmişdi.

Başqa bir tapıntıda qırmızı rəngli əqiq daşından yarımdairəvi möhürün üzərində mikroskopik ölçüdə şir başı təsvir olunmuşdu. Qəbirdə dəfn olunanın döş sümükləri arasında ortasında sap üçün deşiyi olan bir möhür yerləşirdi. Şəxsi mülkiyyətçilik hüququnu təsdiqlətmək, nişanlamaq üçün istifadə olunmuş bu möhür çox güman ki, vaxtilə varlı olmuş ölənin boynundan asılıbmış. Vəhşi heyvan təsvirləri şüşə qaşlı üzüklərdə də verilmişdi. Bunların içərisində maral təsvirləri daha çox idi [99, s. 383].

